AMADA
STAY CLEAN

# ANTİ DOPİNQ QAYDALARI

16.01.2017 / I nəşr

# ANTİDOPİNQ QAYDALARI

AMADA TƏRƏFİNDƏN
TƏSDİQ EDİLMİŞDİR

13.01.2017-Cİ İL TARİXİNDƏN
QÜVVƏYƏ MİNMİŞDİR

Azərbaycan Milli Antidopinq Agentliyi
tərəfindən nəşr edilmişdir

Müəllif hüquqları AMADA-ya məxsusdur

## MÜNDƏRİCAT

GİRİŞ.....2
ÖN SÖZ.....2

Məcəllə və MADA-nın antidopinq qaydalarının fundamental əsaslandırılması.....2
Milli antidopinq proqramı.....3
Hazırki antidopinq qaydalarının əhatə dairəsi.....4

**MADDƏ 1** Antidopinq qaydalarının tətbiqi.....5
**MADDƏ 2** Dopinq anlayışı–antidopinq qaydalarının pozuntusu.....15
**MADDƏ 3** Dopinqin sübutu.....19
**MADDƏ 4** Qadağan edilmiş maddələr və üsullar siyahısı.....20
**MADDƏ 5** Test və araşdırmalar.....28
**MADDƏ 6** Nümunələrin analizi.....33
**MADDƏ 7** Nəticələrin emalı.....35
**MADDƏ 8** Ədalətli dinləmə hüququ.....42
**MADDƏ 9** Fərdi idman növləri nəticələrin avtomatik diskvalifikasiyası.....47
**MADDƏ 10** Fərdi şəxslərə qarşı sanksiyalar.....47
**MADDƏ 11** Komandalar üçün sanksiyalar.....58
**MADDƏ 12** İdman orqanları tərəfindən ödənilməli olan sanksiyalar və xərclər.....59
**MADDƏ 13** Apellyasiyalar.....61
**MADDƏ 14** Məxfilik və hesabatlılıq.....68
**MADDƏ 15** Qərarların tətbiqi və tanınması.....72
**MADDƏ 16** MADA antidopinq qaydalarının və beynəlxalq federasiyaların öhdəliklərinin uyğunlaşdırılması.....73
**MADDƏ 17** İddia müddəti.....73
**MADDƏ 18** MADA-nın ÜADA-ya riayət hesabatları.....73
**MADDƏ 19** Təhsil.....74
**MADDƏ 20** Antidopinq qaydalarına dəyişikliklər eidlməsi və onların şərhi.....74
**MADDƏ 21** Məcəllənin şərhi.....74
**MADDƏ 22** İdmançıların və digər şəxslərin əlavə rol və öhdəlikləri.....74
**MADDƏ 23** Maliyyə müddəaları.....77
**QOŞMA 1** Anlayışlar.....80

# AMADA-NIN ANTİDOPİNQ QAYDALARI

## GİRİŞ

### Ön söz

Hazırki Antidopinq Qaydaları *MADA-nın Məcəllə* üzrə öhdəliklərinə uyğun olaraq və AMADA-nın Azərbaycan Respublikasında idman sahəsində dopinq istifadəsinin aradan qaldırılması üçün davamlı səylərinin dəstəklənməsi məqsədi ilə qəbul edilir və həyata keçirilir.

Hazırki Antidopinq Qaydaları idmanla məşğul olma şərtlərini idarə edən qaydalardır. Qlobal və uyğunlaşdırılmış şəkildə antidopinq prinsiplərinin təmin edilməsi məqsədi ilə bu qaydalar təbiətcə cinayət və mülki qanunvericiliyindən fərqlidir, və, həmçinin, cinayət mühakimə və ya mülki icraata tətbiq edilən hər hansı bir tələb və hüquqi standartlara tabe deyil, və ya onlar tərəfindən məhdudlaşdırılmır. Müəyyən bir mübahisənin faktlarına baxarkən və müvafiq qanunvericiliyi nəzərdən keçirərkən, bütün məhkəmələr, arbitraj məhkəmələri, yaxud cinayət mühakimə və mülki mübahisələrə baxan digər ədliyyə orqanları *Məcəllə*ni tətbiq edən Antidopinq Qaydalarının fərqli təbiətindən və ədalətli idmanın mühafizəsi və təmin edilməsi üçün dünya üzrə maraqlı tərəflərin geniş spektrinin konsensusunu özündə ehtiva edən faktlardan agah olmalı və ona hörmət etməlidirlər.

### *Məcəllə* və MADA-nın Antidopinq Qaydalarının Fundamental Əsaslandırılması

Antidopinq proqramlarının məqsədi idmanın həqiqi dəyərlərinin qorunub saxlanılmasıdır. Bu həqiqi dəyərə çox hallarda "idman ruhu" kimi müraciət edilir. Bu Olimpiya hərəkatının əsas mahiyyətidir; hər bir şəxsin öz təbii istedadlarının təkmilləşdirilməsinə həsr etməsi vasitəsi ilə insan kamilliyinə çatmaq cəhdidir. Bu düzgün mübarizənin göstəricisidir. İdman ruhu insan ruhu, bədəni və zəkasının təntənəsidir və bizim idmanda və idman vasitəsi ilə əldə etdiyimiz aşağıdakı dəyərlərdə öz əksini tapır:

- Etika, ədalətli oyun və dürüstlük
- Sağlamlıq
- İcrada kamillik
- Şəxsiyyət və təhsil
- Əyləncə və sevinc
- Komanda işi
- İthaf və öhdəlik

• Qaydalara və qanunlara hörmət
• Özünə və digər *İştirakçılara* hörmət
• Cəsarət
• Birlik və həmrəylik

Dopinq fundamental şəkildə idman ruhuna ziddir.

## Milli Antidopinq Proqramı

AMADA Azərbaycan Respublikası üçün müstəqil *Milli Antidopinq Agentliyi* kimi fəaliyyət göstərmək məqsədi ilə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsis edilmişdir. Belə bir qurum kimi, AMADA aşağıdakı zəruri səlahiyyət və məsuliyyətə sahibdir:

• *Dopinq Nəzarətinin* planlaşdırılması, əlaqələndirilməsi, həyata keçirilməsi, monitorinqi və təkmilləşdirilməsi;

• Digər müvafiq milli təşkilatlar, agentliklər və digər *Antidopinq Təşkilatları* ilə əməkdaşlıq;

• *Milli Antidopinq Təşkilatları* arasında qarşılıqlı *Test keçirilməsinin* şövqləndirilməsi;

• Antidopinq üzrə məlumatlandırma, təlimatlandırılma və profilaktika proqramlarının planlaşdırılması, həyata keçirilməsi və monitorinqi;

• Antidopinq üzrə elmi tədqiqatların təşviq edilməsi;

• *İdmançılara Dəstək Heyətinin* və ya digər *Şəxslərin* hər dopinq halında iştirakının olub-olmamasının ararşdırılması və müvafiq *Sanksiyaların* tətbiq edilməsi daxil olmaqla, bütün mümkün antidopinq qayda pozuntularının öz yurisdiksiyası daxilində qəti təqib edilməsi;

• *Azyaşlı* tərəfindən hər hansı antidopinq qayda pozuntusu, və *İdmançılara Dəstək Heyətinin* hər hansı üzvü tərəfindən antidopinq qaydasını pozmuş bir və ya daha *İdmançıya* dəstək edilməsi halında, öz yurisdiksiyası daxilində *İdmançılara Dəstək Heyətinin* fəaliyyətinin avtomatik təhqiqatsının aparılması;

• *Məcəllənin* 20.7.10-cu Maddəsinə müvafiq olaraq, *ÜADA* tərəfindən aparılan təhqiqatlarla bağlı *ÜADA* ilə tam şəkildə əməkdaşlıq edilməsi; və

- Maddi dəstək təmin edildiyi halda, antidopinq qaydalarının pozuntusuna görə təyin edilmiş *Diskvalifikasiya* müddətində diskvalifikasiya olunan *İdmançı* və ya *İdmançılara Dəstək Heyətinin* üzvü üçün nəzərdə tutulan maddi dəstəyin qismən və ya tamamilə tutulması.

## Hazırki Antidopinq Qaydalarının əhatə dairəsi

Hazırki Antidopinq Qaydalarının əhatə dairəsi 1-ci Maddədə müəyyən edilir.

## MADDƏ 1. ANTİDOPİNQ QAYDALARININ TƏTBİQİ

### 1.1 Qaydaların MADA üçün tətbiq edilməsi

Hazırki Antidopinq Qaydaları AMADA üçün tətbiq olunmalıdır.

### 1.2 Qaydaların *Milli Federasiyalar* üçün tətbiq edilməsi

1.2.1 Azərbaycan hökümətindən və/ və ya Azərbaycanın Milli Olimpiya Komitəsindən maddi və/və ya digər yardımların alınması üçün şərt olaraq, Azərbaycanın hər bir *Milli Federasiyası* Azərbaycanın Milli Antidopinq Proqramının və hazırki Antidopinq Qaydalarının ruhu və şərtlərini qəbul etməli və onlara riayət etməli, və hazırki Antidopinq Qaydalarını öz üzvləri və *İştirakçıları* üçün məcburi olan idman qaydalarının hissəsi kimi öz nizamnamə sənədlərinə, əsasnamələrinə və/və ya qaydalarına birbaşa və/və ya istinad şəklində əlavə etməlidir.

1.2.2 Hazırki Antidopinq Qaydalarını qəbul etməklə və onları öz nizamnamə sənədlərinə və idman qaydalarına əlavə etməklə, *Milli Federasiyalar* AMADA-nın Milli Antidopinq Proqramının həyata keçirilməsi və *Milli Federasiyaların* yurisdiksiyası altında olan və aşağıda 1.3-cü bəndində qeyd olunmuş bütün *Şəxslərə* münasibətdə hazırki Antidopinq Qaydalarının *(Testin keçirilməsi daxil olmaqla)* tətbiqinə səlahiyyətini və məsuliyyətini tanıyır, və AMADA ilə əməkdaşlıq edir və onu bu vəzifənin icrasında dəstəkləyir. Onlar, həmçinin, öz yurisdiksiyası altında olan fərdi şəxslərə sanksiyalar tətbiq etmiş komitələrin qərarları daxil olmaqla, hazırki Antidopinq Qaydaları əsasında qəbul edilmiş qərarları tanımalı, onlara riayət etməli və tətbiq etməlidirlər.

### 1.3 Qaydaların *Şəxslərə* tətbiq edilməsi

1.3.1 Hazırki Antidopinq Qaydaları hər bir halda aşağıda göstərilən *Şəxslərə* (*Azyaşlılar* daxil olmaqla), onların Azərbaycan Respublikasının vətəndaşı və ya rezidenti olub-olmamasına baxmayaraq, tətbiq edilməlidir:

1.3.1.1 Azərbaycanda hər hansı Milli Federasiyanın, yaxud Azərbaycanda hər hansı *Milli Federasiyanın* istənilən üzvünün və ya əlaqəli təşkilatının (hər hansı klub, komanda, cəmiyyət və ya liqa daxil olmaqla) üzvləri və ya lisenziya sahibləri olan bütün *İdmançılar və İdmançılara Dəstək Heyəti;*

1.3.1.2 Azərbaycanda hər hansı *Milli Federasiya,* yaxud Azərbaycanda hər hansı *Milli Federasiyanın* istənilən üzvü və ya əlaqəli təşkilat (hər hansı klub, komanda, cəmiyyət və ya liqa daxil olmaqla) tərəfindən, keçirilmə yerindən asılı olmayaraq, təşkil edilmiş, icazə verilmiş və ya tanınmış Tədbirlərdə, Yarışmalarda və digər fəaliyyətlərdə İdmançı və ya İdmançıya Dəstək Heyəti qismində bütün iştirak edənlər;

1.3.1.3 Akkreditasiya, lisenziya və ya digər müqavilə razılaşması əsasında, antidopinq məqsədləri üçün, Azərbaycanda hər hansı *Milli Federasiyanın*, yaxud Azərbaycanda hər hansı *Milli Federasiyanın* istənilən üzvünün və ya əlaqəli təşkilatının (hər hansı klub, komanda, cəmiyyət və ya liqa daxil olmaqla) yurisdiksiyası altında olan hər hansı *İdmançı* və ya *İdmançıya Dəstək Heyətinin* üzvü və ya digər *Şəxs*;

1.3.1.4 *Milli Federasiya* ilə heç bir əlaqəsi olmayan *Milli Tədbirin* və ya milli liqanın təşkilatçısı tərəfindən təşkil olunan, keçirilən, toplanılan yaxud icazə verilən, istənilən fəaliyyətdə və istənilən şəkildə iştirak edən bütün *İdmançılar* və ya *İdmançılara Dəstək Heyəti;* və

1.3.1.5 1.3.1-cü Maddənin yuxarıda qeyd olunmuş müddəalarının istənilən birinə uyğun olmayan, lakin *Beynəlxalq Tədbirlərdə* yaxud *Milli Tədbirlərdə* iştirak üçün məqbul olmaq istəyən bütün *İdmançılar* (və belə *İdmançılar* belə *Tədbirlərdə* iştirak üçün məqbul olmazdan ən azı on iki ay əvvəl Antidopinq Qaydalarına müvafiq olaraq testdən keçməyə hazır olmalıdırlar).

1.3.2 Hazırki Antidopinq Qaydaları *Məcəlləyə* əsasən AMADA-nın yurisdiksiyası altında olan digər *Şəxslərə*, o cümlədən yarışmalarda iştirak etmək, məşq etmək və ya digər məqsədlər üçün Azərbaycan ərazisində olan bütün *İdmançılara*, həmçinin Azərbaycan vətəndaşı və ya rezidenti olan bütün *İdmançılara* tətbiq edilməlidir.

1.3.3 1.3.1-ci yaxud 1.3.2–cü Maddələrin əhatə dairəsinə düşən *Şəxslər* seçdikləri idman növündə üzvlüklərinin, akkreditasiyalarının və/və ya iştiraklarının şərti olaraq, hazırki Antidopinq Qaydalarını qəbul etmiş və onlara riayət etməyə razılıq vermiş, və AMADA-nın bu Antidopinq Qaydalarını tətbiq etmək səlahiyyətinə; 8 və 13-cü Maddələrdə müəyyən edilmiş komitələrin hazırkı Antidopinq Qaydalarına əsasən müəyyən

mübahisələrin və onların sonrakı apellyasiya qaydasında yenidən dinlənməsi və qərar verilməsi yurisdiksiyasına tabeçiliyi qəbul etmiş sayılırlar.

## 1.4 *Milli Səviyyəli İdmançılar*

1.4.1 1.3-cü Maddənin əhatə dairəsinə düşən və müvafiq Beynəlxalq Federasiya tərəfindən *Beynəlxalq Səviyyəli İdmançı* kimi təsnifatlaşdırılmayan bütün *İdmançılar*, hazırki Antidopinq Qaydalarının məqsədləri üçün *Milli Səviyyəli İdmançılar* sayılmalıdırlar.

1.4.2 Hazırki Antidopinq Qaydaları 1.3-cü Maddədə müəyyən edilmiş bütün *Şəxslərə* tətbiq olunur.

## 1.5 Milli Antidopinq Agentliyi

AMADA-nın fəaliyyəti müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmişdir.

### 1.5.1 Agentliyin müstəqilliyi

AMADA maliyyə muxtariyyəti, büdcəsi olan müstəqil agentlikdir və o, qanunla müəyyən edilmiş funksiya və vəzifələrinin, öz qanuni səlahiyyətlərinin icra edilməsində, aşağıda qeyd edilənlərə əsaslanaraq, müstəqil fəaliyyət göstərməlidir:

1.5.1.1 Azərbaycan Antidopinq Qanunvericiliyi; və

1.5.1.2 AMADA-nın funksiya, səlahiyyət yaxud vəzifələrini birbaşa nəzərdə tutan hər hansı bir digər qanunvericilik və cari AMADA qaydaları.

### 1.5.2 Agentliyin funksiyaları

Agentliyin funksiyalarına aşağıdakılar daxildir:

1.5.2.1 Yarışçıların sağlamlığını, rifahını və idmanda iştirak edən bütün şəxslərin hüquqlarını mühafizə etmək məqsədilə dopinqdən azad idmanda iştirakı təşviq etmək;

1.5.2.2 İdmanda dopinq təcrübəsinin aradan qaldırılması məqsədi ilə ictimaiyyəti və xüsusilə idman ictimaiyyətini məlumatlandırmaq;

1.5.2.3 İdmanda dopinqin aradan qaldırılması məqsədi ilə milli strategiya hazırlamaq;

1.5.2.4 Ümumdünya Antidopinq Məcəlləsini tətbiq etmək və idmanda dopinqlə bağlı Azərbaycanın tərəfdar çıxdığı bütün beynəlxalq müqavilə və razılaşmalara Azərbaycan tərəfindən riayət edilməsini təmin etmək;

1.5.2.5 Nümunələrin və digər tələb olunan materialların müayinə edilməsi üçün Ümumdünya Antidopinq Agentliyi tərəfindən akkreditasiya olunmuş laboratoriyalardan istifadə etmək;

1.5.2.6 Bütün idman növlərində, idman federasiyalarında və idman təşkilatlarında toplanmış nümunələrin testdən keçirilməsi daxil olmaqla, ölkədə antidopinq fəaliyyətini həyata keçirmək;

1.5.2.7 Antidopinqlə əlaqəli olan məsələlərdə müxtəlif təlimatların və beynəlxalq standartların tətbiqini təşviq və təmin etmək;

1.5.2.8 Komitə proseslərinə nəzarət etmək;

1.5.2.9 İdmanda dopinqlə bağlı məsələlərdə təhqiqatlar aparmaq;

1.5.2.10 İdmançılara və İdmaçılara Dəstək Heyətinə Məcəlləyə və Ümumdünya Antidopinq Agentliyi tərəfindən hazırlanmış hər hansı standartlara uyğun olaraq nümunələrin toplanması və testdən keçirilməsinə dair prosedur qaydaları və yeniliklər barədə məlumat verilməsini təmin etmək;

1.5.2.11 Təsdiq olunmuş qaydalar və Beynəlxalq Standartlara uyğun olaraq idmançılardan nümunələr toplamaq və bu nümunələrin testdən keçirilməsi üçün Ümumdünya Antidopinq Agentliyi tərəfindən akkreditasiya olunmuş laboratoriyalara təhlükəsiz və etibarlı şəkildə çatdırılmasını təmin etmək;

1.5.2.12 Aktın icrası üçün tələb oluna biləcək hər hansı sənəd, dəlil və ya şəxs üçün təhqiqat aparmaq, onları toplamaq və tələb etmək;

1.5.2.13 Ümumdünya Antidopinq Agentliyinin tələblərinə uyğun olaraq bütün qadağan edilmiş maddələrlə bağlı məlumatları saxlamaq;

1.5.2.14 Məcəlləyə uyğun olaraq Antidopinq İnzibatçılığı və İdarəçiliyi Sistemində (ADAMS-da) Məkan Məlumatı Reyestrini və Qeydiyyata alınmış Test Qrupunu aparmaq və dəstəkləmək;

1.5.2.15 AMADA qaydalarında müəyyən edilən antidopinq qayda pozuntularını təqib etmək;

1.5.2.16 Hazırki qaydalar tərəfindən, yaxud  hazırki qaydalara və müvafiq müqaviləyə əsasən müəyyən edilmiş hər hansı digər funksiyanı yerinə yetirmək.

### 1.5.3 Agentliyin səlahiyyətləri

Agentlik hazırki qaydalara əsasən öz funksiyalarının müvafiq şəkildə icrası üçün vacib olan bütün səlahiyyətlərə malik olmalıdır. Bu səlahiyyətlərə aşağıdakı qeyd olunanlar daxildir:

1.5.3.1 Hazırki qaydalara riayət etmək və onları icra etmək üçün bütün zəruri addımları atmaq;

1.5.3.2 Hazırki Akta uyğun olaraq Məcəlləyə riayət etmək və onu icra etmək üçün bütün zəruri addımları atmaq;

1.5.3.3 Agentlik öz funksiyalarının tətbiqi və prosedurlarının idarə edilməsi məqsədi ilə zəruri və ya arzuolunan digər qaydaları tətbiq edə bilər.

### 1.5.4 Müşahidə şurası

1.5.4.1 Yeddi (7) şəxsdən ibarət Müşahidə Şurası təşkil edilməlidir. Bu şura aşağıda göstərilən şəxslərdən ibarətdir:
üzv – Keçmiş İdmançı
üzv – MOK-un (Milli Olimpiya Komitəsinin) nümayəndəsi
üzv – MPK-nın (Milli Paralimpiya Komitəsinin) nümayəndəsi
üzv – Səhiyyə sisteminin nümayəndəsi
üzv – Ədliyyə sisteminin nümayəndəsi

üzv – Gənclər və İdman Nazirliyinin nümayəndəsi
üzv – Baş İcraçı Direktor

### 1.5.5 MADA-nın yurisdiksiyası

1.5.5.1 AMADA Azərbaycanda antidopinqdə etibarlılıq və müstəqillik təmin etmək məqsədi ilə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müstəqil Publik Hüquqi Şəxs kimi yaradılmışdır.

1.5.5.2 AMADA-ya dopinq test keçirmək, təlim, tədqiqat və AMADA qaydalarında əks olunan digər fəaliyyəti əhatə edən hərtərəfli milli antidopinq proqramının icrası və bu sahələrin hər birində proqramlar, siyasətlər və prosedurlar hazırlamaq üçün tam səlahiyyət və istisna hüquqları verilmişdir.

1.5.5.3 Milli Federasiyalar, müvafiq qeydə alınmış idman qurumları, idmançılar, idmançılara dəstək heyəti avtomatik olaraq AMADA-nın istisna yurisdiksiyasını tanıyır və qəbul edir.

### 1.5.6 Agentliyin Müşahidə Şurasi

Müşahidə şurası AMADA qaydalarına əsasən funksiyalarının müvafiq şəkildə icrası üçün zəruri səlahiyyətlərə malikdir. Müşahidə şurası aşağıda göstərilənləri həyata keçirmək səlahiyyəti vardır:

1.5.6.1 Agentliyin yaradılması məqsədinin ən yaxşı şəkildə dəstəkləyən qaydada Agentliyin aktivlərini idarə etmək;

1.5.6.2 Kapital və təkrarlanan xərclər və Agentliyin rezervləri üçün edilməli olan ehtiyatları müəyyən etmək;

1.5.6.3 Bütün belə digər işləri görmək və ya hazırki AMADA qaydaları əsasında Agentliyin funksiyalarının hər hansı birinin nail olunması yaxud icra edilməsinə əlavə olan yaxud imkan yaradan istənilən fəaliyyəti həyata keçirmək.

## 1.6 İclaslar

### 1.6.1 İclasin Yeri və Yazılı Bildiriş

Müşahidə Şurasının bütün iclasları Müşahidə Şurası tərəfindən təyin

edilmiş münasib ictimai görüş məkanında keçirilməlidir. Belə iclaslar barədə keçirilmə məqsədini özündə əks etdirən yazılı bildiriş ən azı on (10) gün əvvəl üzvlərə göndərilməlidir.

### 1.6.2 İllik İclaslar

Adi üzvlərin illik iclası Müşahidə Şurası tərəfindən təyin edilmiş münasib ictimai görüş məkanında cari ilin noyabr və ya dekabr ayında keçirilməlidir.

### 1.6.3 Xüsusi İclaslar

Xüsusi iclaslar müvafiq bildiriş tələbinə riayət şərti ilə Sədr tərəfindən çağırıla bilər.

### 1.6.4 Yetərsay

İclasın səlahiyyətli sayılması üçün növbəti sayda üzvlərin iştirakı tələb olunur: üzvlərin əksəriyyətinin iştirakı.

### 1.6.5 Səsvermə

İclasda iştirak edən hər bir üzv bir səs hüququna malikdir.

### 1.6.6 Üzvlər

Üzvlər dörd il müddətində xidmət edir və bir dəfə yenidən seçilmə hüququna malikdirlər.

### 1.6.7 Sədr

Sədr adi üzvlərin və Müşahidə Şurasının iclaslarını çağırır.

### 1.6.8 Sədr Müavini

Sədr Müavini, Sədr olmadığı halda onun bütün vəzifələrinin icrasını öz üzərinə götürür.

## 1.7 Möhür və sənədlərin icrası

1.7.1 Agentliyin ümumi möhürü Agentliyin nəzarəti altında saxlanılmalı və bu möhür Müşahidə Şurası tərəfindən, ümumi və xüsusi şəkildə təsdiq edilən sənədlər istisna olmaqla, hər hansı başqa bir alətə yaxud sənədə vurulmamalıdır.

1.7.2 Agentliyin ümumi möhürü Baş İcraçı Direktorun imzası ilə təsdiq edilməlidir.

1.7.3 Qanuni şəkildə üzərində möhürlənməsi tələb olunan sənədlər istisna olmaqla, digər bütün sənədlər və Agentliyin bütün qərarları Baş İcraçı Direktorun imzası, və yaxud qərarın Baş İcraçı Direktorun iştirak etmədiyi iclasda qəbul edildiyi halında, həmin iclasda sədrlik edən şəxsin imzası ilə təsdiq olunur.

## 1.8 Baş İcraçı Direktor

1.8.1 Agentliyin Baş İcraçı Direktor kimi tanınan vəzifəli şəxsi Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinə uyğun olaraq təyin olunmalıdır.

1.8.2 Baş İcraçı Direktor vəzifəsinə təyin oluna biləcək şəxs –

1.8.2.1 Yalnız ali təhsilli və idarəetmə sahəsində ən azı 5 (beş) illik iş təcrübəsinə malik olmalıdır.

1.8.2.2 Baş İcraçı Direktor Müşahidə şurasının Sədri seçilə bilər.

1.8.2.3 Baş İcraçı Direktorun vəzifələrinə daxildir:

1.8.2.3.1 Müşahidə Şurasının qərarlarının həyata keçirilməsi;

1.8.2.3.2 Agentliyin gündəlik fəaliyyətlərinin idarə edilməsi və xüsusi ilə aşağıdakılar daxil olmaqla, lakin onlarla məhdudlaşdırılmayan Antidopinq fəaliyyətinə dair siyasət və proqramların icrası:
(I) təlim və məlumatlılıq;
(II) tədqiqat;
(III) test keçirilməsi;
(IV) təhqiqatlar;
(V) nəticələrin idarə edilməsi;
(VI) Terapevtik İstifadə üçün İstisnaların tətbiqi; və
(VII) Agentliyin mandatını həyata keçirmək məqsədilə Agentliyin strateji və hər hansı digər planlarının formalaşdırılması, hazırlanması və icra edilməsi;

1.8.2.3.3 İşçi heyətinin təşkil edilməsi və idarə edilməsi; və

1.8.2.3.4 Vəzifəsinin həyata keçirilməsi üçün tələb edilən hər hansı digər funksiya.

## 1.9 Baş İcraçı Direktorun işdən kənarlaşdırılması

Baş İcraçı Direktor Müşahidə şurası tərəfindən, Azərbaycan Respublikası qanunvericiliyinə uyğun olaraq, aşağıda qeyd olunan səbəblərdən işdən kənarlaşdırıla bilər:

1.9.1 Fiziki və ya əqli qabiliyyətsizlik səbəbindən öz vəzifələrini yerinə yetirə bilməməsi;

1.9.2. İntizam qaydalarına riayət etməməsi və ya vəzifədən sui-istifadə;

1.9.3. Hüquq qabiliyyətinin itirlməsi.

## 1.10 Agentliyin işçi heyəti

1.10.1 Agentlik vəzifələrin düzgün şəkildə icra olunması üçün vacib hesab etdiyi xidmət şərtləri və müddəaları əsasında vəzifəli şəxsləri və işçi heyətinin üzvlərini təyin edə bilər.

1.10.2 İşçi heyətinin hər bir üzvü Agentlikdə işləyə bilmək üçün tələb olunan ixtisaslara sahib olmalı və yaşı on səkkiz və daha yuxarı olan bir fiziki şəxs olmalıdır.

## 1.11 Maraqlar Münaqişəsi

1.11.1 Maraqlar münaqişəsi aşağıdakı hallarda Müşahidə Şurasının üzvlərinin, onların hərəkətləri yaxud fəaliyyətinin:

1.11.1.1 Vəzifələrin effektiv icrası ilə münaqişəyə girdikləri zaman;

1.11.1.2 AMADA-nın etibarlılığına, dürüstlüyünə və ya nüfuzuna xələl gətirdikləri zaman;

1.11.1.3 İdmanla əlaqəli hər hansı tərəfə haqsız üstünlük təmin etdiyi və yaxud onlarla qarşı qərəzli münasibət göstərdiyi zaman;

1.11.1.4 Mükafatlandırmanın olub-olmamasından asılı olmayaraq, kənar fəaliyyətdə AMADA əqli mülkiyyətindən istifadə etdilkləri zaman;

1.11.1.5 Ailə üzvü üçün haqsız üstünlüyün təmin edilməsi zaman baş verir.

1.11.2 Maraqlar münaqişəsi aşağıdakılar vasitəsilə baş verə bilər:

1.11.2.1 Maddi yaxud maliyyə gəlirinin əldə edilməsi;

1.11.2.2 Şəxsi və ya biznes fəaliyyəti və əlaqələr;

## 1.12 Maraqlar Münaqişəsinin həll edilməsi üçün prosedur qaydaları

1.12.1 Maraqların münaqişəsinin həll edilməsi üçün zəruri prosedur qaydaları aşağıdakıları əhatə edir:

1.12.2 Üzvün real və ya potensial maraqlar münaqişəsi barədə Baş İcraçı Direktoru məlumatlandırma üzrə məsuliyyətini; və Baş İcraçı Direktorun aşağıda göstərilənlərlə bağlı qərar qəbul edib-etməmək məsuliyyətini:

1.12.2.1 Əlaqəli şəxsdən münaqişə mənbəyini aradan qaldırmağı tələb etmək;

1.12.2.2 Münaqişənin aradan qaldırılması üçün həmin şəxsin vəzifəsini dəyişmək və yaxud onu başqa bir vəzifəyə keçirmək;

1.12.2.3 Həmin şəxsə öz vəzifəsini davam etdirməyə icazə vermək.

## MADDƏ 2. DOPİNQ ANLAYIŞI – ANTİDOPİNQ QAYDALARININ POZUNTUSU

Dopinq hazırki Antidopinq Qaydalarının 2.1-2.10-cu Maddələrində müəyyən edilmiş antidopinq qayda pozuntularından biri və ya bir neçəsinin baş verməsi deməkdir.

2-ci maddənin məqsədi antidopinq qayda pozuntularına gətirib çıxaran hallar və fəaliyyəti müəyyən etməkdir. Dopinq mübahisələrinin icraatı bu qaydalardan biri və ya bir neçəsinin pozulmasının təsdiqlənməsi əsasında keçirilməlidir.

*İdmançılar* və digər *Şəxslər* antidopinq qayda pozuntusunun nədən ibarət olduğunu və *Qadağan edilmiş Maddələr* və *Üsullar Siyahısına* daxil edilmiş maddə və üsulları haqda bilmədikləri halda məsuliyyətdən azad edilmir.

Aşağıda göstərilənlər antidopinq qayda pozuntularını təşkil edir:

### 2.1 *İdmançıdan* alınmış *Nümunədə Qadağan edilmiş Maddə* və ya onun *Metabolit* yaxud *Markerlərinin* mövcudluğu

2.1.1 *Qadağan edilmiş Maddələrdən* heç birinin bədəninə daxil olmamasını təmin etmək hər bir İdmançının şəxsi öhdəliyidir. *İdmançılar* onlardan əldə olunan *Nümunələrdə* aşkar edilmiş hər hansı *Qadağan edilmiş Maddə* və ya onun *Metabolit* yaxud *Markerlərinə* görə məsuliyyət daşıyırlar. Müvafiq olaraq, 2.1-ci Maddə üzrə antidopinq qayda pozuntusunu müəyyən etmək üçün *İdmançının* niyyətinin, *Xətasının,* səhlənkarlığının və ya həmin maddələrdən bilərəkdən *İstifadə* etməsinin nümayiş etdirilməsi zəruri deyil.

2.1.2 2.1-ci Maddə üzrə antidopinq qayda pozuntusu üçün kifayət edən sübut aşağıdakıların hər hansı birinin əsasında müəyyən edilir: *İdmançının Nümunə* B-nin müayinə edilməsindən imtina eməsi və *Nümunə* B-nin müayinə edilməməsi zamanı, *İdmançıdan* götürülmüş *Nümunə* A-da *Qadağan edilmiş Maddə* və ya onun *Metabolitləri* yaxud *Markerlərinin* aşkar edildikdə; yaxud *İdmançıdan* götürülmüş *Nümunə* B-nin müayinə edilməsi və analizin nəticəsi olaraq *Nümunə* A-da aşkarlanan *Qadağan edilmiş Maddə* və ya onun *Metabolitləri* yaxud *Markerlərinin* olması təsdiq edildikdə; yaxud *İdmançıdan* alınmış *Nümunə* B-nin iki şüşə qaba bölünməsi və ikinci şüşə qabın analizində birinci şüşə qabda aşkar olunan *Qadağan edilmiş Maddə* və ya onun *Metabolitləri* yaxud *Markerlərinin* olduğu təsdiq edildikdə .

2.1.3 Kəmiyyət həddi *Qadağan edilmiş Maddələr və Üsullar Siyahısında* müəyyən edilən xüsusi maddələr istisna olaraq, *İdmançıdan* alınmış *Nümunədə* istənilən kəmiyyətdə *Qadağan edilmiş Maddə* və ya onun *Metabolitləri* yaxud *Markerinin* olması antidopinq qayda pozuntusunu təşkil edir.

2.1.4 2.1.-ci Maddənin ümumi qaydasına istisna kimi, *Qadağan edilmiş Maddələr və Üsullar Siyahısı* və Beynəlxalq Standartlar orqanizmdə endogen şəkildə hasil oluna bilən *Qadağan edilmiş Maddələrin* qiymətləndirilməsi üçün xüsusi meyarlar təyin edə bilərlər.

## 2.2 ***İdmançı*** **tərəfindən** ***Qadağan edilmiş Maddə və ya Qadağan edilmiş Üsuldan İstifadə*** **yaxud** ***İstifadə Cəhdi***

2.2.1 *Qadağan edilmiş Maddələrdən* heç birinin bədəninə daxil olmamasını və heç bir *Qadağan edilmiş Üsulun* istifadə edilmədiyini təmin etmək hər bir *İdmançının* şəxsi öhdəliyidir. Müvafiq olaraq, *Qadağan edilmiş Maddələr və Qadağan edilmiş Üsulların* İstifadəsi üzrə antidopinq qayda pozuntusunu müəyyən etmək üçün *İdmançının* niyyətinin, *Xətasının,* səhlənkarlığının və ya həmin maddə və üsullardan bilərəkdən İstifadə etməsinin nümayiş etdirilməsi zəruri deyil.

2.2.2 *Qadağan edilmiş Maddənin və ya Qadağan edilmiş Üsulun İstifadə* olunması cəhdinin uğurlu və ya uğursuz olması önəmli deyil. Antidopinq qayda pozuntusunun baş verməsi üçün Qadağan edilmiş Maddə və Qadağan edilmiş Üsulun *İstifadəsinin və ya İstifadəyə Cəhdinin* baş verməsi kifayətdir.

## 2.3 ***Nümunə*** **Toplanması prosedurasından Yayınma, İmtina yaxud** ***Nümunəni*** **Təqdim Etməmək**

Hazırkı Antidopinq Qaydaları və ya digər müvafiq antidopinq qaydalarında müəyyən edildiyi kimi bildirişdən sonra *Nümunə* toplanmasından yayınmaq və ya əsaslı səbəb olmadan *Nümunəni* təqdim etməmək, yaxud toplanma prosedurasında iştirakdan imtina etmək.

## 2.4 ***İdmançının*** **Məkan Məlumatını Təmin edə bilməməsi**

Test keçirilməsi və Təhqiqatlar üzrə Beynəlxalq Standartda müəyyən edildiyi kimi, 12 ay müddət ərzində *Qeydiyyata alınmış Test Qrupunda* olan İdmançı tərəfindən üç testdən yayınmanın və/və ya Məkan Məlumatının təqdim edilməməsinin istənilən kombinasiyası.

## 2.5 *Dopinq Nəzarətinin* hər hansı bir hissəsinin *Saxtalaşdırılması və ya Saxtalaşdırma Cəhdi*

*Dopinq Nəzarəti* prosedurlarının həyata keçririlməsinə xələl gətirən, lakin digər hallarda *Qadağan edilmiş Üsullar* anlayışına daxil edilməyən istənilən fəaliyyət. *Saxtalaşdırmaya,* heç bir məhdudiyyət olmadan, *Dopinq Nəzarəti* rəsmilərinə işlərində bilərəkdən maneələr yaratmaq yaxud yaratmaq cəhdi, *Antidopinq Təşkilatını* saxta məlumatla təmin etmək və ya potensial şahidlərə hədə-qorxu gəlmək və ya hədə-qorxu gəlmək cəhdi daxildir.

## 2.6 *Qadağan edilmiş Maddəyə və ya Qadağan edilmiş Üsula Sahiblik*

2.6.1 *İdmançı* tərəfindən özünün 4.4-cü maddəyə əsasən təmin edilmiş Terapevtik İstifadə üçün İstisna (TİI) ilə müvafiq *Sahibliyini* sübut etməsi halları və ya digər məqbul əsaslandırmalar istisna olmaqla, *İdmançı* tərəfindən *Yarışma müddətində* hər hansı *Qadağan edilmiş Maddə və ya Qadağan edilmiş Üsula* Sahiblik və ya *İdmançı* tərəfindən *Yarışmadan kənar müddətdə* hər hansı *Qadağan edilmiş Maddə və ya Qadağan edilmiş Üsulun Yarışmadan kənar müddətdə* qadağan olmasına baxmayaraq *Sahiblik.*

2.6.2 *İdmançıya Dəstək Heyəti* üzvü tərərfindən *İdmançıya* 4.4-cü Maddəyə əsasən təmin edilmiş Terapevtik İstifadə üçün İstisna *(TİI)* ilə müvafiq *Sahibliyini* sübut etməsi halları və ya digər məqbul əsaslandırmalar istisna olmaqla, *İdmançıya Dəstək Heyəti* üzvü tərəfindən *Yarışma müddətində* hər hansı *Qadağan edilmiş Maddə və ya Qadağan edilmiş Üsula Sahiblik* və ya *İdmançıya Dəstək Heyəti* üzvü tərəfindən *Yarışmadan kənar müddətdə İdmançı,* Yarışma və ya təlimlə əlaqədar *Yarışmadan kənar müddətdə* qadağan olmasına baxmayaraq hər hansı *Qadağan edilmiş Maddə və ya Qadağan edilmiş Üsula Sahiblik.*

## 2.7 Hər hansı *Qadağan edilmiş Maddə və ya Qadağan edilmiş Üsulun Dövriyyəsi və ya Dövriyyə edilməsinə Cəhd*

## 2.8 Hər hansı *Yarışma müddətində* olan *İdmançıya* hər hansı *Qadağan edilmiş Maddə və ya Qadağan edilmiş Üsulu Tətbiq etmək və ya Tətbiq etmək cəhdi* və ya hər hansı *Yarışmadan kənar müddətdə İdmançıya* hər hansı *Qadağan edilmiş Maddə və ya Qadağan edilmiş Üsulun Yarışmadan kənar müddətdə* qadağan olunmasına baxmayaraq *Tətbiq etmək və ya Tətbiq etmək Cəhdi.*

## 2.9 Əlbirlik

Antidopinq qayda pozuntusu və ya pozuntusuna *Cəhd,* həmçinin 10.11.1-ci Maddəsinin pozuntusu daxil olmaqla, digər *Şəxs* tərəfindən antidopinq qayda pozuntusu ilə əlaqədar yardım, dəstək, təhrik, sövq etmə, gizlətmə və ya digər hər hansı növ bilərəkdən əlbirlik etmək.

## 2.10 Qadağan edilmiş Əməkdaşlıq

Peşəkar və ya idmanla əlaqədar *Antidopinq Təşkilatının* səlahiyyətinə tabe olan *İdmançı* və digər *Şəxs* tərəfindən hər hansı *İdmançıya Dəstək Heyətinin* üzvü ilə əməkdaşlıq, əgər sözügedən üzv:

2.10.1 *Antidopinq Təşkilatının* səlahiyyətinə tabe olaraq, müvəqqəti *Diskvalifikasiya* cəzası altındadırsa; və ya

2.10.2 *Antidopinq Təşkilatının* səlahiyyətinə tabe olmadığına və *Məcəlləyə* uyğun olaraq nəticə emalı prosesində ona *Diskvalifikasiya* tətbiq edilmədiyi halda, cinayət, intizam yaxud peşəkar təhqiqat gedişində sözügedən *Şəxsə Məcəlləyə* uyğun qaydaların tətbiq edilməsi halında həmin *Şəxs* antidopinq qayda pozuntusu sayıla bilən hərəkətlərdə günahkar tanınmışdırsa. Bu *Şəxsin* diskvalifikasiya statusu hansının daha uzun olmasından asılı olaraq cinayət, inzibati və ya peşəkar cəza qərarın verilməsi tarixindən və ya cinayət, inzibati və ya peşəkar sanksiyanın tətbiq olunma müddətindən etibarən altı il ərzində qüvvədə olmalıdır; və ya

2.10.3 2.10.1-ci və ya 2.10.2-ci Maddələrdə təsvir edilmiş şəxs üçün sözçü və ya vasitəçi şəxs kimi çıxış edirsə.

Bu müddəanın tətbiqi üçün zəruridir ki, *İdmançı* və ya digər *Şəxs* onların üzərində səlahiyyəti olan *Antidopinq Təşkilatı* yaxud *ÜADA* tərəfindən *İdmançıya Dəstək Heyətinin* üzvünün diskvalifikasiya statusu və qadağan edilmiş əməkdaşlığa görə potensial Sanksiya barədə yazılı şəkildə məlumatlandırılsın və *İdmançı* yaxud digər *Şəxs* belə əməkdaşlıqdan uzaq olmaq üçün ağlabatan tədbirlər görə bilsin. *Antidopinq Təşkilatı* həmçinin *İdmançıya* yaxud digər *Şəxsə* bildirişin mövzusu ilə bağlı olan *İdmançıya Dəstək Heyəti* üzvünə 2.10.1-ci və 2.10.2-ci Maddələrdə göstərilən meyarların ona tətbiq edilmədiyini izah etmək üçün 15 gün ərzində *Antidopinq Təşkilatına* müraciət etmək üçün vaxtı olduğunu bildirmək üçün ağlabatan səylər edəcəkdir. (17-ci Maddənin müddəalarına baxmayaraq, bu Maddə hətta *İdmançıya Dəstək Heyəti* üzvünün diskvalifikasiyaya səbəb olan davranışının 20.7-ci maddədə göstərilən qüvvəyə minmə tarixindən əvvəl baş verdiyi halda belə tətbiq edilir).

*İdmançıya Dəstək Heyəti* üzvü ilə 2.10.1-ci və 2.10.2-ci Maddələrdə təsvir edilən hər hansı əməkdaşlığın peşəkar yaxud idmanla əlaqəli olmadığını sübut etməsi yükü *İdmançı* və digər *Şəxs* üzərinə düşməlidir.

2.10.1, 2.10.2 və 2.10.3-ci Maddələrdə təsvir edilən meyarlara cavab verən *İdmançıya Dəstək Heyəti* üzvündən xəbərdar olan *Antidopinq Təşkilatları* bu məlumatı *ÜADA*-ya təqdim etməlidirlər.

## MADDƏ 3. DOPİNQİN SÜBUTU

### 3.1 Sübut etmənin Yükü və Standartları

Antidopinq qayda pozuntusunun sübut edilməsi yükü AMADA üzərinə düşür. AMADA tərəfindən edilən iddianın ciddiliyini nəzərə alaraq, AMADA-nın antidopinq qayda pozuntusunun komitə üçün məqbul səviyyədə sübut edib-edə bilməməsi  sübut etmənin standartı hesab olunur. Bu sübut etmə standartı bütün hallarda sadə ehtimallar balansından daha böyük və əsaslandırılmış şübhəsiz sübutdan daha kiçikdir. Hazırki Antidopinq Qaydalarının pozulması  gümanı rədd etmək, konkret faktları yaxud şəraiti müəyyən etmək üzrə sübut etmə yükünü antidopinq qayda pozuntusu törətməkdə iddia edilən *İdmançı* yaxud digər *Şəxsin* üzərinə düşərsə, sübut etmə standartı ehtimallar balansı olmalıdır.

### 3.2 Faktların və Ehtimalların müəyyən edilməsi Üsulları

Antidopinq qayda pozuntuları ilə bağlı faktlar, etiraflar daxil olmaqla, istənilən etibarlı vasitələrlə müəyyən edilə bilər. Mübahisə hallarında aşağıdakı sübut qaydaları tətbiq edilir:

3.2.1 Müvafiq elmi cəmiyyətlə konsultasiyadan və müstəqil ekspertizadan sonra *ÜADA* tərəfindən təsdiq olunmuş analitik metodlar və ya qərar məhdudiyyətləri elmi cəhətdən etibarlı ehtimal edilir. Bu elmi cəhətdən etibarlılıq ehtimalını qəbul etməyən hər hansı *İdmançı* və ya digər *Şəxs* hər hansı bir iddiaya şərt kimi ilk olaraq *ÜADA*-nı öz iddiası və iddiasının əsası barədə məlumatlandırır. *İAM* öz təşəbbüsü ilə *ÜADA*-nı hər hansı belə iddia barədə məlumatlandıra bilər. *ÜADA*-nın tələbi ilə, *İAM* təqdim olunmuş iddia əsaslandırmalarının qiymətləndirilməsində dinləmə komitəsinə kömək üçün müvafiq elmi ekspert təyin edirlər. *ÜADA* tərəfindən belə bildirişin alınması və *İAM*-dan işin *ÜADA* tərəfindən qəbul etməsindən sonra 10 gün ərzində, *ÜADA* həmçinin bu prosesdə tərəf kimi müdaxilə etmək, məhkəmə eksperti *(amicus curiae)* kimi çıxış etmək və ya digər üsulla sübutları təqdim etmək hüququna malikdir.

3.2.2 *ÜADA* tərəfindən akkreditasiya edilmiş laboratoriyalar və *ÜADA* tərəfindən tanınmış digər laboratoriyaların Laboratoriyalar üzrə

Beynəlxalq Standarta uyğun olaraq *Nümunə* analizi və saxlama prosedurlarına riayət etmələri ehtimal edilir. *İdmançı* və ya digər *Şəxs Qeyri-əlverişli Analiz Nəticəsinə* ağlabatan şəkildə səbəb ola bilən Laboratoriyalar üzrə Beynəlxalq Standartdan yayınmanı müəyyən etməklə bu ehtimalı rədd edə bilər. Əgər *İdmançı* və ya digər *Şəxs Qeyri-əlverişli Analiz Nəticəsinə* ağlabatan şəkildə səbəb ola bilən Laboratoriyalar üzrə Beynəlxalq Standartından yayınmanı nümayiş etdirərək əvvəlki ehtimalı təkzib edirsə, bundan sonra bu yayınmanın *Qeyri-əlverişli Analiz Nəticəsinə* səbəb olmadığını sübut etmək yükü AMADA üzərinə düşür.

3.2.3 *Qeyri-əlverişli Analiz Nəticəsinə* və ya antidopinq qayda pozuntusuna səbəb olmayan hər hansı digər *Beynəlxalq Standartdan* və ya *Məcəllədə* müəyyən edilmiş digər Antidopinq Qaydaları yaxud siyasəti, və ya hazırki Antidopinq Qaydalarından yayınmalar, belə sübutları və nəticələri etibarlılıqdan məhrum etməməlidir.

Əgər *İdmançı* və ya digər *Şəxs Qeyri-əlverişli Analiz Nəticəsi* əsasında antidopinq qayda pozuntusuna və ya digər antidopinq qayda pozuntusuna ağlabatan şəkildə səbəb ola bilən digər *Beynəlxalq Standartından* və ya Antidopinq Qaydaları yaxud siyasətindən yayınmanı sübut edirsə, onda bundan sonra bu yayınmanın *Qeyri-əlverişli Analiz Nəticəsinə* və ya antidopinq qayda pozuntusu üçün faktiki əsasa səbəb olmadığını sübut etmək yükü AMADA üzərinə düşür.

3.2.4 Məhkəmənin və ya səlahiyyətli intizam komitəsi tərəfindən, lakin apellyasiya şikayəti verilməmiş qərarı ilə müəyyən edilən faktlar, *İdmançı* və ya digər *Şəxs* tərəfindən qərarın təbii hüquq prinsiplərini pozduğunu sübut etdikləri hallar istisna olmaqla, həmin *İdmançı* və ya digər *Şəxsə* qarşı təkzibedilməz sübut hesab edilir.

3.2.5 Antidopinq qayda pozuntusu üzrə icraatı aparan komitə *İdmançının* yaxud *Şəxsin* dinləmə zamanı müvafiq öncədən göndərilən bildirişdən sonra komitənin yaxud AMADA-nın suallarına cavab vermək və dinləmədə (şəxsən yaxud, komitənin göstərişi ilə, telefon bağlantısı vasitəsi ilə) iştirak etməkdən imtinasına əsaslanaraq həmin *İdmançıya* yaxud *Şəxsə* qarşı mənfi nəticəyə gələ bilər.

## MADDƏ 4. QADAĞAN EDİLMİŞ MADDƏLƏR VƏ ÜSULLAR SİYAHISI

### 4.1 *Qadağan edilmiş Maddələr və Üsullar Siyahısının* daxil edilməsi

Hazırki Antidopinq Qaydaları Məcəllənin 4.1-ci maddəsində müəyyən edildiyi kimi *ÜADA* tərəfindən dərc edilmiş və düzəlişlər edilmiş *Qadağan edilmiş Maddələr və Üsullar Siyahısını* özünə daxil edir.

## 4.2 *Qadağan edilmiş Maddələr və Üsullar Siyahısında* müəyyən edilən *Qadağan edilmiş Maddələr və Qadağan edilmiş Üsullar*

### 4.2.1 *Qadağan edilmiş Maddələr və Qadağan edilmiş Üsullar*

*Qadağan edilmiş Maddələr və Üsullar Siyahısında* və/və ya ona düzəlişlərdə başqa cür qeyd olunmadığı halda, *Qadağan edilmiş Maddələr və Üsullar Siyahısı* və onun düzəlişləri AMADA tərəfindən heç bir əlavə tədbir tələb etmədən *ÜADA* tərəfindən dərc olunduqdan 3 ay sonra hazırki Antidopinq Qaydaları çərçivəsində qüvvəyə minəcək. Bütün *İdmançılar* və digər *Şəxslər Qadağan edilmiş Maddələr və Üsullar Siyahısına* və ona düzəlişlərin heç bir əlavə rəsmiləşdirməsiz qüvvəyə mindiyi gündən etibarən onlara riayət etməlidirlər. Ən yeni *Qadağan edilmiş Maddələr və Üsullar Siyahısı* və ona düzəlişlərlə tanış olmaq bütün *İdmançı* və digər *Şəxslərin* məsuliyyətləridir.

### 4.2.2 *Xüsusi Maddələr*

10-cu Maddənin tətbiqi məqsədləri üçün, anabolik agent və hormonlar siniflərindəki maddələr və *Qadağan edilmiş Maddələr və Üsullar Siyahısında* stimulyatorlar və hormon antaqonistləri və modulyatorlar kimi *Xüsusi Maddələr* istisna olmaqla bütün *Qadağan edilmiş Maddələr Xüsusi Maddələr* hesab ediləcəklər. *Xüsusi Maddələr* kateqoriyası *Qadağan edilmiş Üsulları* daxil etmir.

## 4.3 *Qadağan edilmiş Maddələr və Üsullar Siyahısının ÜADA* tərəfindən müəyyən edilməsi

*Qadağan edilmiş Maddələr və Üsullar Siyahısınının* və bu siyahıya daxil ola bilən *Qadağan edilmiş Maddələr və Qadağan edilmiş Üsullarin ÜADA* tərəfindən müəyyən edilməsi, *Qadağan edilmiş Maddələr və Üsullar Siyahısında* maddələrin kateqoriyalar üzrə təsnifat bölgüsü və maddənin hər zaman yaxud yalnız *Yarışma müddətində* qadağan edilməsi barədə qərarları qətidir və maddə yaxud üsulun maskalayıcı agent olmadığı və ya çıxışlarda məhsuldarlığı artırmaq potensialı olmadığı, sağlamlığa təhlükə olmadığı yaxud idman ruhunu pozmadığını səbəb gətirərək, *İdmançı* yaxud digər *Şəxs* tərəfindən sual altına qoyula bilinməz.

## 4.4 Terapevtik İstifadə üçün İstisnalar ("TİI-lər")

4.4.1 *Qadağan edilmiş Maddə* və onun *Metabolitlər* və ya *Markerlərinin* mövcudluğu və/və ya *Qadağan edilmiş Maddə və ya Qadağan*

*edilmiş Üsuldan İstifadə* yaxud *İstifadə Cəhdi, Sahiblik, Tətbiq* yaxud *Tətbiq Cəhdi* Terapevtik İstifadə üçün İstisnalar üzrə  Beynəlxalq Standarta uyğun olaraq verilmiş *Tİİ* müddəalarına uyğundurlarsa, onlar antidopinq qayda pozuntusu hesab edilmirlər.

4.4.2 AMADA tərəfindən veb-saytında yerləşdirilən bildirişdə başqa cür qeyd olunmayıbsa, terapevtik məqsədlər üçün *Qadağan edilmiş Maddə yaxud Qadağan edilmiş Üsulun İstifadəsinə* ehtiyacı olan hər hansı *Milli Səviyyəli İdmançı* ehtiyac yarandığı zaman və (fövqəladə və ya müstəsna hallar, yaxud Terapevtik İstifadə üçün İstisnalar üzrə  Beynəlxalq Standartın 4.3-cü Maddəsi tətbiq olunduğu hallar istisna olmaqla) istənilən halda  *İdmançının* növbəti *Yarışmasından* 30 gün əvvəl AMADA-nın veb-saytında dərc olunmuş formadan istifadə edərək *Tİİ* üçün AMADA-ya müraciət etməlidir. Müvafiq icra hakimiyyəti orqanı *Tİİ* verilməsi yaxud tanınması üçün müraciətlərə baxmaq üçün ekspertlər qrupunu (Tİİ Komitəsini) təyin etməlidir. *Tİİ* Komitəsi Terapevtik İstifadə üçün İstisnalar üzrə  Beynəlxalq Standartın müvafiq müddəaları əsasında müraciətləri dərhal qiymətləndirməli və qərar verməlidir. Onun qərarı AMADA TİİK-in qəti qərarı olmalı və Terapevtik İstifadə üçün İstisnalar üzrə  Beynəlxalq Standarta müvafiq olaraq ADAMS vasitəsilə *ÜADA* və digər *Antidopinq Təşkilatlarına* və xüsusilə *İdmançının Milli Federasiyasına* bildirilməlidir.

4.4.3 Əgər AMADA *Beynəlxalq Səviyyəli* və ya *Milli Səvyyəli* olmayan İdmançının yoxlanılmasını müəyyən etsə, o halda AMADA həmin *İdmançıya* onun terapevtik məqsədlər üçün istifadə etdyi hər hansı *Qadağan edilmiş Maddə və ya Qadağan edilmiş Üsul* üçün retroaktiv qaydada müraciət etməyə icazə verməlidir.

4.4.4 AMADA tərəfindən verilmiş *Tİİ* yalnız milli səviyyədə etibarlıdır; o, beynəlxalq səviyyəli *Yarışmalarda* avtomatik olaraq etibarlı deyil. *Beynəlxalq Səviyyəli İdmançı* olan yaxud olmaq ərəfəsində olan *İdmançı* aşağıdakıları etməlidir:

4.4.4.1 *İdmançı* artıq sual altında olan maddə və ya üsulun istifadəsi üçün AMADA *Tİİ* Komitəsi tərəfindən verilmiş *Tİİ*-yə malikdirsə, həmin *İdmançı* Terapevtik İstifadə üçün İstisnalar üzrə Beynəlxalq Standartın 7-ci Maddəsinə əsasən həmin *Tİİ*-nin tanınması üçün öz Beynəlxalq Federasiyasına müraciət edə bilər.  Sözügedən *Tİİ* Terapevtik İstifadə üçün İstisnalar üzrə  Beynəlxalq Standartda müəyyən edilmiş meyarlara

cavab verirsə, o zaman Beynəlxalq Federasiya onu həmçinin beynəlxalq səviyyəli *Yarışlar* məqsədləri üçün də tanımalıdır. Əgər Beynəlxalq Federasiya AMADA *Tİİ* Komitəsi tərəfindən verilmiş *TİI*-ni bu meyarlara cavab verməyən hesab edərək, onu tanımaqdan imtina edirsə, Beynəlxalq Federasiya *Beynəlxalq Səviyyəli İdmançını* və AMADA-nı bu barədə dərhal xəbərdar etməlidir. *Beynəlxalq Səviyyəli İdmançı* və AMADA xəbərdarlıq aldıqdan sonra 21 gün ərzində bu məsələni yenidən baxılması üçün *ÜADA*-ya müraciət edə bilərlər. Əgər, 4.4.6-cı Maddəyə əsasən, məsələ yenidən baxılması üçün *ÜADA*-ya göndərilibsə, AMADA *TİI* Komitəsi tərəfindən milli səviyyəli *Yarışma və Yarışmadan kənar müddətdə Test üçün* verilmiş *TİI, ÜADA* tərəfindən qərar verilənədək, etibarlı qalır (lakin bu beynəlxalq səviyyəli *Yarışmalar* üçün keçərli deyil). Əgər məsələ yenidən baxılması üçün *ÜADA*-ya göndərilməyibsə, *TİI* 21 günlük yenidən baxma müddəti bitdikdən sonra bütün məqsədlər üçün qüvvədən düşür.

4.4.4.2 *İdmançı* artıq sual altında olan maddə və ya üsulun istifadəsi üçün AMADA *TİI* Komitəsi tərəfindən verilmiş *TİI*-yə malik deyilsə, həmin *İdmançı* Terapevtik İstifadə üçün İstisnalar üzrə Beynəlxalq Standartda müəyyən edilmiş prosedurarya uyğun olaraq *TİI* alınması üçün birbaşa öz Beynəlxalq Federasiyasına müraciət etməlidir. Sözügedən Beynəlxalq Federasiya, *İdmançının* müraciətinə müsbət cavab verdiyi halda, *İdmançı* və AMADA-nı məlumatlandırmalıdır. Əgər AMADA Beynəlxalq Federasiya tərəfindən verilmiş *TİI*-ni Terapevtik İstifadə üçün İstisnalar üzrə Beynəlxalq Standartda müəyyən edilmiş meyarlara cavab verməyən hesab edirsə, onun xəbərdarlıq aldıqdan sonra 21 gün ərzində bu məsələni yenidən baxılması üçün *ÜADA*-ya müraciət etmək hüququ var. AMADA məsələni yenidən baxılması üçün *ÜADA*-ya göndəribsə, Beynəlxalq Federasiya tərəfindən beynəlxalq səviyyəli *Yarışma və Yarışmadan kənar müddətdə Test* üçün verilmiş *TİI, ÜADA* tərəfindən qərar verilənədək, etibarlı qalır (lakin bu milli səviyyəli *Yarışmalar* üçün keçərli deyil). Əgər AMADA məsələni yenidən baxılması üçün *ÜADA*-ya göndərməyibsə, Beynəlxalq Federasiya tərəfindən verilmiş TİI, 21 günlük yenidən baxma müddəti bitdikdən sonra, milli səviyyəli *Yarışmalar* üçün də etibarlı olur.

### 4.4.5 *TİI-nin* Müddətinin bitməsi, Ləğv edilməsi, Geri alınması və ya Rədd edilməsi

4.4.5.1 *TİI* hazırki Antidopinq Qaydalarına əsasən verilir və: (a) hər hansı əlavə bildiriş və ya digər rəsmiləşdirmə olmadan verildiyi müddətin başa çatması ilə avtomatik olaraq qüvvədən düşür; (b) *İdmançı TİI* üçün *TİI* Komitəsinin qoyduğu hər hansı tələb və ya şərtlərə dərhal riayət etmədiyi halda ləğv edilə bilər; (c) əgər *TİI-nin* meyarlarının faktiki olaraq qarşılanmadığı müəyyən edilərsə, *TİI* Komitəsi tərəfindən geri alına bilər; və ya (d) *ÜADA-nin* yenidən baxılması və ya apellyasiya şikayəti nəticəsində ləğv edilə bilər.

4.4.5.2 Bu halda, İdmançı *TİI-nin* müddətinin bitməsi, ləğv edilməsi, geri çəkilməsi və ya rədd edilməsinin faktiki qüvvəyə minməsindən əvvəl *TİI-ya* uyğun əlaqəli *Qadağan edilmiş Maddə və ya Qadağan edilmiş Üsulun İstifadəsi, Sahibliyi* və ya *Tətbiqi* əsasında heç hansı bir Sanksiyalara məruz qalmamalıdır. Hər hansı sonrakı *Qeyri-əlverişli Analiz Nəticəsinin,* 7.2-ci Maddəsinə əsasən, yenidən baxılmasında, bu nəticənin həmin tarixə qədər *Qadağan edilmiş Maddə və ya Qadağan edilmiş Üsulun İstifadəsi* ilə uyğun olub-olmamasını nəzərə alınmalıdır. Həmin halda antidopinq qayda pozuntusu törədilməmiş hesab edilir.

### 4.4.6 *TİI* Qərarların yenidən baxılması və onlardan apellyasiya qaydasında şikayət

4.4.6.1 AMADA *TİI* Komitəsi *TİI* üçün müraciəti rədd edərsə, bu zaman *İdmançı,* müstəsna şəkildə 13.2.2 və 13.2.3-cü Maddələrdə qeyd olunan, milli səviyyəli apellyasiya qurumuna müraciət edə bilər.

4.4.6.2 *ÜADA* Beynəlxalq Federasiyanın AMADA *TİI* Komitəsi tərəfindən verilən, və *İdmançı* yaxud AMADA tərəfindən *ÜADA-ya* göndərilən *TİI-ni* tanımamaq qərarını yenidən baxmalıdır. Əlavə olaraq, *ÜADA* AMADA tərəfindən ona göndərilən Beynəlxalq Federasiyanın *TİI* təmin etmək üzrə qərarını yenidən baxmalıdır. *ÜADA* məsələ ilə əlaqəli tərəflərin xahişi və ya öz təşəbbüsü ilə istənilən *TİI* qərarlarını yenidən baxılmasını keçirə bilər. Əgər yenidən baxılan *TİI* qərarı Terapevtik İstifadə

üçün İstisnalar üzrə Beynəlxalq Standartda müəyyən edilmiş meyarlara cavab verirsə, bu zaman *ÜADA* bu qərara müdaxilə etməyəcəkdir. Əgər *Tİİ* qərarı bu meyarlara cavab vermirsə, bu zaman *ÜADA* bu qərarı ləğv edəcəkdir.

4.4.6.3 Beynəlxalq Federasiyanın (yaxud AMADA Tİİ Komitəsinin, müraciətin Beynəlxalq Federasiyanın adından təqdim edilməsinə dair razılıq əldə edildiyi halda) *ÜADA* tərəfindən yenidən baxılmış yaxud yenidən baxılıb, lakin ləğv edilməyən hər hansı *Tİİ* qərarı ilə bağlı, *İdmançı* və yaxud AMADA tərəfindən müstəsna şəkildə 13-cü Maddəyə uyğun olaraq *İAM-a* apellyasiya qaydasında şikayət edilə bilər.

4.4.6.4 *ÜADA-nın Tİİ* qərarını ləğv etmək qərarının təsirinə məruz qalmış *İdmançı,* AMADA və/və ya Beynəlxalq Federasiya 13-cü Maddəyə uyğun olaraq bu qərarla bağlı müstəsna olaraq *İAM-a* apellyasiya qaydasında şikayət edə bilər.

4.4.6.5 *Tİİ-nin* verilməsi və yaxud bununla bağlı qərarın yenidən baxılması üçün düzgün qaydada təqdim olunan müraciət ilə bağlı ağlabatan müddət ərzində tədbir görülməməsi ərizənin rədd edilməsi hesab edilir.

## 4.5 Azərbaycan Antidopinq Terapevtik İstifadəyə İcazə Komitəsi

### 4.5.1 Komitənin müstəqilliyi

4.5.1.1 Tİİ Komitəsi öz funksiyalarının icra edilməsində müstəqil və bitərəf şəkildə fəaliyyət göstərir.

4.5.1.2 Tİİ Komitəsi öz vəzifələrinin icra edə bilməsi üçün bütün zəruri və əlaqəli səlahiyyətlərə malikdir.

4.5.1.3 *Tİİ* Komitəsi Terapevtik İstifadə üçün İstisnalar üzrə Beynəlxalq Standarta uyğun olaraq gecikməsiz *Tİİ* müraciətlərini dəyərləndirir və həmin müraciətlərlə bağlı qərar qəbul edir. Həmin qərar AMADA-nın qəti qərarı hesab edilir.

4.5.1.4 *Tİİ* Komitəsi hər hansı *Tİİ* müraciətləri ilə bağlı şəraitlərin nəzərdən keçirilməsi üçün müvafiq hesab etdiyi istənilən tibbi və ya elmi ekspert dəstəyini tələb edə bilər.

## 4.6 *Tİİ* Komitəsinin təyin edilməsi

4.6.1 Müvafiq icra hakimiyyəti orqanı Sədrdən, beş (5) ildən az olmayaraq idmançılara qayğı və müalicə ilə bağlı təcrübəyə və kliniki, idman və məşq təbabətinin dərin biliyinə sahib olan bir (1) Sədr müavini və beş (5) ildən az olmayan davamlı iş təcrübəsinə malik üç (3) tibb işçisindən ibarət Tİİ Komitəsi təyin etməlidir.

4.6.2 Hər bir üzv dörd (4) illik müddətə təyin olunmalıdır.

4.6.3 Üzvlər vəzifələrinə yenidən təyin oluna bilərlər.

## 4.7 Tİİ Komitəsinin funksiyaları

4.7.1 Terapevtik İstifadə üçün İstisna Şəhadətnamələri üçün milli idmançılardan müraciətləri qəbul etmək və onları nəzərdən keçirmək;

4.7.2 Terapevtik İstifadə üçün İstisna Şəhadətnamələrini vermək və ya verməkdən imtina etmək;

4.7.3 Akt əsasında təyin olunan yaxud tapşırılan hər hansı digər funksiyaları yerinə yetirmək.

## 4.8 Tİİ Komitəsinin Qərarları

4.8.1 Tİİ Komitəsi *İdmançının* müraciətinə baxmaq üçün onun özündən və ya həkimindən əlavə məlumatlar, müayinələr və ya vizualizasiya (MRT, ultrasəs yaxud rentgen) tədqiqatları və ya zəruri hesab edilən digər məlumatları tələb edə bilər və/və ya müvafiq hesab edilən hər hansı tibbi və ya elmi ekspertlərin köməyindən istifadə edə bilər.

4.8.2 *Tİİ* Komitəsı mümkün qədər tez müddətdə və adətən (müstəsna halla baş vermədiyi təqdirdə) tam müraciətin alınmasından sonra 21 gündən çox olmayan müddətdə müraciəti təmin edib-etməməklə bağlı qərar qəbul etməlidir. *Tİİ* müraciəti *Tədbirdən* əvvəl ağlabatan müddətdə təqdim olunarsa, *Tİİ* Komitəsı *Tədbir* başlamazdan əvvəl qərar qəbul etmək üçün əlindən gələni etməlidir.

4.8.3 *Tİİ* Komitəsi qərarı yazılı şəkildə İdmançıya bildirilməli və ADAMS və ya ÜADA tərəfindən təsdiq edilmiş istənilən digər sistem vasitəsilə ÜADA-ya və digər Antidopinq Təşkilatlarına məlum edilməlidir.

4.8.4 Kliniki vəziyyəti və *Tİİ* ilə bağlı tətbiq edilən hər hansı şərtləri əks etdirən *Tİİ* təmin etmək qərarı, *Tİİ* Komitəsi tərəfindən icazə edilən müvafiq *Qadağan edilmiş Maddə və yaxud Qadağan edilmiş Üsulun* tətbiq edilməsinin dozası(ları), tezliyi, daxiletmə üsulu və müddətini müəyyən etməlidir.

4.8.5 *Tİİ* müraciətinə rədd cavabına bu qərarın səbəb(lər)inin izahını daxil edilməlidir.

4.8.6 *Tİİ* Komitəsinin üzvləri, müstəqil ekspertlər və *Antidopinq Təşkilatının* müvafiq işçi heyəti proseslə əlaqəli olan bütün fəaliyyətlərini ciddi məxfilik şəraitində həyata keçirməli və müvafiq məxfilik müqavilələri imzalamalıdırlar. Xüsusilə, onlar aşağıda göstərilən məlumatları məxfi saxlamalıdırlar:

4.8.6.1 İstifadəçinin müalicəsi ilə bağlı *İdmançı* və həkim(lər) tərəfindən təmin edilən bütün tibbi informasiya və məlumatlar.

4.8.6.2 Proseslə bağlı həkim(lərin) ad(lar)ı daxil olmaqla, müraciətin bütün təfərrüatları.

## 4.9 Maraqlar münaqişəsi və məxfilik

4.9.1 Qərarların müstəqillik səviyyəsinə nail olmaq məqsədi *Tİİ* Komitəsinin üzvləri maraqlar münaqişələrindən və ya AMADA-da siyasi məsuliyyətdən azad olmalıdırlar.

4.9.2 *Tİİ* Komitəsinin bütün üzvləri AMADA-dan müstəqil olmalıdırlar. Özlərinin AMADA, Beynəlxalq Federasiyaları və ya *Milli Federasiyaları* ilə əlaqədar maraqlar münaqişəsinə daxil olan Tİİ Komitəsi üzvləri, Sədr tərəfindən onların mənsub olduqları AMADA, Beynəlxalq Federasiyaları və ya *Milli Federasiyalarının* üzvləri olan *İdmançıların Tİİ* müraciətlərinə baxılmasından kənarlaşdırılmalıdırlar.

4.9.3 Tİİ Komitəsinin üzvləri AMADA tərəfindən tərtib olunan maraqların münaqişəsi və məxfiliklə bağlı bəyannaməni imzalamalıdırlar.

## MADDƏ 5. TEST KEÇİRİLMƏSİ VƏ TƏHQİQATLAR

### 5.1 Test keçirilməsi və Təhqiqatların məqsədi

Test keçirilməsi və təhqiqatlar yalnız antidopinq məqsədləri üçün həyata keçirilə bilər. Onlar Test keçirilməsi və Təhqiqatlar üzrə Beynəlxalq Standartın müddəalarına və AMADA-nın həmin *Beynəlxalq Standartı* tamamlayan xüsusi protokollarına uyğun olaraq həyata keçirilməlidir.

5.1.1 *Test, İdmançının Qadağan edilmiş Maddə və ya Qadağan edilmiş Üsuldan İstifadə* etməsini yaxud mövcudluğunu qadağan edən *Məcəlləyə* riayət etməsi (yaxud riayət etməməsi) ilə bağlı analitik sübut əldə etmək məqsədilə keçirilir. Test bölüşdürmə planlaşdırması, *Test* və *Testdən* sonrakı fəaliyyətlər, və AMADA tərəfindən icra edilən bütün digər fəaliyyət növləri, Test keçirilməsi və Təhqiqatlar üzrə Beynəlxalq Standarta uyğun olmalıdır. AMADA Test keçirilməsi və Təhqiqatlar üzrə Beynəlxalq Standart əsasında müəyyən edilmiş meyarlara uyğun olaraq yerinə yetirilməli son yerləşdirmə testlərinin, təsadüfi testlərinin və məqsədli testlərinin sayını müəyyənləşdirməlidir. Bütün belə *Testlərin* keçirilməsi ilə əlaqədar Test keçirilməsi və Təhqiqatlar üzrə Beynəlxalq Standartın bütün müddəaları avtomatik tətbiq edilir.

5.1.2 Təhqiqatlar aşağıda qeyd edilən üsullardan bir ilə aparılmalıdır:

5.1.2.1 2.1-ci və/və yaxud 2.2-ci Maddələr üzrə antidopinq qayda pozuntusunun baş verib-verməməsini müəyyənləşdirmək məqsədilə, Atipik Nəticələr, Atipik Pasport Nəticələri və Qeyri-əlverişli Pasport Nəticələri ilə əlaqədar müvafiq 7.4 və 7.5-ci Maddələrə uyğun olaraq məlumat və sübutlar (xüsusilə laboratoriya analizi metodu nəticəsində əldə olunmuş sübutlar daxil olmaqla) toplanması yolu ilə; və

5.1.2.2 7.6-cı və 7.7-ci Maddələrə uyğun olaraq digər potensial antidopinq qayda pozuntusu işarələri ilə əlaqədar 2.2-2.10-cu Maddələrə uyğun olaraq antidopinq qayda pozuntusunun baş verib-vermədiyini müəyyənləşdirmək məqsədilə məlumat və sübutların (xüsusilə laboratoriya analizi metodundan kənar vasitələrlə əldə olunmuş sübutlar da daxil olmaqla) toplanması yolu ilə.

5.1.3 AMADA effektiv, ağlabatan və mütənasib test bölüşdürmə planının hazırlanması, Məqsədli Testin planlaşdırılması və/və ya mümkün anti-dopinq qayda pozuntusunun(larının) təhqiqatı üçün əsas yaratmaq üçün bütün mövcud mənbələrdən antidopinq məlumatlarını əldə edə, qiymətləndirə və emal edə bilər.

## 5.2 *Test* keçirilməsi üçün səlahiyyət

5.2.1 *Tədbir Müddətində Test* keçirilməsi ilə bağlı Məcəllənin 5.3-cü Maddəsində müəyyənləşdirilən yurisdiksiya məhdudiyyətlərini rəhbər tutaraq, AMADA yuxarıda qeyd olunan 1.3-cü Maddənin əhatə dairəsinə düşən bütün *İdmançılar* üzərində *Yarışma müddətində və Yarışmadan kənar müddətdə Tes*t keçirmək səlahiyyətinə malikdir.

5.2.2. AMADA üzərində *Test* keçirmək səlahiyyətinə malik olduğu hər hansı bir *İdmançıdan* (*Diskvalifikasiya* müddətində olan hər hansı bir *İdmançı* də daxil olmaqla) istənilən vaxt və istənilən yerdə *Nümunə* verməsini tələb edə bilər.

5.2.3 Məcəllənin 20.7.8-ci Maddəsində uyğun olaraq, *ÜADA Yarışma müddətində və Yarışmadan kənar müddətdə Test* keçirmək səlahiyyətinə malikdir.

5.2.4 Beynəlxalq Federasiya və yaxud *Əsas Tədbir Təşkilatçısı Test* keçirilməsinin hər hansı bir hissəsini (birbaşa, yaxud *Milli Federasiya* vasitəsi ilə) AMADA-ya tapşırsa yaxud sifariş etsə, AMADA əlavə Nümunələr toplaya, yaxud AMADA-nın hesabına əlavə növ analizlərin keçirilməsi üçün laboratoriyaya göstəriş verə bilər. Əlavə *Nümunələr* toplandığı, yaxud əlavə növ analizlərin keçirilməsi halında Beynəlxalq Federasiya yaxud *Əsas Tədbir Təşkilatçısı* məlumatlandırılmalıdır.

5.2.5 Hazırki Antidopinq Qaydalarına tabe olan İdmançı üzərində Test keçirmək səlahiyyətinə malik digər *Antidopinq Təşkilatı,* həmin *İdmançı* üzərində *Test* keçirərsə, AMADA və *İdmançının Milli Federasiyası* 15-ci Maddəyə uyğun olaraq həmin *Testi* tanıyacaq və (həmin digər *Antidopinq Təşkilatını* ilə razılıq əsasında və ya *Məcəllənin* 7-ci Maddəsində müəyyən olunduğu hallarda) AMADA-nın hazırki Antidopinq Qaydalarına uyğun olaraq həmin *Test* ilə əlaqədar aşkarlanan hər hansı antidopinq qayda pozuntusuna görə *İdmançıya* qarşı iddia irəli sürə bilər.

## 5.3 *Tədbir Müddətində Test*

5.3.1 *Məcəllənin* 5.3-cü Maddəsində xüsusi qeyd olunan hallar istisna olmaqla, yalnız bir təşkilat *Tədbir Müddətində Tədbir keçirilən Yerlərdə Test* keçirilməsinin başlanması və təşkilinə görə məsuliyyət daşımalıdır. Azərbaycanda keçirilən *Beynəlxalq Tədbirlərdə Nümunələrin* toplanmasının başlanması və təşkili *Beynəlxalq Federasiya* (yaxud *Tədbir* üzrə əsas təşkilatçı orqan olan digər hər hansı beynəlxalq təşkilat) tərəfindən aparılmalıdır. Azərbaycanda keçirilən *Milli Tədbirlərdə Nümunələrin* toplanmasının başlanması və təşkili AMADA tərəfindən aparılmalıdır. AMADA-nın (yaxud *Tədbir* üzrə əsas təşkilatçı qurumun) tələbi ilə, *Tədbir Müddətində Tədbir keçirildiyi Yerdən* kənarda hər hansı Testin keçirilməsi AMADA (yaxud Tədbir üzrə əsas təşkilatçı orqan) ilə əlaqələndirilməlidir.

5.3.2. Digər hallarda *Test* keçirmək səlahiyyəti olan, lakin *Tədbirdə Testin* başlanmasına və təşkilinə məsuliyyət daşımayan *Antidopinq Təşkilatı Tədbir Müddətində Tədbir keçirilən Yerlərdə İdmançıların Testini* həyata keçirmək niyyətində olduqda, həmin *Antidopinq Təşkilatı* bu cür Testin keçirilməsi və əlaqələndirilməsinə icazə almaq üçün AMADA (yaxud *Tədbir* üzrə əsas təşkilatçı orqana) ilə məsləhətləşməlidir. *Antidopinq Təşkilatı* AMADA-nın (yaxud *Tədbir* üzrə əsas təşkilatçı orqanın) cavabından razı qalmadığı halda, həmin Antidopinq Təşkilatı Test keçirməyə icazə almaq və Test keçirilməsi və Təhqiqatlar üzrə Beynəlxalq Standartda müəyyən edilmiş prosedurlara uyğun olaraq bu cür *Test* prosesinin necə əlaqələndirilməsini müəyyənləşdirmək üçün *ÜADA-ya* müraciət edə bilər. *ÜADA* AMADA (yaxud *Tədbir* üzrə əsas təşkilatçı orqan) ilə məsləhətləşmədən və bu haqda onları məlumatlandırmadan həmin *Testin* keçirilməsi üçün razılıq verə bilməz. *ÜADA-nın* qərarı yekundur və apellyasiya qaydasında qərardan şikayət edilə bilməz. *Test* keçirilməsi ilə bağlı icazədə başqa cür qeyd olunmayıbsa, belə *Testləri Yarışmadan kənar müddətdə* aparılan *Testlər* hesab edilməlidir. *Tədbirin* təşkilatçı orqanının qaydalarında başqa qayda qeyd olunmayıbsa, hər hansı belə Tesın nəticələrinin emalı həmin *Testi* başlayan *Antidopinq Təşkilatının* məsuliyyəti olmalıdır.

5.3.3 *Milli Federasiyalar və Milli Tədbirlər* üzrə təşkilatçı komitələr belə *Tədbirlərdə Müstəqil Müşahidəçi Proqramının* yaradılmasına icazə verməli və buna dəstək etməlidirlər.

## 5.4 Test Bölüşdürmə Planlaşdırılması

Test keçirilməsi və Təhqiqatlar üzrə Beynəlxalq Standarta riayət edərək və işini eyni *İdmançılar* üçün *Test* keçirən digər *Antidopinq Təşkilatları* ilə əlaqələndirərək, AMADA Test keçirilməsi və Təhqiqatlar üzrə Beynəlxalq Standartın tələbərinə tamamilə cavab verən və idman növləri, İdmançı kateqoriyaları, Test növləri, toplanan *Nümunə* növləri və *Nümunə* analizi növləri arasında münasib prioritetləri müəyyən edən effektiv, ağlabatan və mütənasib test bölüşdürmə planını hazırlayır və icra edir. AMADA *ÜADA-nın* tələbi ilə özünün hazırkı test bölüşdürmə planının surətini ona təqdim etməlidir.

## 5.5 *Testlərin* əlaqələndirilməsi

Ağlabatan şəkildə mümkün olan hallarda, birgə *Testlər* üzrə səylərin effektivliyini maksimallaşdırmaq və lazımsız təkrar *Testlərin* qarşısını almaq məqsədilə *Testləri* Antidopinqə Nəzarət və İdarəetmə Sistemi (ADAMS) və yaxud digər *ÜADA* tərəfindən təsdiq edilmiş Sistem vasitəsilə əlaqələndirilməlidir.

## 5.6 *İdmançının* Məkan Məlumatları

5.6.1 AMADA Test keçirilməsi və Təhqiqatlar üzrə Beynəlxalq Standarta Əlavə I-ə əsasən məkan məlumatı tələbinə riayət etməli olan *İdmançıların Qeydiyyata alınmış Test Qrupunu* müəyyənləşdirməlidir. *Qeydiyyata alınmış Test Qrupundakı* hər bir *İdmançı* Test keçirilməsi və Təhqiqatlar üzrə Beynəlxalq Standartlara Əlavə I-də qeyd edilənlərə uyğun olaraq hər bir halda aşağıdakıları etməlidirlər: (a) AMADA-ya məkan məlumatlarını rüblük əsasında məlumat vermək; (b) hər zaman dəqiq və tam olması üçün zəruri hallarda həmin məlumatları yeniləmək; və (c) özünü Test keçirilməsi üçün həmin məkanda təqdim etməyə hazır etmək.

5.6.2 AMADA adı yaxud aydın müəyyən edilmiş xüsusi meyarlar vasitəsilə öz *Qeydiyyata alınmış Test Qrupuna* daxil edilmiş *İdmançıları* müəyyənləşdirən siyahısını ADAMS vasitəsi ilə açıqlayır. AMADA belə *İdmançıların* müəyyənləşdirilməsi və onların məkan məlumatlarının toplanmasında Beynəlxalq Federasiyalarla əməkdaşlıq edir. *İdmançı* Beynəlxalq Federasiyası tərəfindən beynəlxalq *Qeydiyyata alınmış Test Qrupuna* və AMADA tərəfindən milli *Qeydiyyata alınmış Test Qrupuna* daxil edildiyi hallarda, AMADA və Beynəlxalq Federasiya onlardan han-

sının İdmançının məkan məlumatlarını qəbul edəcəyi ilə bağlı öz aralarında razılığa gəlirlər; heç bir halda *İdmançıdan* məkan məlumatlarını birdən çox təşkilata təqdim etməsi tələb olunmur. AMADA zərurət yarandıqca *İdmançıları* özünün *Qeydiyyata alınmış Test Qrupuna* daxil etmək üçün meyarlarına yenidən baxmalı və yeniləməli və həmin meyarlara əsasən özünün *Qeydiyyata alınmış Test Qrupunda* üzvlüyə müntəzəm şəkildə yenidən baxmalıdır. *Qeydiyyata alınmış Test Qrupuna* daxil edilməzdən və həmin qrupdan çıxarılmazdan əvvəl İdmançılara məlumat verilir.

5.6.3 2.4-cü Maddənin məqsədləri üçün, Test keçirilməsi və Təhqiqatlar üzrə Beynəlxalq Standartda qeydiyyat xətası yaxud buraxılmış testin bəyan edilməsi üçün müəyyən edilmiş şərtlərin qarşılandığı hallarda, *İdmançı* Test keçirilməsi və Təhqiqatlar üzrə Beynəlxalq Standartın tələblərini qarşılaya bilməməsi Qeydiyyat Xətası və ya Buraxılmış Test hesab edilir (Test keçirilməsi və Təhqiqatlar üzrə Beynəlxalq Standartda müəyyən olunduğu kimi).

5.6.4 AMADA-nın Qeydiyyata alınmış Test Qrupuna daxil edilmiş İdmançı a) AMADA-ya idmanı tərk etməsi barədə yazılı bildiriş verməsi və ya b) onun AMADA tərəfindən artıq AMADA-nın *Qeydiyyata alınmış Test Qrupuna* daxil edilməsi üçün meyarlara cavab verməməsi barədə məlumatlandırması anına qədər Test keçirilməsi və Təhqiqatlar üzrə Beynəlxalq Standarta Əlavə I-də qeyd edilmiş məkan məlumatlarıın verilməsi üzrə müəyyən edilmiş tələbləri qarşılamaq öhdəliyini daşımağa davam edir.

5.6.5 *İdmançının* məkan məlumatları (ADAMS vasitəsilə) *ÜADA* və həmin *İdmançını Testdən* keçirmək səlahiyyəti olan digər *Antidopinq Təşkilatları* ilə paylaşılmalı, bütün hallarda gizli saxlanılmalı, müstəsna olaraq *Məcəllənin* 5.6-ci Maddəsində qeyd edilmiş məqsədlər üçün istifadə edilməli və artıq həmin məqsədlər üçün münasib olmadığı təqdirdə Məxfilik və Şəxsi Məlumatların Mühafizəsi üzrə Beynəlxalq Standarta uyğun olaraq məhv edilməlidir.

## 5.7 İdmanı tərk etmiş *İdmançıların Yarışmalara* qayıtması

5.7.1 AMADA-nın Qeydiyyata alınmış *Test Qrupuna* daxil edilmiş və AMADA-ya idmanı tərk etməsi barədə məlumat vermiş İdmançı Test keçirilməsi və Təhqiqatlar üzrə Beynəlxalq Standarta Əlavə I-in İdmançının məkan məlumatı tələblərinə riayət etməsi daxil olmaqla (tələb

olunduqda), AMADA-ya yarışmalarda iştirakını bərpa etmək niyyəti barədə yazılı bildiriş təqdim etmədən və yarışlara qayıtmazdan altı ay əvvəl *Testdə* iştirak üçün özünü hazır etmədən *Beynəlxalq* yaxud *Milli Tədbirlərdə* iştirakını bərpa edə bilməz. Altı ay öncədən yazılı bildiriş qaydasının ciddi şəkildə tətbiq olunmasının İdmançıya qarşı açıq-aşkar ədalətsizlik olması təqdirdə, *ÜADA*, AMADA və *İdmançının Milli Federasiyası* ilə məsləhətləşərək, həmin qayda üçün istisna verə bilər. Bu qərar 13-cü Maddə əsasında apellyasiya qaydasında mübahisələndirilə bilər. Hazırki 5.7.1-ci Maddənin pozuntusu ilə əldə olunmuş hər hansı yarışma nəticələri *Diskvalifikasiya* olunmalıdır.

5.7.2 *İdmançı Diskvalifikasiya* müddətində idmanı tərk etmişsə, həmin *İdmançı* Test keçirilməsi və Təhqiqatlar üzrə Beynəlxalq Standarta Əlavə I-in *İdmançının* məkan məlumatı tələblərinə riayət etməsi daxil olmaqla (tələb olunduqda), AMADA-ya və öz Beynəlxalq Federasiyasına yarışmalarda iştirakını bərpa etmək niyyəti barədə yazılı bildiriş təqdim edərək yarışlara qayıtmazdan altı ay (yaxud İdmançının idmanı tərk etməsindən sonra qalan *Diskvlaifikasiya* müddətinə bərabər müddət, əgər həmin dövr altı aydan çoxdursa) öncədən *Testdə* iştirak üçün özünü hazır etmədən *Beynəlxalq* yaxud *Milli Tədbirlərdə* iştirakını bərpa edə bilməz.

5.7.3 AMADA-nın *Qeydiyyata alınmış Test* Qrupuna daxil edilməmiş və AMADA-ya idmanı tərk etməsi barədə məlumat vermiş *İdmançı* Test keçirilməsi və Təhqiqatlar üzrə Beynəlxalq Standarta Əlavə I-in *İdmançının* məkan məlumatı tələblərinə riayət etməsi daxil olmaqla (tələb olunduqda), AMADA-ya və öz Beynəlxalq Federasiyasına *Yarışmada* iştirakını bərpa etmək niyyəti barədə yazılı bildiriş təqdim etmədən və *Yarışmaya* faktiki qayıdışdan əvvəlki müddətdə özünü elan olunmamış *Yarışmadan kənar müddətdə Testdə* iştirak üçün hazır etmədən *Beynəlxalq yaxud Milli Tədbirlərdə* iştirakını bərpa edə bilməz.

## MADDƏ 6. *NÜMUNƏLƏRİN ANALİZİ*

*Nümunələr* aşağıdakı prinsiplərə uyğun olaraq müayinə edilməlidir:

### 6.1 Akkreditə və Təsdiq olunmuş laboratoriyalardan istifadə

2.1-ci Maddənin məqsədləri üçün, *Nümunələr* yalnız *ÜADA* tərəfindən akkreditə olunmuş və ya digər yolla təsdiq olunmuş laboratoriyalarda müayinə edilməlidir. *Nümunələrin* analizi üçün *ÜADA* tərəfindən akkeditə olunmuş və ya *ÜADA* tərəfindən təsdiq olunmuş laboratoriyanın seçimi müstəsna olaraq AMADA tərəfindən müəyyən edilir.

## 6.2 *Nümunələrin* Analizinin məqsədləri

6.2.1 *Nümunələr Məcəllənin* 4.5-ci Maddəsinə uyğun olaraq Monitorinq Proqramına əsasən *ÜADA* tərəfindən müəyyən edilən *Qadağan edilmiş Maddələrin* və ya *Qadağan edilmiş Üsulların* aşkar edilməsi; yaxud DNT və gen profilləri daxil olmaqla, *İdmançının* sidik, qan və ya digər matrislarda müvafiq parametrlərin profillərinin yaradılmasında yardım göstərilməsi; yaxud digər qanuni antidopinq məqsədləri üçün analiz edilməlidir. *Nümunələr* gələcək analizlər üçün toplanıla və saxlanıla bilər.

6.2.2 AMADA laboratoriyalardan, *Məcəllənin* 6.4-cü Maddəsi və Test keçirilməsi və Təhqiqatlar üzrə Beynəlxalq Standartının 4.7-ci Maddəsi əsasında, *Nümunələrin* müayinə edilməsini tələb etməlidir.

## 6.3 *Nümunələr* üzərində tədqiqatlar

Heç bir *Nümunə İdmançının* yazılı razılığı olmadan tədqiqat üçün istifadə edilə bilməz. 6.2-ci Maddənin məqsədlərindən fərqli məqsədlər üçün istifadə olunan *Nümunələrdə* onların konkret *İdmançıya* dair izlənilməsinin qarşısı alınması üçün heç bir identifikasiya vasitələri olmamalıdır.

## 6.4 *Nümunələrin* Analizi və Hesabatılığı Standartları

Laboratoriyalar *Nümunələri* Laboratoriyalar üzrə Beynəlxalq Standarta uyğun olaraq müayinə etməli və nəticələr barədə hesabat verməlidirlər. *Testin* effektivliyini təmin etmək üçün *Məcəllənin* 5.4.1-ci Maddəsində qeyd edilən Texniki Sənədə uyğun olaraq konkret idmanlar və idman növləri üçün, münasib risk qiymətləndirilməsinə əsaslanan, *Nümunə* analizi menyusunu müəyyən edəcək  və laboratoriyalar aşağıdakılar istisna olmaqla bu menyular əsasında *Nümunələri* müayinə edəcəklər:

6.4.1 AMADA öz *Nümunələrin* müayinəsini Texniki Sənəddə təsvir olunmuş menyulardan daha genişləndirilmiş menyulardan istifadə etməklə aparılmasını tələb edə bilər.

6.4.2 AMADA öz *Nümunələrin* müayinəsinin Texniki Sənəddə təsvir olunmuş menyulardan daha ixtisarlaşdırılmış menyulardan istifadə etməklə aparılmasını yalnız o halda tələb edə bilər ki, o,  ölkəsinin yaxud sözügedən idmanın xususi halı ilə əlaqədar öz test bölüşdürmə planında müəyyən olunduğu kimi daha ixtisar edilmiş analizin münasib olmasına istinad edərək, *ÜADA* ilə bunu öncədən razılaşdırsın.

6.4.3 Laboratoriyalar üzrə Beynəlxalq Standartda nəzərdə tutulduğu kimi, laboratoriyalar öz təşəbbüsü və hesabına, Texniki Sənəddə təsvir

olunmamış və *Testin* keçrilməsinə görə məsuliyyətli təşkilat tərəfindən müəyyənləşdirilmiş *Nümunə* analizi menyusuna daxil edilməmiş, *Qadağan edilmiş Maddələrin* və ya *Qadağan edilmiş Üsulların* müayinəsini apara bilər. Hər hansı belə müayinə nəticələri hesabata daxil edilməlidir və digər müayinə nəticələri kimi eyni məna daşımalıdır və eyni hüquqi qüvvəyə malik olmalıdır.

### 6.5 *Nümunələrin* əlavə Analizi

İstənilən *Nümunə* 6.2-ci Maddədə göstərilən məqsədlər üçün saxlanıla bilər və sonradan əlavə analizlər üçün istifadə oluna bilər: (a) *ÜADA* tərəfindən istənilən zaman; və/ və ya (b) AMADA tərəfindən hər an, birlikdə A və B *Nümunələrinin* (və ya A *Nümunəsinin*, B *Nümunəsinin* analizindən imtina edildiyi və ya keçirilməyəcəyi təqdirdə) analiz nəticələrinin 2.1-ci Maddədə qeyd olunmuş antidopinq qayda pozuntusu üçün əsaslandırma kimi *İdmançıya* bildirilməsindən əvvəl, *Nümunələrin* belə əlavə analizi Laboratoriyalar üzrə Beynəlxalq Standart və Test keçirilməsi və Təhqiqatlar üzrə Beynəlxalq Standartın tələblərinə uyğun olmalıdır.

## MADDƏ 7. NƏTİCƏLƏRİN EMALI

### 7.1 Nəticələrin emalının həyata keçirilməsinə görə məsuliyyət

7.1.1 AMADA *Məcəllənin* 7-ci Maddəsində əks olunan prinsiplərə müvafiq olaraq öz antidopinq yurisdiksiyası altında olan *İdmançılara* və digər *Şəxslərə* münasibətdə nəticələrin emalına məsuliyyəti öz üzərinə götürür.

7.1.2 5.2.4-cü Maddədə müəyyən olunmuş hallarda AMADA əlavə *Nümunələrin* toplanmasını seçdikdə, nəticələrin emalı məsuliyyətinin müəyyən edilməsi məqsədləri üçün o, *Nümunələrin* toplanmasını başlayan və təşkil edən *Antidoping Təşkilatı* hesab edilməlidir. Lakin, AMADA öz hesabına əlavə analizlərin keçirilməsi üçün laboratoriyalara göstərişlər verərsə, bu halda Beynəlxalq Federasiya yaxud *Əsas Tədbir Təşkilatçısı Nümunələrin* toplanmasını başlayan və təşkil edən *Antidopinq Təşkilatı* hesab edilməlidir.

### 7.2 AMADA tərəfindən başlanılmış *Testin Qeyri-əlverişli Analiz Nəticələrinin* yoxlanılması

AMADA tərəfindən başlanılmış *Test* nəticələrinə münasibətdə nəticələrin emalı prosesi aşağıdakı qaydada aparılmalıdır:

7.2.1 Bütün analizlərin nəticələri AMADA-ya kodlaşdırılmış formada, Laboratoriyanın səlahiyyətli şəxsi tərəfindən imzalanmış hesabatda göndərilməlidir. Bütün rabitə məxfi xarakter daşımalı və *ADAMS* sisteminin tələblərinə riayət etməklə aparılmalıdır.
7.2.2 *Qeyri-əlverişli Analiz Nəticəsi* aldıqdan sonra, AMADA aşağıdakıları müəyyən etmək üçün yoxlama aparmalıdır: (a) Terapevtik İstifadə üçün İstisna üzrə Beynəlxalq Standartında nəzərdə tutulmuş qaydada tətbiq olunan *Tİİ* artıq verilmiş yaxud veriləcəkdirsə; və ya (b) Test keçirilməsi və Təhqiqatlar üzrə Beynəlxalq Standartı və ya Laboratoriyalar üzrə Beynəlxalq Standartdan *Qeyri-əlverişli Analiz Nəticəsinə* səbəb olmuş hər hansı aydın şəkildə yayınmanın mövcudluğu.

7.2.3 7.2.2-ci Maddə üzrə *Qeyri-əlverişli Analiz Nəticəsinin* yoxlanılması tətbiq olunan *TİI-nin* mövcudluğunu yaxud Test keçirilməsi və Təhqiqatlar üzrə Beynəlxalq Standart və ya Laboratoriyalar üzrə Beynəlxalq Standartdan *Qeyri-əlverişli Analiz Nəticəsinə* səbəb olmuş hər hansı aydın yayınmanı aşkar edərsə, onda Test tamamilə mənfi sayılır və bu barədə *İdmançıya*, *İdmançının* Beynəlxalq Federasiyasına, *İdmançının Milli Federasiyasına* və *ÜADA-ya* məlumat verilir.

## 7.3 *Qeyri-əlverişli Analiz Nəticələrə* dair icmaldan sonra bildiriş

7.3.1 7.2.2-ci maddəyə əsasən *Qeyri-əlverişli Analiz Nəticəsinin* yoxlanması Terapetik İstifadə üçün İstisna üzrə Beynəlxalq Standartında nəzərdə tutulmuş qaydada tətbiq oluna bilən *Tİİ* və ya *Tİİ* almaq hüququ yaxud Test keçirilməsi və Təhqiqatlar üzrə Beynəlxalq Standartı və ya Laboratoriyalar üzrə Beynəlxalq Standartdan *Qeyri-əlverişli Analiz Nəticəsinə* səbəb olmuş hər hansı aydın yayınma aşkarlanmırsa, AMADA dərhal *İdmançını* və eyni zamanda *İdmançının* Beynəlxalq Federasiyasını və *ÜADA-nı* 14.1-ci maddədə göstərildiyi qaydada aşağıdakılar barədə məlumatlandırmalıdır: (a) *Qeyri-əlverişli Analiz Nəticəsi;* (b) pozulmuş antidoping qaydası; (c) *İdmançının* B *Nümunəsinin* analizini tələb etmək hüququ və ya bu cür tələbin müəyyən müddət ərzində edilməməsi təqdirdə, bunun B *Nümunəsinin* analizindən imtina kimi qiymətləndirilməsi; (d) *İdmançının* və ya AMADA-nın B *Nümunəsinin* analizini tələb etdiyi təqdirdə *Nümunə* B-nin analizi üçün planlaşdırılmış tarix, vaxt və yerə dair məlumat; (e) Laboratoriyalar üzrə Beynəlxalq Standarta əsasən B *Nümunəsinin* açılması və analizi prosedurunda iştirak üçün *İdmançıya* və/və ya *İdmançının* nümayəndəsinə şəraiti yaradılması; və (f) *İdmançının* Laboratoriyalar üzrə Beynəlxalq Standartnın tələbləri əsasında məlumatları ehtiva edən A və B *Nümunələri* laborator sənədlər paketinin

surətlərini tələb etmək hüququ. AMADA *Qeyri-əlverişli Analiz Nəticəsini* antidopinq qayda pozuntusu kimi irəli sürmək qərarına gəlmədiyi halda, o, bu barədə *İdmançını, İdmançının* Beynəlxalq Federasiyasını, *İdmançının Milli Federasiyasını* və *ÜADA-nı* məlumatlandırmalıdır.

7.3.2 İdmançı və ya AMADA-nın tələb etdiyi hallarda, Laboratoriyalar üzrə Beynəlxalq Standartına uyğun olaraq B Nümunəsinin analiz edilməsi üçün tədbirlər görülməlidir. İdmançı B Nümusənin analizi üçün tələbdən imtina etməklə A Nümunəsinin analizinin nəticələrini qəbul edə bilər. Bununla bərabər, AMADA B Nümunəsinin analizinin keçirilməsini seçə bilər.

7.3.3 *İdmançı* və/ və ya onun nümayəndəsi B *Nümunəsinin* analizinin keçirilməsində iştirak etmək hüququna malikdir. Əlavə olaraq, AMADA nümayəndəsinin, habelə *İdmançının Milli Federasiyası* nümayəndəsinin iştirakına icazə verilməlidir.

7.3.4 Əgər B *Nümunəsinin* analizi A *Nümunəsinin* analizini təsdiqləmirsə, bu halda (AMADA 2.2-ci Maddəyə əsasən antidopinq qayda pozuntusuna görə iddia irəli sürməsə) *Test* tamamilə mənfi hesab olunur və bu barədə *İdmançıya, İdmançının* Beynəlxalq Federasiyasına, *İdmançının Milli Federasiyasına* və *ÜADA-ya* məlumat verilir.

7.3.4 Əgər B *Nümunəsinin* analizi A *Nümunəsinin* analizini təsdiqləyirsə, bu halda *İdmançıya, İdmançının* Beynəlxalq Federasiyası, *İdmançının Milli Federasiyasına və ÜADA-ya* bu barədə məlumat verilir.

## 7.4 *Atipik Nəticələrin* yoxlanılması

7.4.1 Laboratoriyalar üzrə Beynəlxalq Standartda göstərildiyi kimi, laboratoriyalara, bəzi hallarda, bədəndə endogen şəkildə istehsal olunan *Qadağan edilmiş Maddələrin* mövcudluğu barədə əlavə təhqiqat tələb edən *Atipik Nəticələr* kimi hesabat vermək göstərişi verilir.

7.4.2 *Atipik Nəticə* aldıqdan sonra, AMADA aşağıdakıları müəyyən etmək üçün yoxlama aparmalıdır: (a) Terapevtik İstifadə üçün İstisna üzrə Beynəlxalq Standartnda nəzərdə tutulmuş qaydada tətbiq olunan *TİI* artıq verilmiş yaxud veriləcəkdirsə; və ya (b) Test keçirilməsi və Təhqiqatlar üzrə Beynəlxalq Standartı və ya Laboratoriyalar üzrə Beynəlxalq Standartdan *Atipik Nəticəyə* səbəb olmuş hər hansı aydın yayınmanın mövcudluğu.

7.4.3 7.2.2-ci maddəyə əsasən *Atipik Nəticəsinin* yoxlanması Terapevtik İstifadə üçün İstisna üzrə Beynəlxalq Standartında nəzərdə tutulmuş qaydada tətbiq oluna bilən *TİI mövcudluğu,* yaxud Test keçirilməsi və Təhqiqatlar üzrə Beynəlxalq Standartı və ya Laboratoriyalar üzrə Beynəlxalq Standartdan *Atipik Nəticəyə* səbəb olmuş yayınma aşkarlanarsa, *Test* tamamilə mənfi hesab olunur və bu barədə *İdmançıya, İdmançının* Beynəlxalq Federasiyasına və *ÜADA-ya* məlumat verilir.

7.4.4 7.2.2-ci Maddəyə əsasən *Atipik Nəticəinin* yoxlanması Terapevtik İstifadə üçün İstisna üzrə Beynəlxalq Standartında nəzərdə tutulmuş qaydada tətbiq oluna bilən *TİI* mövcudluğu, yaxud Test keçirilməsi və Təhqiqatlar üzrə Beynəlxalq Standartı və ya Laboratoriyalar üzrə Beynəlxalq Standartdan *Atipik Nəticəyə* səbəb olmuş yayınma aşkarlanmırsa, AMADA zəruri təhqiqat aparmalı, yaxud təhqiqatın aparılmasına göstəriş verməlidir. Təhqiqat tamamlandıqdan sonra, *Atipik Nəticə* 7.3.1-ci Maddəyə uyğun olaraq, *Qeyri-əlverişli Analiz Nəticəsi* kimi qiymətləndirilir yaxud *İdmançıya, İdmançının* Beynəlxalq Federasiyasına, İdmançının Milli Federasiyasına və *ÜADA-ya Atipik Nəticənin Qeyri-əlverişli Analiz Nəticəsi* kimi qiymətləndirilməyəcəyi barədə məlumat verilir.

7.4.5 Aşağıdakı hallardan birinin mövcud olması istisna olmaqla, AMADA təhqiqatını tamamlamadan və *Atipik Nəticənin Qeyri-əlverişli Analiz Nəticəsi* kimi qiymətləndirib-qiymətləndirməyəcəyi barədə qəraq vermədən *Atipik Nəticə* haqqında bildiriş verməyəcəkdir:

7.4.5.1 AMADA B *nümunəsinin* öz təhqiqatını tamamlamazdan əvvəl müayinə edilməli olduğu qənaətinə gələrsə, o, bunu *İdmançıya* bu barədə məlumat verdikdən sonra edə bilər, bu şərtlə ki, *İdmançıya* verilən bildirişdə *Atipik Nəticənin* təsviri və 7.3.1-ci Maddənin (d) - (f) bəndlərində təsvir edilmiş məlumatlar göstərilsin.

7.4.5.2 Əgər AMADA *Əsas Tədbir Təşkilatçısı,* yaxud idman təşkilatı tərəfindən təqdim olunmuş siyahıda müəyyən edilmiş İdmançının qərar qəbul edilməmiş *Atipik Nəticənin* olub-olmaması barədə (a) *Beynəxalq Tədbirlərdən* qısa müddət əvvəl *Əsas Tədbir Təşkilatçısı* tərəfindən və ya (b) *Beynəlxalq Tədbir* üçün komanda üzvlərinin son tarixə qədər seçilməsinə məsuliyyət daşıyan idman təşkilatları tərəfindən sorğu alarsa, AMADA *Atipik Nəticə* barədə ilk olaraq *İdmançıya* bildiriş verəndən sonra *Əsas Tədbir Təşkilatçısına*, yaxud idman təşkilatına məlumatı təmin etməlidir.

## 7.5 *Atipik Pasport Nəticələrinin və Qeyri-əlverişli Pasport Nəticələrinin* yoxlanılması

*Atipik Pasport Nəticələrinin və Qeyri-əlverişli Pasport Nəticələrinin* yoxlanılması Test keçirilməsi və Təhqiqatlar üzrə Beynəlxalq Standartlar və Laboratoriyalar üzrə Beynəlxalq Standartlara uyğun olaraq aparılmalıdır. AMADA antidopinq qayda pozuntusunun olması qənaətinə gəldikdə, dərhal *İdmançıya* (və eyni zamanda *İdmançının* Beynəlxalq Federasiyasına, *İdmançının Milli Federasiyasına və ÜADA-ya*) antidopinq qayda pozuntusunun təsdiqlənməsi və təsdiqlənmənin əsasları haqqında məlumat verməldir.

## 7.6 *İdmançıların* Məkan Məlumatlarını təmin edə bilməmələrinin yoxlanması

AMADA Test keçirilməsi və Təhqiqatlar üzrə  Beynəlxalq Standartın Əlavə I-ə əsasən öz məkan məlumatlarını AMADA-da qeyd edilən *İdmançılara* dair potensial qeydiyyat xətaları və buraxılmış testləri yoxlayır (Test keçirilməsi və Təhqiqatlar üzrə Beynəlxalq Standartda müəyyən olunduğu kimi). AMADA 2.4-cü maddəsindəki antidopinq qayda pozuntusunun olması qənaətinə gəldikdə, dərhal *İdmançıya* (və eyni zamanda İdmançının Beynəlxalq Federasiyasına, *İdmançının Milli Federasiyasına və ÜADA-ya*) 2.4-cü maddəsindəki antidopinq qayda pozuntusunun təsdiqlənməsi və təsdiqlənmənin əsasları haqqında məlumat verməldir.

## 7.7 7.2-7.6-cı Maddələrdə müəyyən edilməyən digər *Antidopinq Qayda Pozuntularının* yoxlanılması

AMADA 7.2-7.6-cı Maddələrdə müəyyən edilməyən digər mümkün antidopinq qayda pozuntusuna dair zəruri təhqiqatları aparmalıdır. AMADA antidopinq qayda pozuntusunun olması qənaətinə gəldikdə, dərhal *İdmançıya,* yaxud digər *Şəxsə* (və eyni zamanda İdmançının Beynəlxalq Federasiyasına, *İdmançının Milli Federasiyasına və ÜADA-ya*) antidopinq pozuntusunun təsdiqlənməsi və təsdiqlənmənin əsasları haqqında məlumat verməldir.

## 7.8 Keçmiş *Antidopinq Qayda Pozuntularının* müəyyən olunması

Yuxarıda qeyd olunduğu kimi, *İdmançıya* yaxud digər *Şəxsə* təsdiqlənmiş antiqdopinq qayda pozuntusu haqqında məlumat verməzdən əvvəl, AMADA *ADAMS* sisteminə müraciət etməli və keçmiş antidopinq qay-

da pozuntusunun mövcudluğunu müəyyən etmək üçün *ÜADA* və digər müvafiq *Antidopinq Təşkilatları* ilə əlaqə saxlamalıdır.

### 7.9 *Şərti Kənarlaşdırılmalar*

**7.9.1 Məcburi Şərti Kənarlaşdırılma:** Əgər A *Nümunəsinin* analizi *Xüsusi Maddə* olmayan *Qadağan edilmiş Maddə*, yaxud Qadağan edilmiş Üsul üçün *Qeyri-əlverişli Analiz Nəticə* göstərdiyi, və 7.2.2-ci Maddəyə əsasən keçirilmiş yoxlamasına əsasən tətbiq oluna bilən *TİI*, yaxud Test keçirilməsi və Təhqiqatlar üzrə Beynəlxalq Standartı və ya Laboratoriyalar üzrə Beynəlxalq Standartdan *Qeyri-əlverişli Nəticəyə* səbəb olmuş yayınma aşkarlanmadığı halda, *Şərti Kənarlaşdırılma* dərhal, yaxud 7.2, 7.3 və 7.5-ci Maddələrə uyğun olaraq bildirişdən dərhal sonra tətbiq edilməlidir

**7.9.2 Qeyri-məcburi *Şərti Kənarlaşdırılma:*** *Xüsusi Maddələr* üçün *Qeyri-əlverişli Nəticə* əldə edildiyi, yaxud 7.9.1-ci Maddələrlə əhatə olunmayan digər antidopinq qayda pozuntuları aşkar edildiyi halda, AMADA yoxlamadan sonra istənilən zaman antidopinq qayda pozuntusu təsdiq edilmiş və 7.2-7.7-ci Maddələrdə təsvir edilmiş bildirişdən sonra və 8-ci maddədə təsvir olunmuş yekun dinləmədən əvvəl *İdmançı*, yaxud digər *Şəxsə Şərti Kənarlaşdırılma tətbiq edə* bilər.

7.9.3 7.9.1 və 7.9.2-ci Maddələrə uyğun olaraq, barəsində *Şərti Kənarlaşdırılma* tədbiri tətbiq edilmiş *İdmançı*, yaxud digər *Şəxsə* aşağıdakı imkanlardan biri verilməlidir:
(a) *Şərti Kənarlaşdırılmanın* tətbiqindən əvvəl, yaxud vaxtında *Şərti Dinləmənin* keçirilməsi,
(b) *Şərti Kənarlaşdırılmanın* tətbiqindən sonra, 8-ci maddəyə uyğun olaraq sürətləndirilmiş yekun dinləmənin keçirilməsi.
Bundan əlavə, *İdmançı*, yaxud digər Şəxsin 13.2-ci Maddəyə uyğun olaraq, *Şərti Kənarlaşdırılmanın* tətbiqinə apellyasiya qaydasında şikayət vermək hüququ vardır (7.9.3.1-ci Maddədəki hallar istisna olmaqla).

> *7.9.3.1 İdmançı komitəyə pozuntunun Kontaminasiya olunmuş Məhsul ucbatından baş verdiyini nümayiş etdirdiyi halda, Şərti Kənarlaşdırılma ləğv edilə bilər. İdmançının pozuntunun Kontaminasiya olunmuş Məhsul ucbatından baş verdiyi iddiası komitə tərəfindən qəbul edilmədiyi halda, məcburi Şərti Kənarlaşdırma qərarına dair apellyasiya qaydasında şikayət verilə bilinməz.*

7.9.4 Əgər *Şərti Kənarlaşdırma A Nümunəsində* aşkar edilmiş *Qeyri-əlverişli Analiz Nəticəsinə* əsaslanaraq tətbiq edilibsə və bundan sonrakı *B Nümunəsinin* analizi *A Nümunəsinin* analiz nəticələrini təsdiq etmirsə, o zaman *İdmançıya* qarşı 2.1-ci Maddənin pozuntusuna görə *Şərti Kənarlaşdırılma* davam edilə bilməz. *İdmançının* (yaxud onun komandasının) 2.1-ci Maddənin pozuntusuna görə *Yarışmadan* uzaqlaşdırıldığı və B Nümunəsi *analizinin* A *Nümunəsinin* analiz nəticələrini təsdiq etmədyi və *İdmançının*, yaxud komandanın *Yarışmaya* yenidən qatılmasının *Yarışmanın* gedişatına mənfi təsir göstərməyəcəyi halda, *İdmançı* yaxud komanda *Yarışmada* iştirak etməyə davam edə bilərlər. Əlavə olaraq, *İdmançı* və komandası bundan sonra həmin *Tədbirdəki* digər *Yarışmalarda* da iştirak edə bilər.

7.9.5 *İdmançıya* yaxud digər Şəxsə antidopinq qayda pozuntusu barədə bildirildiyi, lakin *Şərti Kənarlaşdırılma* tədbirinin tətbiq edilmədiyi bütün hallarda, *İdmançı* yaxud digər Şəxsə məsələ yekunlaşanadək *Şərti Kənarlaşdırılmanı* könüllü qəbul etmək imkanı təklif edilməlidir.

## 7.10 Dinləmə keçirilmədən qərarın çıxarılması

7.10.1 Antidopinq qayda pozuntusuna dair iddia edilmiş *İdmançı* yaxud digər *Şəxs*, pozuntunu etiraf edə, dinləmənin keçirilməsindən imtina edərək *Məcəlləyə* müvafiq olaraq nəzərdə tutulmuş *Sanksiyanı* qəbul edə bilər.

7.10.2 Alternativ olaraq, antidopinq qayda pozuntusuna dair iddia edilmiş *İdmançı* yaxud digər *Şəxs*, AMADA tərəfindən iddia sürülən bildirişdə müəyyən edilmiş son tarixə qədər həmin iddianı mübahisələndirmirsə, o zaman o, pozuntunu etiraf etmiş, dinləmənin keçirilməsindən imtina etmiş və *Məcəlləyə* müvafiq olaraq nəzərdə tutulmuş *Sanksiyanı* qəbul etmiş hesab olunur.

7.10.3 7.10.1 və 7.10.2 Maddələrin tətbiq edildiyi hallarda, komitə tərəfindən dinləmənin keçirilməsi tələb olunmur. Bunun əvəzinə, AMADA dərhal antidopinq qayda pozuntusunun baş verdiyini və nəticə olaraq tətbiq ediləcək *Sanksiyaları* təsdiq edən və maksimal potensial *Diskvalifikasiya* müddətin tətbiq edilməməsi üçün əsaslandırma daxil olmaqla (tələb olunarsa), tətbiq edilmiş hər hansı *Diskvalifikasiya* müddəti üçün səbəbləri göstərən yazılı qərar verməlidir. AMADA 13.2.3-cü Maddəyə uyğun olaraq apellyasiya qaydasında şikayət verilməsi hüququnun saxlanması ilə bu qərarın nüsxələrini digər *Antidopinq Təşkilatlarına* göndərməli və 14.3.2-ci Maddəyə uyğun olaraq İctimaiyyətə açıqlamalıdır.

## 7.11 Nəticələrin Emalı Qərarlarının Bildirilməsi

AMADA antidopinq qayda pozuntusunun baş verməsini təsdiq etdiyi, təsdiqi geri çağırdığı, *Şərti Kənarlaşdırılmanı* tətbiq etdiyi, yaxud *İdmançı* və ya digər *Şəxslə Şərti Kənarlaşdırılmanın* dinləmə keçirilmədən tətbiq edildiyi bütün hallarda, AMADA bunlar barədə 13.2.3-cü Maddəyə əsasən apellyasiya qaydasında şikayət vermək hüququ saxlanılmaqla 14.2.1-ci Maddəyə əsasən digər *Antidopinq Təşkilatlarına* bildirməlidir.

## 7.12 İdmanı tərk etmə

AMADA tərəfindən nəticələrin emalı prosesi davam etdirilərkən, İdmançı yaxud digər Şəxs idmanı tərk edərsə, AMADA nəticələrin emalının başa çatdırılması yurisdiksiyasına malikdir. Əgər *İdmançı* yaxud digər *Şəxs* hər hansı nəticələrin emalı prosesi başlamazdan əvvəl idmanı tərk edərsə və AMADA  bu şəxslər tərəfindən pozuntu edilən müddətdə nəticələrinin emalı üzrə səlahiyyətə malik olubsa, AMADA həmin antidopinq qayda pozuntusunun nəticələrinin emalına dair səlahiyyətlərinə malikdir.

# MADDƏ 8. ƏDALƏTLİ DINLƏMƏ HÜQUQU

## 8.1. AMADA tərəfindən nəticələrin emalından sonra dinləmə

8.1.1 Müvafiq icra hakimiyyəti orqanı ədalətlilik və qərəzsizlik əsasında vəzifələrinə təyin olunmuş, hüquq sahəsində peşə təcrübəsi üç ildən az olmayan sədr və sədr müavini, tibb sahəsində təcrübəsi üç ildən az olmayan bir tibb işçisi və hər birinin keçmişdə yaxud hazırda idman inzibatçısı yaxud idmançı olmaqla, iki əlavə üzvdən ibarət İntizam Komitəsi yaratmalıdır. Hər bir Komitə üzvünün səlahiyyət müddəti dörd ildir.

8.1.2 AMADA antidopinq qayda pozuntusunu təsdiq edən bildirişi İdmançı yaxud digər *Şəxsə* göndərdikdən sonra, *İdmançı* yaxud digər *Şəxs* 7.10.1-ci və 7.10.2-ci maddələrə uyğun olaraq dinləmə hüququndan imtina etmirsə, mübahisənin baxılması və qərar verilməsi üçün İntizam Komitəsinə göndərilir. Göndərildikdən sonra, İntizam Komistəsinin Sədri mübahisənin baxılması və qərar verilməsi üçün İntizam Komitəsinin bir və ya daha çox üzvünü (özü də daxil ola bilməklə) dinləmə üçün ekspert qrupuna təyin etməlidir. Təyin edilmiş üzvlərin mübahisə ilə əvvəlcədən heç bir bağlılığı olmamalıdır. Təyinatdan sonra hər bir üzv qərəzsizlik prinsipinə zidd ola biləcək hər hansı hal barədə Sədrə məlumat verməlidir.

## 8.2 Ədalətli dinləmə prinsipləri

8.2.1 Mübahisələrin baxılması ağlabatan müddətdə təşkil edilməli və tamamlanmalıdır. Hazırki Antidopinq Qaydalarına uyğun olan *Tədbirlərlə* əlaqəli mübahisələrin baxılması İntizam Komitəsinin razılığı olduğu halda, sürətləndirilmiş şəkildə aparıla bilər.

8.2.2 İntizam Komitəsi dinləmədə riayət ediləcək proseduru müəyyən etməlidir.

8.2.3 *ÜADA və İdmançının* yaxud digər *Şəxsin Milli Federasiyası* dinləmədə müşahidəçi kimi iştirak edə bilərlər. Hər bir halda, AMADA *ÜADA-nı* davam edən mübahisələrin gedişatı və yekun qərarlar barədə tam məlumatlandırmalıdır.

8.2.4 İntizam Komitəsi hər zaman bütün tərəflərə ədalətli və qərəzsiz münasibət göstərməlidir.

## 8.3 İntizam Komitəsinin qərarları

8.3.1 Dinləmənin sonunda yaxud müəyyən müddət keçdikdə İntizam Komitəsi tərəfindən maksimal potensial *Sanksiyaların* tətbiq edilməməsi üçün əsaslandırma daxil olmaqla (tətbiq olunarsa) və tətbiq edilmiş hər hansı *Diskvalifikasiya* müddəti üçün tam səbəbləri əhatə edən tarixi göstərilmiş və imzalanmış yazılı (yekdil yaxud səs çoxluğu ilə qəbul edilmiş) qərar verilməlidir.

8.3.2 13.2.3-cü Maddəyə uyğun olaraq apellyasiya qaydasında şikayət vermək hüququnun saxlanılması ilə qərar AMADA tərəfindən *İdmançıya*, onun *Milli Federasiyasına* və digər *Antidopinq Təşkilatlarına* təqdim edimәlidir.

8.3.3 Qərardan 13-cü Maddəyə uyğun olaraq apellyasiya qaydasında şikayət verilə bilər. Qərardan apellyasiya şikayəti verilməyibsə, (a) əgər qərar antidopinq qayda pozuntusunun törədilməsini təsdiqləyərsə, 14.3.2-ci Maddəyə uyğun olaraq, *İctimaiyyətə açıqlanmalıdır*; lakin, (b) əgər qərar antidopinq qayda pozuntusunun törədilməsini təsdiqləməzsə, qərar yalnız haqqında qərar qəbul edilən İdmançının yaxud digər Şəxsin razılığı ilə *İctimaiyyətə açıqlana bilər*. AMADA bu razılığın alınması üçün ağlabatan səyləri göstərməlidir və əgər razılıq alınıbsa, qərarı tamamilə, yaxud *İdmançı* və ya digər *Şəxsin* təsdiq etdikləri redaktə olunmuş for-

mada *İctimaiyyətə açıqlana bilər*. 14.3.6-cı Maddədə nəzərdə tutulan prinsiplər *Azyaşlıya* da tətbiq edilməlidir.

8.3.4 Dinləməni keçirən ekspert qrupunun qərar haqqında müşavirələri qapalı keçirilməlidir.

8.3.5 Azlıq təşkil edənlərin və fərqli qərarların yazılı surətdə səbəbləri qeyd olunmalıdırlar. Çoxluq təşkil edilənlərin qərarı İntizam Komitəsinin qərarı hesab edilməlidir. Komitənin yekun qərarı tarix və imzalar qeyd olunmaqla yazılı olmalıdır.

8.3.6 Komitənin qərarı dinləmə bitəndən sonra mümkün qədər praktiki olan qısa müddət ərzində mübahisənin tərəflərinə, *ÜADA-ya*, müvafiq Beynəlxalq Federasiyaya, Beynəlxalq Olimpiya Komitəsinə, Beynəlxalq Paralimpiya Komitəsinə, şəxsin rezident, vətəndaşı yaxud lisenziya sahibi olduğu ölkə üzrə *Milli Antidopinq Təşkilatına* bildirilməlidir.

## 8.4. *İAM* qarşısında tək dinləmə

*Beynəlxalq* və *Milli* səviyyəli idmançılara qarşı antidopinq qayda pozuntusu ilə əlaqədar işlərə *İdmançının*, AMADA, *ÜADA* və hər ilkin dinləmə keçirən komitənin qərarından apellyasiya qaydasında şikayət vermək hüququ olan *digər Antidopinq Təşkilatının* razılığı ilə ilkin dinləməyə ehtiyac olmadan birbaşa *İAM*-da baxıla bilər.

## 8.5. İntizam Komitəsinin yurisdiksiyası

8.5.1 İntizam Komitəsinin *Beynəlxalq* və *Milli Səviyyəli İdmançılara* qarşı antidopinq qayda pozuntusu ilə əlaqədar mübahisələrə *İdmançının*, nəticə emalına görə məsuliyyət daşıyan *Antidopinq Təşkilatının, ÜADA-nın* və hər hansı ilkin dinləmə keçirən komitənin qərarından apellyasiya qaydasında şikayət vermək hüququ olan *digər Antidopinq Təşkilatının* razılığı ilə ilkin dinləməyə ehtiyac olmadan birbaşa *İAM-da* baxıla bilinən hallar istisna olmaqla, hazırkı AMADA qaydalarına uyğun olaraq ona göndərilən hər hansı məsələdən yaranan mübahisənin bütün hallarını dinləmək və müəyyən etmək səlahiyyətinə malikdir.

8.5.2 İntizam Komitəsinin hazırki AMADA qaydalarına əsasən antidopinq qayda pozuntuları üçün *Sanksiyaları* müəyyən etmək səlahiyyəti var.

8.5.3 İntizam Komitəsi hər zaman bütün tərəflərə ədalətli və qərəzsiz

münasibət göstərməlidir.

8.5.4 İntizam Komitəsinin heç bir yekun qərarı, yaxud İntizam Komitəsi tərəfindən tətbiq edilmiş antidopinq qayda pozuntusu üçün heç bir *Sanksiyalar* hazırki AMADA qaydaları tərəfindən müəyyən edilmiş prosedurlardan çəkilmə, uyğunsuzluq, boşluq yaxud yayınma səbəbi daxil olmaqla, heç bir səbəb üçün *İAM-ın* və Apellyasiya Komitəsindən başqa heç bir məhkəmə, arbitraj, tribunal yaxud digər dinləmə keçirən orqan tərəfindən ləğv edilə, dəyişdirilə yaxud qüvvədən düşmüş elan edilə bilməz.

8.5.5 *Milli Federasiyalar*, müvafiq qeydiyyata alınmış idman təşkilatları, *İdmançılar və İdmançının dəstək heyəti üzvləri* avtomatik olaraq İntizam Komitəsinin müstəsna yurisdiksiyasını tanıyır və qəbul edirlər.

## 8.6 İntizam Komitəsinin icraatı

8.6.1 "İdmanda dopinq vasitələrindən və üsullarından istifadəyə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunun müvafiq maddələrinə uyğun olaraq, Azərbaycan Antidopinq İntizam Komitəsi və onun dinləmə ekspert qrupları öz prosedurlarını nizamlamaq səlahiyyətinə malikdirlər.

8.6.2 AMADA və barəsində iddia edilən şəxsin razılığı olmadığı halda, İntizam Komitəsi tərəfindən baxılan mübahisələr qapalı keçirilir.

8.6.3 AMADA *Şəxsə* qarşı mübahisəni İntizam Komitəsi qarşısında təqdim etməlidir və AMADA tərəfindən tələb olunduqda *Şəxsin* mənsub olduğu *Milli İdman Federasiyası* AMADA-ya yardım etməlidir.

8.6.4 Əleyhinə iddia edilən *Şəxsin* antidopinq qayda pozuntusu iddiasına və nəticə etibarı ilə qoyulan *Sanksiyalara* cavab vemək hüququ var.

8.6.5 Hər hansı tərəf yaxud onun nümayəndəsinin məlumatlandırıldıqlarına baxmayaraq dinləmədə iştirak etməməsi, özünün dinləmə hüququndan imtina etməsi hesab edilir. Sözügedən hüquq ağlabatan səbəblərdən bərpa edilə bilər.

8.6.6 Hər bir tərəf öz məsrəfləri hesabına dinləmədə təmsil edilmək hüququna malikdir.

8.6.7 Komitə tərəfindən zəruri hesab olunan hallarda, hər bir tərəf

dinləmədə tərcüməçi ilə təmin olunmaq hüququna malikdir. Komitə tərcüməçinin kimliyini və xərclər üçün öhdəlikləri müəyyən etməlidir.
8.6.8 Şahid çağırmaq və dindirmək də daxil olmaqla,hər bir tərəfin dinləmədə sübut təqdim etmək hüququ var (şahid ifadələrini telefon vasitəsilə, yazılı bəyannaməni isə faks, elektron poçt və ya başqa vasitələrlə qəbul edilməsi komitənın qərarından asılıdır).

8.6.9 Antidopinq qayda pozuntularına dair faktlar etibarlı üsullarla, o cümlədən etiraflar ilə sübut edilə bilər. Komitənın üçüncü şəxslərin sözləri daxil olmaqla məqbul hesab etdyi sübütları qəbul edə bilər və həmin sübutlara münasib hesab etdiyi dəyər vermək hüququ vardır.
8.6.10 Komitə dinləməni başqa vaxta keçirə və ya təxirə sala bilər.

8.6.11 Komitə tərəflərdən birinin xahişi və ya öz təşəbbüsü ilə dinləmədən əvvəl bir yaxud çox tərəfdən, onun çağırmaq istədiyi şahidlərin siyahısı daxil omaqla, həmin tərəfin dinləmədə təqdim ediləcək əlavə təfərrüatları ona və/və ya digər tərəfə təmin etməyi tələb edə bilər və həmin tərəf bu göstərişə riayət etməlidir.

8.6.12 Əlaqədar *Şəxsin* Komitənin istənilən tələbi yaxud göstərişinə riayət etməməsi halında, Komitə tərəfindən icraat dayandırılmamalı və belə xətalar, qərar qəbul edilərkən nəzərə alına bilər.

8.6.13 Mübahisələrin baxılmasında audio/video yazısı aparıla bilər və AMADA hər hansı bir belə yazıya sahib olmalı və saxlamalıdır.

## 8.7. Maliyyə sanksiyaları

8.7.1 *İdmançı* yaxud digər *Şəxs* antidopinq qayda pozuntusunu törədərsə, AMADA öz qərarı mütənasiblik prinsipinə uyğun olaraq aşağıdakıları seçə bilər:

8.7.1.1 *Diskvalifikasiya* müddətindən asılı olmayaraq, antidopinq qaydasının pozuntusundan irəli gələn xərclərin *İdmançı* yaxud digər *Şəxsin* hesabına ödənilməsi, və/və ya

8.7.1.2 Yalnız *Diskvalifikasiya* üçün müəyyən olunmuş mümkün maksimum müddətin tətbiq edilməsi halında *İdmançını* yaxud digər *Şəxsi* cərimələmək.

8.7.2 Maliyyə sanksiyasının tətbiqi və AMADA-nın xərcləri üçün

təzminatın alınması, tətbiq edilməli *Diskvalifikasiya* yaxud AMADA qaydalarına uyğun olan digər sanksiyanın azaldılması üçün əsas hesab edilə bilməz.

## MADDƏ 9. FƏRDİ İDMAN NÖVLƏRİ NƏTİCƏLƏRİN AVTOMATİK *DİSKVALİFİKASİYASI*

*Fərdi Yarışlarda Yarışma müddətində Test* keçirilməsi ilə əlaqədar antidopinq qayda pozuntusu avtomatik olaraq hər hansı medalların, xalların və mükafatların müsadirə olunması daxil olmaqla, bütün nəticə *Sanksiyalar* ilə həmin *Yarışma müddətində* qazanılmış nəticələrin *Ləğv edilməsinə aparır.*

## MADDƏ 10. FƏRDİ ŞƏXSLƏRƏ QARŞI SANKSİYALAR

### 10.1 Antidopinq qayda pozuntusu baş vermiş *Tədbirin* müddətində Nəticələrin *Ləğv edilməsi*

Tədbir müddətində və ya onunla əlaqədar baş vermiş antidopinq qayda pozutusu, 10.1.1-ci Maddədə qeyd olunan hallar istisna olmaqla, *Tədbir* təşkilatçı orqanının qərarına əsasən *İdmançıların* individual qaydada qazandıqları bütün nəticələrin – medallar, ballar və mükafatlarların – *Ləğv edilməsi* ilə nəticələnə bilər.
*Tədbir* müddətində digər nəticələrin də *Ləğv edilməsi* qərarının qəbul edilməsində nəzərdən keçirilə bilən amillər arasında *İdmançının* antidopinq qayda pozuntusunun ciddiliyi və həmin *İdmançının* digər *Yarışmalarda* da test nəticələrinin mənfi nəticə göstərməsi daxil ola bilər.

10.1.1 *İdmançı* sübut edə bilsə ki, o, pozuntuya görə heç bir *Xəta* yaxud *Səhlənkarlığa* görə məsuliyyət daşımır, *İdmançının* antidopinq qayda pozuntusunun pozuntu baş verdiyi *Yarışmadan* ayrı *Yarışmalardakı* nəticələrinə təsir göstərməsi halı istisna olmaqla, həmin *İdmançının* digər *Yarışmalardakı* fərdi nəticələri *Ləğv edilməməlidir*.

### 10.2 Qadağan edilmiş *Maddənin və Qadağan edilmiş Üsulun* Mövcudluğu, *İstifadəsi* yaxud *İstifadəsinə Cəhd, və ya Sahiblik* nəticəsində *Diskvalifikasiya*

2.1, 2.2 və ya 2.6-cı Maddələrin pozuntusuna görə *Diskvalifikasiya* müddəti aşağıdakı qaydalara uyğun olaraq müəyyən edilməlidir, 10.4, 10.5 və ya 10.6-cı Maddələrə uyğun olaraq Müddətin azaldılması, yaxud dayandırılması halları istisna olmaqla:

10.2.1 *Diskvalifikasiya* müddəti aşağıdakı hallarda dörd il olmalıdır:

10.2.1.1 *İdmançı* yaxud digər *Şəxs* antidopinq qayda pozuntusunun qəsdən törədilmədiyini sübut etməsi halı istisna olmaqla, antidopinq qayda pozuntusu *Xüsusi Maddə* ilə əlaqədar olmadığı zaman.
10.2.1.2 Antidopinq qayda pozuntusu *Xüsusi Maddə* ilə əlaqədar olduğu və AMADA tərəfindən antidopinq qayda pozuntusu qəsdən törədildiyi sübut olunduğu zaman.

10.2.2 10.2.1-ci Maddə tədbiq edilmədikdə, *Diskvalifikasiya* müddəti iki il olmalıdır.

10.2.3 10.2 və 10.3-cü Maddələrdə işlədilmiş "qəsdən" anlayışı qeyri-dürüst *İdmançıları* müəyyən etmək üçün istifadə edilir. Bu səbəbdən, anlayış tələb edir ki, *İdmançı*, yaxud digər *Şəxs* antidopinq qayda pozuntusunu əhatə edən hərəkətləri etsin, yaxud həmin hərəkətlərin antidopinq qayda pozuntusunu təşkil etməsi barədə və ya pozuntu ilə nəticələnə bilməsi barədə məlumatı olsun və o, aydın şəkildə həmin riskə əhəmiyyət verməsin. Yalnız *Yarışma müddətində Qadağan edilmiş Maddənin* mövcudluğuna görə *Qeyri-əlverişli Analiz Nəticəsində* nəticələnən antidopinq qayda pozuntusu təkzib oluna bilən şəkildə "qəsdən" hesab edilməməldirir, o halda ki maddə *Xüsusi Maddədir və İdmançı* sübut edə bilsin ki, *Qadağan edilmiş Maddə Yarışmadan kənar müddətdə* istifadə edilib. Yalnız *Yarışma müddətində Qadağan edilmiş Maddənin* mövcudluğuna görə *Qeyri-əlverişli Analiz Nəticəsində* nəticələnən antidopinq qayda pozuntusu "qəsdən" hesab edilməməldirir, o halda ki maddə *Xüsusi Maddə* deyil və *İdmançı* sübut edə bilsin ki, *Qadağan edilmiş Maddə Yarışmadan kənar müddətdə* idman məhsuldarlığı ilə əlaqəsi olmayan kontekstdə istifadə edilib.

## 10.3 Digər Antidopinq Qayda Pozuntularına görə *Diskvalifikasiya*

10.5 və 10.6-cı maddələrin tətbiq olunduğu hallar istisna olmaqla, 10.2-ci maddədə təsvir olunmuş antidopinq qayda pozuntularından fərqli pozuntular üçün *Diskvalifikasiya* müddəti aşağıdakı kimi olmalıdır:

10.3.1 2.3-cü və 2.5-ci Maddələrin pozuntularına görə *Diskvalifikasiya* müddəti dörd il olmalıdır. *Nümunə* toplanmasını təqdim etməyən İdmançı antidopinq qayda pozuntusunun (10.2.3-cü Maddədə müəyyən edildiyi kimi) qəsdən olmamasını sübut edə bilməsi halında *Diskvalifikasiya* Müddəti iki il təşkil etməlidir.

10.3.2 2.4-cü maddənin pozuntularına görə *Diskvalifikasiya* müddəti iki il olmalıdır, *İdmançının Xəta* dərəcəsindən asılı olaraq minimum bir ilə qədər azaltma imkanı ilə. Bu Maddədəki iki və bir il *Diskvalifikasiya* müddəti arasındakı seçim imkanı *İdmançının* son anda məkan məlumatını dəyişdirmək və sairə kimi davranışının *Testdən* yayınmaq kimi ciddi şübhə yaratdığı hallarda mümkün deyil.

10.3.3 2.7-ci və 2.8-ci Maddələrin pozuntusu üçün *Diskvalifikasiya* müddəti pozuntunun ciddiliyindən asılı olaraq minimum dörd ildən ömürlük *Diskvalifikasiyaya* qədər olmalıdır. *Azyaşlıların* cəlb olunması ilə 2.7-ci və 2.8-ci Maddələrinin pozuntusu xüsusilə ciddi pozuntu hesab edilməli və əgər *İdmançıya Dəstək Heyətinin* üzvü tərəfindən törədilibsə, *Xüsusi Maddədən* fərqli pozuntular üçün həmin heyət üzvünün ömürlük *Diskvalifikasiya* ilə nəticələnməlidir. Əlavə olaraq, qeyri-idman qanunları və normativləri pozan 2.7-ci və 2.8-ci Maddələrinin əhəmiyyətli pozuntuları barədə məlumat səlahiyyətli inzibati, peşəkar yaxud ədliyyə orqanlarına bildirilməlidir.

10.3.4 2.9-cu Maddənin pozuntularına görə pozuntunun ciddiliyindən asılı olaraq *Diskvalifikasiya* müddəti minimum iki ildən məksimum dörd ilə qədər təşkil etməlidir.

10.3.5 2. 10-cu Maddənin pozuntularına görə *Diskvalifikasiya* müddəti iki il olmalıdır, *İdmançının* və ya *Şəxsin Xəta* dərəcəsindən və işin digər təfsilatlarından asılı olaraq minimum bir ilə qədər azaltma imkanı ilə.

## 10.4 *Xəta* yaxud *Səhlənkarlıq* olmadıqda *Diskvalifikasiya* müddətinin ləğvi

Əgər *Sanksiya* tətbiq edilmiş *İdmançı* və ya digər *Şəxs* heç bir *Xətası* olmadığını və ya *Səhlənkarlığı* olmadığını sübut eləsə, *Diskvalifikasiya* müddəti aradan qaldırılmalıdır.

## 10.5 *Qeyri-əhəmiyyətli Xəta* yaxud *Səhlənkarlıq* əsasında *Diskvalifikasiya* müddətinin azaldılması

10.5.1 2.1, 2.2 və ya 2.6-cı Maddələrin pozuntularına görə *Xüsusi Maddələr* və *Kontaminasiya olunmuş Məhsullara* görə *Sanksiya* müddətlərinin azaldılması

10.5.1.1 *Xüsusi Maddələr*

Antidopinq qayda pozuntusu *Xüsusi Maddələri* əhatə edirsə və *İdmançı* və ya digər *Şəxs Qeyri-əhəmiyyətli Xəta* yaxud *Səhlənkarlıq* halını sübut edirsə, *Diskvalifikasiya* müddəti *İdmançı* və ya *Şəxsin Xəta* dərəcəsindən asılı olaraq minimum töhmət və heç bir *Diskvalifikasiya* müddətindən, maksimum isə iki illik *Diskvalifikasiya* müddətindən ibarət olacaqdır.

10.5.1.2 *Kontaminasiya olunmuş Məhsullar*

*İdmançı* və ya digər *Şəxs Qeyri-əhəmiyyətli Xəta* yaxud *Səhlənkarlıq* halını sübut edirsə və aşkarlanmış *Qadağan edilmiş Maddə Kontaminasiya olunmuş Məhsuldan* nəticələnibsə, *Diskvalifikasiya* müddəti *İdmançı* və ya *Şəxsin Xəta* dərəcəsindən asılı olaraq minimum töhmət və heç bir *Diskvalifikasiya* müddətindən, maksimum isə iki illik *Diskvalifikasiya* müddətindən ibarət olacaqdır.

10.5.2 10.5.1-ci Maddənin tətbiqindən kənarda *Qeyri-əhəmiyyətli Xəta* yaxud *Səhlənkarlığın* tətbiqi
*İdmançı* yaxud digər *Şəxs* 10.5.1-ci maddənin tətbiq olunmadığı fərdi iş zamanı özünün *Qeyri-əhəmiyyətli Xəta* yaxud *Səhlənkarlıq* törətdiyini sübut etsə, 10.6-cı Maddəyə uyğun olaraq *Sanksiya* müddətinin daha da azaldılması yaxud ləğv olunmasından rəhbər tutaraq, digər halda tətbiq oluna biləcək *Diskvalifikasiya* müddəti *İdmançının* yaxud digər *Şəxsin Xətasının* dərəcəsinə əsasən azaldıla bilər, lakin *Diskalifikasiyanın* azaldılan müddəti digər hallarda tətbiq olunacaq *Diskvalifikasiya* müddətinin yarısından az ola bilməz. Digər halda tətbiq olunacaq *Diskvalifikasiya* müddəti ömürlük Sanksiyadırsa, hazırki maddəyə uyğun olaraq azaldılmış müddət səkkiz ildən az ola bilməz.

## 10.6 *Xətalardan* başqa digər səbəblərə görə *Diskvalifikasiya* və ya *Sanksiya* müddətinin Ləğv edilməsi, Azaldılması və ya Müvəqqəti dayandırılması.

10.6.1 Antidopinq qayda pozuntusunun aşkarlanmasında və ya təyin edilməsində *Əhəmiyyətli Yardım*

10.6.1.1 AMADA, 13-cü Maddəyə əsasən yekun apellyasiya qərarı və ya apellyasiya müddətinin bitməsindən əvvəl, *İdmançı* yaxud digər *Şəxsin Antidoping Təşkilatına,* hüquq mühafizə orqanlarına və peşəkar intizam orqanına aşağıdakılarda *nəticələnən Əhəmiyyətli Yardım* göstərdiyi halda üzərində nəticələr emalı səlahiyyətinə malik olduğu fərdi iş icraatında qoyulmuş *Diskvalifikasiya* müddətinin hissəsini müvəqqəti dayandıra bilər: (i) *Antidoping Təşkilatı* digər *Şəxs* tərəfindən antidopinq qayda pozuntusunu aşkarlayır yaxud irəli sürür, yaxud (ii) hüquq mühafizə orqanı yaxud intizam orqanı digər *Şəxs* tərəfindən törədilmiş cinayət yaxud peşəkar qaydaların pozuntusunu aşkarlayır yaxud irəli sürür və *Əhəmiyyətli Yardım* təmin edən *Şəxs* tərəfindən təmin edilmiş məlumat AMADA-ya açıqlanılır. AMADA, yekun apellyasiya qərarı və ya apellyasiya müddətinin bitməsindən sonra *ÜADA* və əlaqəli *Beynəlxalq Federasiyanın* icazəsi ilə digər halda tətbiq oluna biləcək *Diskvalifikasiya* müddətinin yalnız bir hissəsini müvəqqəti dayandıra bilər. Digər halda tətbiq oluna biləcək *Diskvalifikasiya* müddətinin müvəqqəti dayandırılmasının həddi *İdmançı* yaxud digər *Şəxs* tərəfindən törədilmiş antidopinq qayda pozuntusunun ciddiliyindən və *İdmançı* yaxud digər *Şəxs* tərəfindən edilən *Əhəmiyyətli Yardımın* idmanda dopinqin aradan qaldırılması səyinə təsirindən asılıdır. Digər halda tətbiq oluna biləcək *Diskvalifikasiya* müddətinin dörddə üçündən artıq müddət müvəqqəti olaraq dayandırıla bilinməz. Digər halda tətbiq oluna biləcək *Diskvalifikasiya* müddəti ömürlük *Sanksiyadırsa,* hazırki maddə əsasında müvəqqəti dayandırılmayan müddət səkkiz ildən az ola bilməz. *İdmançı* yaxud digər *Şəxs Diskvalifikasiya* müddətinin müvəqqəti dayandırılmasına əsaslanan əməkdaşlığı və tam və mötəbər *Əhəmiyyətli Yardım* təmin etməyi davam edə bilməsə, AMADA orijinal *Diskvalifikasiya* müddətini bərpa etməlidir. AMADA-nın *Diskvalifikasiyanın* müvəqqəti dayandırılmış müddətini bərpa etmə və ya bərpa etməmək qərarından 13-

cü Maddəyə əsasən apellyasiya qaydasında şikayət vermək hüququna malik *Şəxs* tərəfindən apellyasiyaya müraciət edilə bilər.

10.6.1.2 *İdmançıları* və digər *Şəxsləri Antidopinq Təşkilatına Əhəmiyyətli Yardım* göstərilməsini şövqləndirmək üçün AMADA, yaxud *İdmançı* və ya digər *Şəxsin* sorğusuna əsasən, *ÜADA* tərəfindən nəticələrin emalı zamanı və ya 13-cü Maddəyə əsasən yekun apellyasiya qərarını verilәndən sonraki hallar daxil olmaqla, digər hallarda tətbiq oluna biləcək *Diskvalifikasiyanı* və yaxud digər *Sanksiyaları* dayandırıla bilər. Müstəsna hallarda, *ÜADA Əhəmiyyətli Yardım* edilməsinə görə *İdmançıların* digər hallarda tətbiq oluna biləcək *Diskvafilikasiya* və yaxud digər *Sanksiyaların* bu Maddədə qeyd olunan qaydadan daha çox müddətini və yaxud tamamilə dayandıra bilər və/və ya pul mükafatını yaxud cərimə ödənişlərini və ya xərclərini qaytara bilər. *ÜADA-nın* təsdiqi, bu Maddədə göstərilmiş qaydada *sanksiyanın* təkrar bərpasına səbəb ola bilər. 13-cü Maddədə müəyyən edildiyi qaydaya baxmayaraq, *ÜADA-nın* bu qərarından hər hansı digər *Antidopinq Təşkilatı* tərəfindən apellyasiya qaydasında şikayət verilə bilməz.

10.6.1.3 Əgər AMADA *Əhəmiyyətli Yardım* göstərilməsi nəticəsində *Sanksiyanın* hər hansı bir hissəsini dayandırarsa, o zaman digər *Antidopinq Təşkilatlarına,* 14.2-ci Maddədə qeyd olunmuş 13.2.3-cü Maddəyə uyğun olaraq apellyasiya qaydasında şikayət vermək hüququ saxlanılmaqla, səbəbi qeyd edilən bildiriş verməlidir. Xüsusi hallarda, ÜADA antidopinq məqsədlərinə uyğun olaraq AMADA-ya, *Əhəmiyyətli Yardım* razılaşmaların məhdudlaşdırılması və yaxud təxirə salınmasına dair məxfilik razılaşmalarını imzalamağa səlahiyyət verə bilər.

10.6.2 Digər dəlillərin mövcud olmadığı halda antidopinq qayda pozuntusunun etirafı
*İdmançı* və ya digər *Şəxs* könüllü olaraq *Nümunə* toplanması bildirişindən əvvəl və digər heç bir halda antidopinq qayda pozulmasına dair fakt olmadıqda (yaxud 2.1-ci Maddədən başqa digər antidopinq qayda pozuntuları halında və 7-ci Maddəyə əsasən ilkin qayda pozuntusu bildirişini almazdan əvvəl), pozuntunu etiraf etsə, onda bu verilən *Diskvalifikasiya Sanksiyasının* azaldılması ilə nəticələnə bilər, ancaq bu azaldılma halı *Diskvalifikasiyanın* yarısından artıq olmamalıdır.

10.6.3 Maddə 10.2.1 və ya Maddə 10.3.1-də göstərilmiş *Sanksiyalarla* üz üzə qaldıqda antidopinq qaydal pozuntusuna dair *Dərhal Etiraf*
10.2.1 və ya 10.3.1-ci Maddələr əsasında dörd illik *Sanksiyarla* potensial olaraq üzləşə bilən *İdmançı* və ya digər *Şəxs* AMADA tərəfindən iddia edildikdən sonra, dərhal sözügedən antidopinq qayda pozuntusunu etiraf etməklə, və *ÜADA* və AMADA-nın hər ikisinin təsdiqi və qərarına əsasən pozuntunun ciddiliyindən və *İdmançı* və ya digər *Şəxsin Xətasının* dərəcəsindən asılı olaraq *Diskvalifikasiya* müddətini minimum iki ilə qədər azalda bilərlər.

10.6.4 Sanksiyaların azaldılması üçün bir neçə əsaslandırmanın tətbiqi
Əgər *İdmançı* və ya digər *Şəxs* 10.4, 10.5 və ya 10.6-cı Maddələrrin birdən artıq müddəaları üzrə *Sanksiyanın* azaldılmasına hüquq qazansa, 10.6-cı maddə üzrə *Sanksiyanın* hər hansı azaldılması yaxud dayandırılmasının tətbiqindən əvvəl 10.2, 10.3, 10.4 və 10.5-ci maddələrə əsasən digər hallarda tətbiq olunmalı *Diskvalifikasiya* müddəti müəyyən edilməlidir. Əgər *İdmançı* yaxud digər *Şəxs* 10.6-cı maddə üzrə *Diskvalifikasiya* müddətinin azaldılması yaxud dayandırılması üçün hüququnu sübut edirsə, *Diskvalifikasiya* müddəti azaldıla yaxud dayandırıla bilər, digər halda tətbiq edilə biləcək müddətin dörddə birindən aşağı olmamaq şərtilə.

## 10.7 Çoxsaylı pozuntular

10.7.1 *İdmançı* və ya digər *Şəxsin* ikinci antidopinq qayda pozuntusuna görə *Diskvalifikasiya* müddəti aşağıdakılardan çox olmalıdır:

(a) altı aydan:

(b) 10.6-cı Maddə üzrə *Sanksiya* müddətinin azaldılmasını nəzərə almamaqla, ilk antidopinq qayda pozuntusu üçün tətbiq edilmiş *Diskvalifikasiya* müddətinin yarısından; yaxud

(c) 10.6-cı Maddə üzrə *Sanksiya* müddətinin azaldılmasını nəzərə almamaqla, ilk antidopinq qayda pozuntusu kimi tətbiq edilmiş digər halda ikinci antidopinq qayda pozuntusu üçün tətbiq olunmuş *Diskvalifikasiya* müddətinin iki qatı qədər.

Yuxarıda müəyyən edilən *Diskvalifikasiya Sanksiyası* sonradan 10.6-cı Maddənin tətbiq edilməsi ilə daha da azaldıla bilər.

10.7.2 Üçüncü antidopinq qayda pozuntusu hər zaman ömürlük *Diskvalifikasiya* müddəti ilə nəticələnəcək, üçüncü pozuntunun 10.4 yaxud 10.5-ci Maddələri üzrə *Diskvalifikasiya* müddətinin ləğvi yaxud azaldılması üçün şərti yerinə yetirdiyi yaxud 2.4-cü maddənin pozuntusu ilə əlaqədar

olması halları istisna olmaqla. Sözügedən xüsusi hallarda, *Diskvalifikasiya* müddəti səkkiz ildən başlayaraq ömürlük *Diskvalifikasiya* müddətinə qədər olmalıdır.

10.7.3 *İdmançı* yaxud digər *Şəxsin Xəta* yaxud *Səhlənkarlığı* olmadığı sübut edilmiş antidoping qayda pozuntusu, hazırki Maddənin məqsədləri üçün öncəki pozuntu sayılmır.

### 10.7.4 Müəyyən Potensial Çoxsaylı Pozuntular üçün Əlavə Qaydalar

10.7.4.1 10.7-ci Maddə üzrə *Sanksiyaların* tətbiqi məqsədləri üçün, antidoping qayda pozuntusu *İdmançı* yaxud *Şəxsin* 7-ci Maddəyə müvafiq olaraq AMADA-dan bildiriş alandan, yaxud AMADA tərəfindən ilk antidoping qayda pozuntusu barədə ağlabatan səylər etdiyindən sonra ikinci antidoping qayda pozuntusunu törətdiyi, AMADA tərəfindən sübut edilə bilindiyi hallarda ikinci pozuntu hesab ediləcək. AMADA bunu sübut edə bilməzsə, pozuntular birlikdə vahid ilk pozuntu hesab edilməlidir və tətbiq edilən *Sanksiya* daha ağır *Sanksiya* tələb edən pozuntu üçün tətbiq ediləcək.

10.7.4.2 Əgər ilk antidoping qayda pozuntusu üçün *Sanskiyanı* tətbiq edəndən sonra, AMADA ilk pozuntuya aid bildirişdən əvvəl *İdmançı* yaxud *Şəxs* tərəfindən törədilmiş antidoping qayda pozuntusu ilə əlaqədar faktları aşkarlasa, AMADA hər iki pozuntuya eyni zamanda baxılmalı olduğu halda tətbiq olunmalı *Sanksiyaya* əsaslanaraq əlavə *Sanksiya* tətbiq etməlidir. 10.8-ci Maddəyə əsasən, öncəki antidoping qayda pozuntusu vaxtında baş tutmuş bütün *Yarışmaların* nəticələri *Ləğv olunmalıdır.*

### 10.7.5 On illik dövrdə Çoxsaylı Antidoping Qayda Pozuntuları

10.7-ci Maddənin məqsədləri üçün, çoxsaylı pozuntular hesab edilmək üçün hər bir qntidoping qayda pozuntusu eyni on illik dövr ərzində baş verməlidir.

## 10.8 *Nümunə* toplanması yaxud Antidopinq Qayda Pozuntusunun törədilməsinin ardınca gələn Yarışmaların nəticələrinin *Ləğv edilməsi*

9-cu Maddəyə əsasən gedişi zamanı müsbət *Nümunə* aşkarlanmış *Yarışmanın* nəticələrinin avtomatik *Ləğv edilməsinə* əlavə olaraq, müsbət *Nümunə* toplandığı yaxud digər antidopinq qayda pozuntusu törədildiyi tarixdən bəri *İdmançının* əldə etdiyi bütün digər yarışma nəticələri, *Şərti Kənarlanşırılma* yaxud *Diskvalifikasiya* müddətinin başlanması vasitəsilə, ədalət prinsipinin başqa cür tələb etmədiyi halda, hər hansı medalların, xalların və mükafatların müsadirəsi daxil olmaqla bütün nəticələr *Sanksiyalar* tətbiq edilməklə *Diskvalifikasiya* edilməlidir.

## 10.9 *İAM* tərəfindən təyin edilmiş xərclərin və müsadirə edilmiş mükafat pullarının ayrılması

İAM tərəfindən təyin edilmiş xərclərin və müsadirə edilmiş mükafat pullarının geriyə ödənilməsi üçün prioritet aşağıda qeyd edilən qaydada həyata keçir: birinci, *İAM* tərəfindən təyin edilmiş xərclərin ödənilməsi; əgər müvafiq Beynəlxalq Federasiyanın qaydalarında müəyyən olunubsa, müsadirə edilmiş mükafat pullarının digər *İdmançılara* ayrılması; və üçüncü, AMADA-nın xərclərinin ödənilməsi.

## 10.10 *Diskvalifikasiya* müddətin başlanması

Aşağıdakı hallar istisna olmaqla, *Diskvalifikasiya* müddəti *Diskvalifikasiyanı* tətbiq etmiş yekun dinləmə qərarının tarixindən yaxud, dinləmə hüququndan imtina edilmişsə və ya heç bir dinləmə baş tutmamışsa, *Diskvalifikasiyanın* qəbul edildiyi yaxud digər qaydada tətbiq edildiyi tarixdən başlanmalıdır.

### 10.10.1 İdmançı yaxud digər Şəxsə aid olmayan səbəblərdən baş verən gecikmələr

Dinləmə prosesində və ya *Dopinqə Nəzarətin İdmançı* yaxud digər *Şəxsə* aid olmayan digər aspektlərində əhəmiyyətli gecikmələr halında, AMADA *Nümunə* toplanması yaxud digər antidopinq qayda pozuntusunun son baş verdiyi tarixi başlanğıc nöqtəsi kimi qəbul edərək *Diskvalifikasiya* müddətini daha erkən tarixdən başlaya bilər. Retroaktiv *Diskvalifikasiya* daxil olmaqla, *Diskvalifikasiya* müddətində nail olunmuş bütün yarışma nəticələri *Ləğv edilir.*

### 10.10.2 Vaxtında Etiraf

AMADA tərəfindən antidopinq qayda pozuntusuna dair iddia edilmiş *İdmançı* yaxud digər *Şəxs* dərhal antidopinq qayda pozuntusunu etiraf edərsə (hər bir halda bu *İdmançı* üçün onun yenə yarışdığından əvvəlki zaman deməkdir), *Diskvalifikasiya* müddəti ən erkən olaraq *Nümunənin* toplanması tarixindən və ya digər antidopinq qayda pozuntusunun son baş verdiyi tarixdən başlaya bilər. Buna baxmayaraq, hazırki Maddənin tətbiq edildiyi zaman, hər bir halda *İdmançı* yaxud digər *Şəxs* özünün *Sanksiyanı* qəbul etdiyi tarixdən, *Sanksiyanı* tətbiq edən dinləmə üzrə qərarının tarixindən, yaxud *Sanksiyanın* digər hallarda tətbiq ediləcəyi tarixdən başlayan *Diskvalifikasiya* müddətinin ən azı yarısını çəkməlidir. 10.6.3-cü Maddəyə əsasən *Diskvalifikasiya* müddətinin azaldıldığı təqdirdə, hazırki Maddə tətbiq edilmir.

### 10.10.3 Çəkilmiş *Şərti Kənarlaşdırılma* yaxud *Diskvalifikasiya* müddətinin nəzərə alınması

10.10.3.1 Əgər *Şərti Kənarlaşdırılma* tətbiq edilmişsə və *İdmançı* yaxud digər *Şəxs* tərəfindən riayət edilirsə, onda *İdmançı* yaxud digər *Şəxsə* sonda tətbiq ediləcək *Diskvalifikasiya* müddətində belə *Şərti Kənarlaşdırılma* nəzərə alınmalıdır. Əgər *Diskvalifikasiya* müddəti sonradan apellyasiya qaydasında verilmiş qərara əsasən çəkilibsə, onda həmin müddət *İdmançı* yaxud digər Şəxsə sonda apellyasiya nəticəsində tətbiq edilə bilənəcək  hər hansı *Diskvalifikasiya* müddətdə nəzərə alınmalıdır.

10.10.3.2 Əgər *İdmançı* yaxud digər *Şəxs* AMADA-nın *Şərti Kənarlaşdırılmasını* könüllü olaraq yazılı şəkildə qəbul edirsə və sonradan ona riayət edirsə, onda *İdmançı* yaxud digər *Şəxsə* sonda tətbiq ediləcək *Diskvalifikasiya* müddətində belə könüllü *Şərti Kənarlaşdırılma* nəzərə alınmalıdır. *İdmançı* yaxud digər *Şəxsin Şərti Kənarlaşdırılmanı* könüllü qəbul etməsi barədə sənədin surəti 14.1-ci Maddəsi üzrə antidopinq qayda pozuntusu barədə iddia bildirişini almaq hüququna malik hər bir tərəfə dərhal təmin edilməlidir.

10.10.3.3 *İdmançının* yarışmamağı seçməsindən, yaxud komandası tərəfindən kənarlaşdırılmasından asılı olmayaraq, *Şərti Kənarlaşdırılma* yaxud könüllü *Şərti Kənarlaşdırılmanın*

qüvvəyə minmə tarixindən əvvəl heç bir müddət *Diskvalifikasiya* müddətində nəzərə alınmamalıdır.

10.10.3.4 Komanda idman növlərində komandaya *Diskvalifikasiya* müddəti tətbiq ediləndə, ədalət prinsipi başqa cür tələb etmirsə, həmin müddət *Diskvalifikasiya* müddətini tətbiq edən yekun dinləmə qərarının tarixində yaxud, dinləmə hüququndan imtina ediləndə, *Diskvalifikasiyanın* qəbul edildiyi yaxud digər hallarda tətbiq ediləcəyi tarixdən başlayır. Komandanın (ona tətbiq edilmiş və ya könüllü qəbul edilmiş) hər hansı Şərti *Kənarlaşdırılma* müddəti çəkilməli cəmi *Diskvalifikasiya* müddətində nəzərə alınır.

## 10.11 *Diskvalifikasiya* zamanı status

### 10.11.1 *Diskvalifikasiya* zamanı İştiraka qarşı qadağan

*Diskvalifikasiya* edilmiş heç bir *İdmançı* yaxud digər *Şəxs Diskvalifikasiya* müddətində heç bir qismdə İmzalayan tərəf, *İmzalayan* tərəfin üzv təşkilatı, yaxud *İmzalayan* tərəfin üzv təşkilatının klubu və ya digər təşkilatı tərəfindən icazə verilmiş yaxud təşkil edilmiş, *Yarışma* və ya (icazəli antidopinq təhsili yaxud reabilitasiya proqramlarından başqa) fəaliyyətdə, yaxud hər hansı peşəkar liqa və ya hər hansı beynəlxalq və ya milli səviyyəli *Tədbirdə,* yaxud hər hansı elitar və ya dövlət agentliyi tərəfindən maliyyələşdirilən milli səviyyəli idman tədbirində iştirak edə bilməz.

Dörd ildən artıq *Diskvalifikasiya* müddətinə *Sanksiya* olunmuş *İdmançı* yaxud digər *Şəxs*, dörd illik *Diskvalifikasiya* müddəti bitəndən sonra *Məcəlləni İmzalayan* tərəf, yaxud *Məcəlləni İmzalayan* tərəfin üzvü tərəfindən icazə verilməmiş və başqa cür yurisdiksiyası altında olmayan yerli idman tədbirlərində iştirak edə bilər, lakin yalnız o şərtlə ki, yerli idmanda iştirak sözügedən *İdmançı* yaxud digər *Şəxs* birbaşa və ya dolayısı ilə milli çempionatda, yaxud *Beynəlxalq Tədbirdə* iştirak etməyə imkan vermir və sözügedən *İdmançı* yaxud digər *Şəxsin Azyaşlılarla* hər hansı bir qismdə işləməsini nəzərdə tutmur.

*Diskvalifikasiya* müddəti tətbiq edilmiş *İdmançı* yaxud digər *Şəxs Test* keçirilməsinə məruz qalmalıdır.

### 10.11.2 Məşqlərə qayıdış

10.11.1-ci Maddəyə istisna kimi, *İdmançı* aşağıda qeyd edilənlərin ən qısa zamanı komanda ilə məşq üçün yaxud klubun və ya AMADA-nın üzv

təşkilatının, üzv təşkilatının obyektlərindən istifadə üçün qayıda bilər: (1) *İdmançının Diskvalifikasiya* müddətinin son iki ayı yaxud (2) tətbiq edilmiş *Diskvalifikasiya* müddətinin son dörddə biri.

### 10.11.3 *Diskvalifikasiya* zamanı iştiraka qarşı qadağanın pozulması

*Diskvalifikasiya* edilmiş *İdmançı* yaxud digər *Şəxs* 10.11.1-ci Maddədə təsvir edilən *Diskvalifikasiya* zamanı iştiraka qarşı qadağanı pozarsa, həmin iştirakın nəticələri *Ləğv edilməlidir* və orijinal *Diskvalifikasiya* müddətinin sonuna, ona bərabər həcmdə yeni *Diskvalifikasiya* müddəti əlavə edilir. Yeni *Diskvalifikasiya* müddəti *İdmançı* yaxud digər *Şəxsin Xəta* səviyyəsi və işin digər təfərrüatları əsasında həll edilir. *İdmançı* yaxud digər *Şəxs* tərəfindən iştiraka qarşı qadağanın pozulmasının müəyyən edilməsi nəticələrin emalının orijinal *Diskvalifikasiya* müddətinin tətbiqinə səbəb olan *Antidopinq Təşkilatı* tərəfindən edilməlidir. Bu qərardan 13-cü maddəyə əsasən apellyasiya qaydasında şikayət verilə bilər.
*İdmançıya Dəstək Heyətinin* üzvü yaxud digər *Şəxs Şəxsə Diskvalifikasiya* zamanı iştiraka qarşı qadağanı pozursa, AMADA belə yardıma görə 2.9-cu Maddəsinin pozuntusuna görə sanksiyalar tətbiq etməldir.

### 10.11.4 *Diskvalifikasiya* zamanı maliyyə dəstəyinin dayandırılması

Əlavə olaraq, 10.4 yaxud 10.5-ci maddələrdə təsvir edildiyi kimi azaldılmış sanksiyanı əhatə etməyən hər hansı antidopinq qayda pozuntusuna görə, həmin Şəxs tərəfindən alınan idmanla bağlı maliyyə dəstəyi, yaxud digər idmanla əlaqəli müavinətlər qismən və ya tamamilə AMADA, Azərbaycan Hökuməti və Milli Federasiya tərəfindən dayandırılacaq.

### 10.12 Sanksiyanın avtomatik nəşri

14.3-cü Maddəyə əsasən, hər sanksiyanın məcburi hissəsi avtomatik nəşri daxil etməlidir.

## MADDƏ 11. KOMANDALAR ÜÇÜN SANKSIYALAR

### 11.1 *Komanda idman növündə Test*

*Komanda idman növündə* komandanın birdən artıq üzvü *Tədbir* ilə əlaqədar olaraq 7-ci Maddəyə əsasən antidopinq qayda pozuntusu barədə bildiriş alıbsa, *Tədbir* üçün təşkilatçı qurum komanda üçün *Tədbir Müddətində* müvafiq *Məqsədli Test* keçirilməsi keçirilməlidir.

### 11.2 *Komanda idman növü üçün Sanksiyalar*

*Komanda idman növündə* komandanın ikidən artıq üzvünün *Tədbir Müddətində* antidopinq qayda pozuntusu törətdikləri aşkarlansa, *Tədbir* üçün təşkilatçı qurum antidopinq qayda pozuntusunu törətmiş fərdi *İdmançılara* tətbiq edilən *Sanksiyalara* əlavə olaraq komanda üzərində müvafiq *Sanksiya* (məs., xalların itirilməsi, *Yarışma* yaxud *Tədbirdən Diskvalifikasiya* və ya başqa sanksiya) tətbiq etməlidir.

### 11.3 *Tədbirin* təşkilatçı qurumu *Komanda idman növləri* üçün daha sərt *sanksiyalar* qoya bilər

*Tədbir* üçün təşkilatçı qurum *Tədbirin* məqsədləri üçün *Komanda idman növlərinə* 11.2-ci Maddədəkindən daha sərt *Sanksiyalar* müəyyən edən *Tədbir* qaydaları yaratmağı seçə bilər.

## MADDƏ 12. İDMAN ORQANLARI TƏRƏFİNDƏN ÖDƏNİLMƏLİ OLAN SANKSİYALAR VƏ XƏRCLƏR

12.1 AMADA müvafiq səlahiyyətli dövlət qurumlarına hazırki Antidopinq Qaydalarına riayət etməyən *Milli Federasiyalara* edilən maliyyə və qeyri-maliyyə dəstəyi qismən və ya tamamilə dayandırmağı tələb etmək səlahiyyətinə malikdir.

12.2 *Milli Federasiyalar* onlarla əlaqəli *İdmançı* yaxud digər *Şəxs* tərəfindən törədilmiş hazırki antidopinq qaydal pozuntusu ilə əlaqədar (laboratoriya xərcləri, dinləmə və səyahət xərcləri daxil olmaqla, lakin onlarla məhdudlaşdırılmayan) bütün xərcləri AMADA-ya geri ödəmək öhdəliyini daşıyırlar.

12.3 AMADA Azərbaycan *Milli Olimpiya Komitəsindən Milli Federasiyalara* qarşı tanınma, onların rəsmilərinin və *İdmançılarının* Beynəlxalq Tədbirlərdə iştirak hüquqları və aşağıdaklara əsaslara istinad edərək, cərimələr ilə əlaqədar əlavə intizam tədbirləri görməyi tələb etməyi seçə bilər:

12.3.1 12 aylıq dövr ərzində *Milli Federasiya* ilə əlaqəli *İdmançılar* yaxud digər *Şəxslər* tərəfindən hazırki Antidopinq Qaydalarının (2.4-cü maddə ilə bağlı pozuntular istisna olmaqla) dörd yaxud daha çox pozuntusu törədilib.

12.3.2 *Milli Federasiyadan* olan birdən çox *İdmançı* yaxud digər *Şəxs* tərəfindən *Beynəlxalq Tədbir* zamanı antidopinq qayda pozuntusu törədilib.

12.3.3 *Milli Federasiya* AMADA-dan *İdmançının* məkanı barədə məlumat tələbi aldıqdan sonra AMADA-ya bu barədə lazımi qaydada məlumat təqdim etməyib.

## 12.4 Milli idman təşkilatlarının/federasiyaların rolları və məsuliyyətləri

12.4.1 AMADA-nın muxtariyyətinə hörmət etmək və onun əməliyyat qərarları yaxud fəaliyyətinə müdaxilə etməmək.

12.4.2 Öz tabeçiliyində olan klublar və oxşar qurumlardan antidopinq qayda pozuntusuna şübhələr yaxud digər əlaqədar məlumat barədə AMADA-ya hesabat verməyi və təhqiqat aparmaq səlahiyyəti olan hər hansı *Antidopinq Təşkilatınının* apardığı təhqiqatlar ilə əməkdaşlıq etməyi tələb etmək.

12.4.3 Özü yaxud ona tabe təşkilat tərəfindən sponsorluq edilən *Tədbirdə* test keçirilməsi otağının yaradılması daxil olmaqla təhqiqatnın həyata keçrilməsi məqsədilə AMADA ilə əməkdaşlıq etmək. AMADA-nın tələbi ilə *Tədbirin* miqyasına müvafiq sayda *Çaperon* təmin etmək.

12.4.4 AMADA-nın *Qeydiyyata alınmış Test Qrupunun* hissəsi olan *İdmançıların* özlərinin Məkan Məlumatlarının təqdim etmələrinə əmin olmaq kimi müvafiq məlumat çatdırılması və digər dəstək tədbirlərini icra etmək.

12.4.5 Beynəlxalq Federasiyanın *Qeydiyyata alınmış Test Qrupunda* qeyd olunmuş hər hansı *İdmançılar* barədə AMADA-nı məlumatlandırmaq.

12.4.6 *Azyaşılı* olan *İdmançı* ilə əlaqədar, valideyn səlahiyyətlərinə məxsus *Şəxs* və *İdmançının* özündən *Test* keçirilməsinə məruz edilməyə yazılı icazə əldə etmək və valideyn səlahiyyətlərinə məxsus *Şəxs* və *İdmançıdan Test* keçirilməsinə məruz edilməyə yazılı icazənin əldə edilməsi barədə AMADA-ya hesabat vermək.

12.4.7 *İdmançının Dəstək Heyətinin* üzvü yaxud digər *Şəxslərin* hər bir dopinq halında bağlılığının araşdırılması daxil olmaqla, öz yursidiksiyası əhatəsində bütün potensial antidopinq qayda pozuntuları barədə AMADA-ya hesabat vermək, və həmçinin, *Azyaşlı* yaxud bir və ya çox *İdmançılara* yardım göstərən *İdmançılara Dəstək Heyəti* üzvü ilə bağlı antidopinq qayda pozuntusunun avtomatik təhqiqatını həyata keçirmək.

# MADDƏ 13. APELLYASİYA QAYDALARI

## 13.1 Apellyasiya qaydasında baxılan qərarlar

Antidopinq Qaydalarına əsasən verilmiş qərarlardan aşağıda qeyd edilən 13.2-13.7-ci Maddələri, və yaxud bu qəbildən irəli gələn digər qaydaları, *Məcəlləni*, Beynəlxalq Standartları rəhbər tutaraq apellyasiya qaydasında şikayət verilə bilər. Həmin qərarlar, Apellyasiya orqanı tərəfindən digər göstəriş verilməmişdirsə, apellyasiya icraatı zamanı qüvvədə qalır. Apellyasia qaydasında qərardan o zaman şikayət verilə bilər ki, həmin qərar, 13.2.2-ci Maddədə müəyyən olunmuş prinsiplərə uyğun olaraq, *Antidopinq Təşkilatının* sonrakı bütün yoxlamalarından keçmiş olsun (13.1.3-cü Maddə istisna olmaqla).

### 13.1.1 Dinləmənin hüdudları

Apellyasiya qaydasında keçirilən dinləmə mahiyyəti üzrə işin bütün hallarını əhatə edir və ilkin qərarı qəbul edən orqan baxdığı məsələ və yaxud onun hüdudları daxilində məhdudlaşdırlmır.

13.1.2 Şikayət edilən qərarın nəticələri *İAM* tərəfindən nəzərə alınmamalıdır

Öz qərarını qəbul edərkən, İAM apellyasiya qaydasında şikayət verilən orqanın qəbul etdiyi qərarını nəzərə almamalıdır.

13.1.3 *ÜADA-dan* daxili müdafiə vasitələrindən tam istifadə etmək tələb olunmur

13-cü Maddəyə əsasən *ÜADA-nın* apellyasiya qaydasında şikayət vermək hüququ olduqda və hər hansı bir digər tərəf apellyasiya qaydasında Apellyasiya Komitəsinin müəyyən etdiyi qaydalara əsasən yekun qərardan şikayət verməyibsə, bu halda *ÜADA* həmin qərardan apellyasiya qaydasında, Apellyasiya Komitəsinin müəyyən etdiyi daxili müdafiə vasitələrdən istifadə etmədən, birbaşa *İAM-a* şikayət verə bilər.

## 13.2 Antidopinq aayda pozuntuları, *Sanksiyalar, Şərti Kənarlaşdırılmalar,* Qərarların Tanınması və Yurisdiksiya ilə əlaqədar Qərarlardan Apellyasiya qaydasında şikayət

Antidopinq qayda pozuntusunun törədildiyi barədə qərar, antidopinq qayda pozuntusu üçün *Sanksiyalar* tətbiq edən yaxud etməyən qərar və ya heç bir antidopinq qayda pozuntusunun törədilmədiyi barədə qərar; antidopinq qayda pozuntusuna dair mübahisənin icraatının prosedur səbəblərindən davam edilə bilinməməsi barədə qərar (məs., resept daxil olmaqla); 5.7.1-ci Maddəyə əsasən idmanı tərk etmiş *İdmançının Yarışmaya* qayıtması üçün altı ay öncədən bildiriş verilməsi tələbinə istisna edilməməsi barədə *ÜADA-nın* qərarı; *ÜADA-nın Məcəllənin* 7.1-ci Maddəsinə əsasən nəticə emalını təyin edən qərarı; AMADA-nın *Qeyri-əlverişli Analiz Nəticəsi* yaxud *Atipik Nəticə* əsasında antidopinq qayda pozuntusu iddiasının irəli sürməmək qərarı və ya 7.7-ci Maddəyə əsasən təhqiqatdan sonra antidopinq qayda pozuntusu iddiasını irəli sürməmək qərarı; *Şərti Dinləmə* nəticəsində *Şərti Kənarlaşdırılma* tətbiq etmək qərarı; AMADA-nın 7.9-cu Maddəyə riayət etməməsi; AMADA-nın antidopinq qayda pozuntusu iddiası, yaxud öz Sanksiyaları barədə qərar qəbul etməyə yurisdiksiyanın olmaması barədə qərar; *Diskvalifikasiya* müddətinin dayandırılması və ya dayandırılmaması, yaxud 10.6.1-ci Maddəyə əsasən dayandırılmış *Diskvalifikasiya* müddətinin davam etdirilməsi, yaxud davam etdirilməməsi barədə qərar; 10.11.3-cü Maddəyə əsasən qərar; və MADA-nın 15-ci Maddəyə əsasən digər *Antidopinq Təşkilatının* qərarını tanımamaq qərarından müstəsna olaraq 13.2-13.7-ci Maddələrə əsasən apellyasiya qaydasında şikayət verilə bilər.

13.2.1 *Beynəlxalq səviyyəli İdmançılar* yaxud *Beynəlxalq Tədbirlərlə* bağlı apellyasiya qaydaları

*Beynəlxalq Tədbirlərdə* iştirak yaxud *Beynəlxalq səviyyəli İdmançılar* ilə bağlı hallarda qərarlardan müstəsna olaraq birbaşa *İAM-a* apellyasiya qaydasında şikayət verilə \bilər.

13.2.2 *Digər İdmançılar* yaxud digər *Şəxslər* ilə bağlı apellyasiya qaydaları

13.2.1-ci Maddənin tətbiqi mümkün olmayan hallarda qərardan Apellyasiya Komitəsinə apellyasiya qaydasında şikayət verilə bilər.

13.2.2.1 Apellyasiya Komitəsinin tərkibi aşağıdakılardan ibarətdir:

a) Sədr

b) İki hüquq üzrə ekspert

c) Bir tibb üzrə ekspert
d) Bİr idmanı tərk etmiş İdmançı/ Tibb eksperti

13.2.2.1.1 Təyin edilmiş üzvlərin mübahisənin heç bir aspekti ilə öncəki bağlılığı olmamalıdır. Xüsusi ilə, heç bir üzv cari mübahisədə olan eyni *İdmançı* ilə bağlı hər hansı *TİI* müraciəti yaxud apellyasiyanın baxılmasında öncəki iştirakı olmamalıdır. Təyinatdan sonra hər bir üzv tərəflərə qarşı neytrallığına təsir edə bilən hər hansı hal barədə Sədrə məlumat verməldir.

13.2.2.1.2 Sədr tərəfindən təyin edilmiş üzv mübahisəni baxmaq istəmirsə, yaxud hansısa səbəbdən bunu etməyə qadir deyilsə, Sədr onu dəyişdirə yaxud yeni dinləmə ekspertlər qrupu təyin edə bilər (məs., əvvəlcədən müəyyən edilmiş namizədlər qrupundan).

13.2.2.1.3 Apellyasiya Komitəsinin, tamamilə öz ixtiyarı ilə, ekspertlər qrupuna tələb olunduğu kimi ekspertlər qrupuna kömək yaxud məsləhət vermək üçün eksperti təyin etmək səlahiyyəti var.

13.2.2.1.4 AMADA-nın tərəf və müşahidəçi qismində icraata qoşulmaq və Apellyasiya Komitəsinin mübahisələrin dinləməsində iştirak etmək hüququ var.

13.2.2.1.5 Əlaqədar *Beynəlxalq Federasiya* və/və ya *Milli Federasiyanın,* icraatın tərəfi deyildirlərsə, *Milli Olimpiya Komitəsi,* icraatın tərəfi deyilsə və *ÜADA-nın* hər birinin müşahidəçi qismində Milli Andidopinq Apellyasiya Komitəsinin keçirdiyi dinləməyə qoşulmaq hüquqları var.

13.2.2.1.6 Hazırki Maddəyə əsasən keçirilən dinləmə müstəsna hallar istisna olmaqla sürətləndirilmiş qaydada və bütün hallarda icraat üzrə ilkin komitənin qərarından sonra üç ay ərzində başa çatdırılmalıdır.

13.2.2.1.7 *Tədbirlər* ilə əlaqədar keçirilən dinləmə sürətləndirilmiş qaydada keçirilməldir.

### 13.2.2.2 Apellyasiya Komitəsin icraatı

13.2.2.2.1 Hazırki Antidopinq Qaydalarının müddəalarına müvafiq olaraq Apellyasiya Komitəsinin öz prosedurlarını tənzimləmək hüquq var.

13.2.2.2.2 Şikayətçi öz mübahisə materiallarını təqdim etməli və cavabdeh tərəf yaxud tərəflər cavab olaraq öz mübahisə materail(larını) təqdim etməlidirlər.

13.2.2.2.3 Bildirişdən sonra hər hansı bir tərəfin yaxud onun təmsilçisinin dinləmədə iştirak edə bilməməsi onun tərəfindən özünün dinləmə hüququndan imtina etməsi kimi qiymətləndiriləcək. Bu hüquq ağlabatan səbəblər əsasında bərpa oluna bilər.

13.2.2.2.4 Hər tərəfin öz hesabına dinləmədə təmsil olunmaq hüququ var.

13.2.2.2.5 Apellyasiya Komitəsi tərəfindən zəruri hesab olunan hallarda, hər bir tərəf dinləmədə tərcüməçi ilə təmin olunmaq hüququna malikdir. Apellyasiya Komitəsi tərcüməçinin kimliyini və xərclər üçün öhdəlikləri müəyyən etməlidir.

13.2.2.2.6 Şahid çağırmaq və dindirmək də daxil olmaqla, iştirak edən hər bir tərəfinin sübut təqdim etmək hüququ var (şahid ifadələrini telefon və ya başqa vasitələrlə qəbul edilməsi Apellyasiya Komitəsinin qərarından asılıdır).

13.2.2.2.7 Əlaqədar Şəxsin Apellyasiya Komitəsinin istənilən tələbi yaxud göstərişinə riayət etməməsi, Apellyasiya Komitəsini tərəfindən icraatı dayandırmasına səbəb olmur, və belə xətalar qərar qəbul edilərkən Apellyasiya Komitəsi tərəfindən nəzərə alına bilər.

### 13.2.2.3 Apellyasiya Komitəsinin qərarları:

13.2.2.3.1 Dinləmənin sonunda yaxud müəyyən müddət keçdikdə Apellyasiya Komitəsi tərəfindən maksimal potensial *Sanksiyaların* tətbiq edilməməsi üçün əsaslandırma daxil olmaqla (tətbiq olunursa), və tətbiq edilmiş hər hansı *Diskvalifikasiya* müddəti üçün tam səbəbləri əhatə edən tarixi göstərilmiş və imzalanmış yazılı (yekdil və ya səs çoxluğu ilə qəbul edilmiş) qərar verilməlidir.

13.2.2.3.2 13.2.3-cü Maddəyə uyğun olaraq apellyasiya qaydasında şikayət vermək hüququnun saxlanılması ilə əlaqədar qərar Apellyasiya Komitəsi tərəfindən *İdmançıya,* onun *Milli Federasiyasına* və *Antidopinq Təşkilatlarına* təqdim etməlidir.

13.2.2.3.3 Qərardan 13-cü maddəyə uyğun olaraq apellyasiya qaydasında şikayət verilə bilər. Qərardan apellyasiya qaydasında şikayəti verilməyibsə, (a) əgər qərar antidopinq qayda pozuntusunun törədilməsi təsdiqləyərsə, 14.3.2-ci Maddəyə uyğun olaraq, *İctimaiyyətə açıqlanmalıdır;* lakin, (b) əgər qərar antidopinq qayda pozuntusunun törədilməsini təsdiqləməzsə, qərar yalnız haqqında qərar qəbul edilən *İdmançının* yaxud digər *Şəxsin* razılığı ilə *İctimaiyyətə açıqlana bilər.* AMADA bu razılığın alınması üçün ağlabatan səyləri göstərməlidir və əgər razılıq alınıbsa, qərarı tamamilə, yaxud *İdmançı* və ya digər *Şəxsin* təsdiq etdikləri redaktə olunmuş formada *İctimaiyyətə açıqlana bilər.*

### 13.2.3 Appellyasiya hüququ olan Şəxs

13.2.1-ci Maddəyə əsasən baxılan işlərdə aşağıdakı tərəflərin *İAM-a* apellyasiya qaydasında şikayət etmək hüququ var: (a) apellyasiya qaydasında şikayət edilən qərarın həsr edildiyi *İdmançı* yaxud *Şəxs;* (b) qərar verilmiş mübahisənin digər tərəfi; (c) müvafiq *Beynəlxalq Federasiya;* (d) şəxsin rezident, vətəndaşı yaxud lisenziya sahibi olduğu ölkə üzrə *Milli Antidoping Təşkilatı;* (e) Olimpiya və ya Paralimpiya Oyunlarında iştirak hüququna təsir edən qərarlar daxil olmaqla, Olimpya yaxud Paralimpiya Oyunları ilə əlaqədar təsiri ola bilən qərar halında, müvafiq olaraq Beynəlxalq Olimpiya Komitəsi yaxud Beynəlxalq Paralimpiya Komitəsi; və (f) ÜADA.

13.2.2-ci Maddəyə əsasən dinlənən mübahisələrdə *ÜADA,* Beynəlxalq Olimpiya Komitəsi, Beynəlxalq Paralimpiya Komitəsi və müvafiq Beynəlxalq Federasiya milli apellyasiya orqanının qərarları ilə bağlı *İAM-a* apellyasiya qaydasında şikayət vermək hüququna malikdirlər. Apellyasiya şikayəti edən hər bir tərəf qərarı apellyasiya qaydasında şikayət edilən *Antidopinq Təşkilatından* bütün müvafiq məlumatın alınmasında *İAM-ın* köməyinə hüququ var və *İAM* gösətriş verdiyi halda məlumat təmin edilməldir.

Buradakı hər hansı digər müddəaya baxmayaraq, *Şərti Kənarlaşdırılma* ilə əlaqədar apellyasiya qaydasında şikayət yalnız üzərinə *Şərti Kənarlaşdırılma Sanksiyası* qoyulmuş *İdmançı* yaxud digər *Şəxs* verə bilər.

### 13.2.4 Qarşılıqlı və digər Növbəti Apellyasiya Qaydaları

İşdə iştirak edən hər hansı bir cavabdeh tərəfindən Məcəlləyə uyğun olaraq *İAM-a* qarşılıqlı və ya növbəti apellyasiya qaydasında şikayət verilə bilər. 13-cü Maddəyə uyğun olaraq apellyasiya qaydasında şikayət vermək hüququ olan tərəf ən gec son cavab verilənədək həmin hüquqdan istifadə etməlidir.

## 13.3 Qərarların vaxtlı-vaxtında verilməməsi

O haldakı, xüsusi hallarda, AMADA *ÜADA* tərəfindən təyin edilmiş ağlabatan müddətə qədər antidopinq qayda pozuntusunun törədilməsinə dair qərar qəbul edə bilməsə, *ÜADA* bunu AMADA-nın heç bir antidopinq qayda pozuntusunu aşkarlamadığı barədə qərarı kimi qəbul edib, birbaşa *İAM-a* apellyasiya qaydasında şikayət verməyi seçə bilər. Əgər *İAM* Antidopinq Qaydaları pozuntusunun törədildiyini və *ÜADA-nın* birbaşa *İAM-a* müraciət etməkdə ağlabatan hərəkət etdiyini müəyyən etsə, onda *ÜADA-nın* apellyasiya qaydasında şikayətinin verilməsi üçün xərcləri və vəkil haqqı *ÜADA-ya* AMADA tərəfindən ödəniləcək.

## 13.4 *Tİİ-yə* dair Apellyasiya qaydası

*Tİİ* qərarlardan müstəsna olaraq 4.4-cu Maddəyə əsasən apellyasiya qaydasında şikayət verilə bilər.

## 13.5 Apellyasiya qərarları barədə bildiriş

14.2-ci Maddəyə uyğun olaraq, apellyasiya şikayətinə tərəf olan hər hansı *Antidopinq Təşkilatı* apellyasiya qərarını, 13.2.3-cu Maddəyə uyğun olaraq apellyasiya qaydasında şikayət etmək hüququna malik olan *İdmançı* yaxud digər *Şəxsə* və digər *Antidopinq Təşkilatına* dərhal bildirməlidir.

## 13.6 12-ci Maddə ilə bağlı qərarlara apellyasiya

12-ci Maddəyə uyğun olaraq Apellyasiya Komitəsi tərəfindən qəbul edilmiş qərarlardan *Milli Federasiya* tərəfindən müstəsna olaraq *İAM-a* apellyasiya qaydasında şikayət verilə bilər.

## 13.7 Apellyasiya müddətləri

13.7.1 *İAM* tərəfindən baxılan apellyasiya icraatı

*İAM-a* apellyasiya qaydasında, şikayət edən tərəfin qərarı alması tarixindən iyirmi bir gün ərzində şikayət edilməlidir. Yuxarıda qeyd olunanlara baxmayaraq, apellyasiya hüququ olan, lakin qərardan şikayət verilməsinə səbəb olmuş, dinləmədə tərəf olmayan tərəfin apellyasiya qaydaları ilə əlaqədar aşağıdakılar tətbiq olunmalıdır:

(a) Qərar barədə bildiriş tarixindən on beş gün ərzində, sözügedən tərəf(lər) qərarı qəbul etmiş orqandan mübahisə sənədlərinin surətini tələb etmək hüququna malikdir;

(b) Belə tələbin on beş günlük müddət ərzində edildiyi halda, sözügedən tələbi etmiş tərəfin sənədləri aldığı tarixdən sonra *İAM-a* apellyasiya qaydasında şikayət vermək üçün iyirmi bir gün vaxtı olacaq.

Yuxarıda qeyd olunanlara baxmayaraq, *ÜADA* tərəfindən apellyasiya qaydasında şikayət vermək üçün son tarix aşağıdakıların ən geci olmalıdır:

(a) Dinləmənin digər tərəfin apellyasiya qaydasında şikayət verməsi üçün son gündən iyirmi bir gün sonra; yaxud

(b) *ÜADA* tərəfindən qərara dair tam sənədlər paketinin alınmasından iyirmi bir gün sonra.

13.7.2 13.2.2-ci Maddəyə uyğun apellyasiya icraatı

Apellyasiya Komitəsinə apellyasiya qaydasında, şikayəti edən tərəfin qərarı alması tarixindən iyurmi bir gün ərzində şikayət edilməlidir. Buna baxmayaraq, apellyasiya hüququ olan, lakin qərardan şikayət verilməsinə səbəb olmuş, dinləmədə tərəf olmayan tərəfin etdiyi apellyasiya qaydaları ilə əlaqədar aşağıdakılar tətbiq olunmalıdır:

(a) Qərar barədə bildiriş tarixindən on beş gün ərzində sözügedən tərəf(lər) qərarı qəbul etmiş orqandan mübahisə materiallarının surətini tələb etmək hüququna malikdir;

(b) Belə tələbin on beş günlük müddət ərzində edildiyi halda, sözügedən tələbi etmiş tərəfin iş materiallarını aldığı tarixdən sonra Apellyasiya Komitəsinə apellyasiya qaydasında şikayət vermək üçün iyirmi bir gün vaxtı olacaq.

Yuxarıda qeyd olunanlara baxmayaraq, *ÜADA* tərəfindən apellyasiya qaydasında şikayət verməsi üçün son tarix aşağıdakıların ən geci olmalıdır:

(a) Dinləmənin digər tərəfinin apellyasiya qaydasında şikayət verməsi üçün son gündən iyirmi bir gün sonra; yaxud

(b) *ÜADA* tərəfindən qərara dair tam mübahisə materiallarının alınmasından iyirmi bir gün sonra.

### 13.8 Apellyasiya Komitəsinin yurisdiksiyası

13.8.1 Apellyasiya Komitəsinin hazırki AMADA qaydalarına əsasən ona apellyasiya qaydasında şikayət verilən mübahisə ilə bağlı yaranan bütün məsələri mahiyyəti üzrə baxmaq və müəyyən etmək səlahiyyətinə malikdir. Xüsusi ilə, Apellyasiya Komitəsinin hazırki AMADA qaydalarına əsasən tətbiq ediləcək antidopinq qayda pozuntusu üçün *Sanksiyaları* təyin etmək səlahiyyətinə malikdir.

13.8.2 Apellyasiya Komitəsi funksiyalarının icrasında müstəqil və bitərəf olmalıdır.

13.8.3 Apellyasiya Komitəsi öz vəzifələrinin icra edə bilməsi üçün bütün zəruri və əlaqəli səlahiyyətlərə malikdir.

13.8.4 Apellyasiya Komitəsinin heç bir yekun qərarı yaxud Apellyasiya Komitəsi tərəfindən tətbiq edilmiş antidopinq qayda pozuntusu üçün heç bir *Sanksiyalar* hazırki AMADA qaydaları tərəfindən müəyyən edilmiş prosedurlardan imtina, uyğunsuzluq, boşluq yaxud yayınma səbəbi daxil olmaqla, heç bir səbəb üçün *İAM-dan* başqa heç bir məhkəmə, arbitraj, tribunal yaxud digər dopinq icraatı üzrə dinləmə keçirən orqan tərəfindən ləğv edilə, dəyişdirilə yaxud qüvvədən düşmüş elan edilə bilməz.

## MADDƏ 14. MƏXFİLİK VƏ HESABATLILIQ

### 14.1 *Qeyri-əlverişli Analiz Nəticələri, Atipik Nəticələr* və digər antidopinq qayda pozuntuları haqqında məlumat

#### 14.1.1 *İdmançılara* və digər *Şəxslərə* antidopinq qayda pozuntuları haqqında bildiriş

*İdmançılara* və ya digər *Şəxslərə* onlara qarşı antidopinq qayda pozuntusu iddiasının irəli sürülməsi haqqında bildiriş hazırki Antidopinq Qaydalarının 7-ci və 14-cü Maddələrinə uyğun olaraq baş verməlidir. *Milli Federasiya* üzvü olan *İdmançılara* və ya digər *Şəxslərə* bildirişin verilməsi bildirişin Milli Federasiyaya çatdırılması vasitəsilə edilə bilər.

### 14.1.2 *Beynəlxalq Federasiya* və *ÜADA-ya* antidopinq qayda pozuntuları haqqında bildiriş

Beynəlxalq Federasiya və *ÜADA-ya* antidopinq qayda pozuntusu iddiasının irəli sürülməsi haqqında bildiriş hazırki Antidopinq Qaydalarının 7-ci və 14-cü maddələrinə uyğun olaraq *İdmançını* və ya digər *Şəxsə* bildiriş ilə eyni zamanda baş verməldir.

### 14.1.3 Antidopinq qayda pozuntusu haqqında bildirişin məzmunu

2.1-ci Maddəyə uyğun olaraq antidopinq qayda pozuntusu haqqında bildiriş özünə aşağıdakıları daxil etməlidir: İdmançının adı, ölkəsi, idmanı və idmanı daxilində növü, *İdmançının* yarışçı dərəcəsi, testin Yarışma müddətində yaxud Yarımadan kənar müddətdə keçirildiyi, *Nümunə* toplanmasının tarixi, laboratoriya müayinəsinin nəticəsi və Test keçirilməsi və Təhqiqatlar üzrə Beynəlxalq Standartın tələb etdiyi digər məlumat.
2.1-ci Maddədən fərqli maddəyə uyğun antidopinq qayda pozuntusu haqqında bildiriş, pozulmuş qaydanı və pozuntu üçün iddianın əsaslandırmasını daxil etməldir.

### 14.1.4 Status hesabatları

14.1.1-ci Maddəyə uyğun olaraq antidopinq qayda pozuntusu faktı barədə bildirişlə nəticələnməmiş təhqiqatlar istisna olmaqla, *Beynəlxalq Federasiyalar və ÜADA* 7, 8, yaxud 13-cü Maddələrə uyğun olaraq həyata keçirilən hər hansı yoxlama və ya icraatların vəziyyəti və nəticələri barədə müntəzəm olaraq məlumatlandırılmalı və onlara təcili olaraq yazılı əsaslandırılmış izahat yaxud mübahisənin həllini izah edən qərar təqdim olunmalıdır.

### 14.1.5 Məxfilik

Məlumat alıcısı olan təşkilatlar sözügedən məlumatı, AMADA tərəfindən *Ictimaiyyətə açıqlama* edilənə qədər yaxud onun tərəfindən 14.3-cü Maddəyə uyğun olaraq *Ictimaiyyətə açıqlama* etmək tələbinin pozulması faktı tanınana qədər, (müvafiq *Milli Olimpiya Komitəsində, Milli Federasiyada və Komanda idman növündə* komandadakı müvafiq heyət daxil olmaqla) bunu bilməli olan *Şəxslərdən* fərqli şəxslərə açıqlamaq hüququna malik deyirlər.

14.1.6 AMADA *Qeyri-əlverişli Analiz Nəticələri, Atipik Nəticələrə* və digər antidopinq qayda pozuntusu iddiaları barədə məlumatın məxfi qalmasını təmin etməlidir, o vaxta qədər ki, sözügedən məlumat 14.3-cü Maddəyə uyğun olaraq *Ictimaiyyətə açıqlanır* və AMADA və öz (müvəqqəti və daimi) əməkdaşları, podratçıları, agentləri və məsləhətçiləri ilə bağlanılan bütün müqavilələrə belə məxfi məlumatın mühafizəsi və həmçinin həmin məlumatın qeyri-münasib və icazəsiz açıqlanmasının araşdırılması və cəzalandırılması məqsədi ilə müvafiq müddəalar əlavə etməlidir.

## 14.2 Antidopinq qayda pozuntusu haqqında bildiriş və mübahisə materiallarının verilməsinə dair sorğu

14.2.1 7.11, 8.3, 10.4, 10.5, 10.6, 10.11.3 yaxud 13.5-ci Maddələrə uyğun olaraq antidopinq qayda pozuntusu haqqında qəbul edilən qərarlar, həmin qərarların qəbulu üçün tam səbəbləri daxil etməldir, o cümlədən, maksimum mümkün *Sanksiyaların* hansı səbəbdən tətbiq edilmədiyi üçün əsaslandırma daxil olmaqla. Qərarın ingilis və ya fransız dilində olmadığı təqdirdə, AMADA qərarın və dəstəkləyici əsasların ingilis dilli və ya fransız dilində qısa icmalını təqdim etməlidir.

14.2.2 14.2.1-ci Maddəyə uyğun olaraq qərardan apellyasiya qaydasında şikayət vermək hüququna malik *Antidoping Təşkilatı*, qərarı aldığı gündən on beş gün müddətində qərarla bağlı tam mübahisə materiallarının surətini tələb edə bilər.

## 14.3 *Ictimaiyyətə açıqlama*

14.3.1 AMADA tərəfindən Antidopinq Qaydaları pozuntusunda iddia edilmiş hər hansı *İdmançı* yaxud digər *Şəxsin* kimliyi yalnız 7.3, 7.4, 7.5, 7.6 yaxud 7.7-ci maddələrə uyğun olaraq AMADA tərəfindən İdmançı yaxud digər *Şəxsə* və 14.1.2-ci maddəyə uyğun olaraq eyni zamanda *ÜADA-ya* və *İdmançı* yaxud digər Şəxsin məxsus olduğu *Beynəlxalq Federasiyaya* bildiriş veriləndən sonra *İçtimaiyyətə açıqlana* bilər.

14.3.2 13.2.1 yaxud 13.2.2-ci Maddələrə uyğun olaraq, yekun apellyasiya qaydasında qəbul edilmiş qərarında müəyyən ediləndən və ya belə apellyasiyanın rədd edildiyindən, yaxud 8-ci Maddəyə uyğun olaraq dinləmədən imtina ediləndən, yaxud antidopinq qayda pozuntusu iddiası vaxtında mübahisələndirilməyəndən sonra iyirmi gündən gec olmayaraq, AMADA idman, pozuntu edilmiş antidopinq qaydası, pozuntunu törətmiş İdmançı yaxud Şəxsin adı, əlaqəli *Qadağan edilmiş Madddə yaxud Qadağan edilmiş Üsul* (əgər varsa) və tətbiq edilmiş *Sanksiyalar* daxil olmaqla, müba-

hisə ilə bağlı vəziyyəti *Ictimaiyyətə açıqlamalıdır*. AMADA həmçinin yuxarıda təsvir edilmiş məlumat daxil olmaqla, antidopinq qayda pozuntuları ilə əlaqədar yekun apellyasiya qərarlarının nəticələrini iyirmi gün ərzində *İçtimaiyyətə açıqlamalıdır.*

14.3.3 İlkin dinləmə, yaxud apellyasiyadan sonra *İdmançı* yaxud digər *Şəxsin* antidopinq qayda pozuntusu törətmədikləri müəyyən edilən hər bir mübahisədə, qərar yalnız onunla əlaqəli olan *İdmançı* yaxud digər *Şəxsin* icazəsi ilə *Ictimaiyyətə açıqlana* bilər. AMADA bu razılığın alınması üçün ağlabatan səyləri göstərməlidir. Əgər razılıq alınıbsa, qərar tamamilə və ya *İdmançı* yaxud digər *Şəxsin* təsdiq etdikləri redaktə olunmuş formada *ictimaiyyətə açıqlana bilər.*

14.3.4 *İctimaiyyətə açıqlama* ən azı tələb olunan məlumatın AMADA-nın veb-saytına yerləşdirmə yaxud onu digər vasitələrlə nəşr etdirmək və veb-saytda bir aydan çox müddətdə, yaxud hər hansı *Diskvalifikasiya* müddəti ərzində saxlanılması ilə təmin edilməlidir.

14.3.5 Nə AMADA, nə *MİlIi Federasiyalar,* nə də hər hansı rəsmi yaxud digər orqan, hər hansı dinlənən mübahisənin konkret faktları barədə ictimaiyyətə şərh etməməlidirlər (proses və elmin ümumi təsvirindən fərqli olaraq), antidopinq qayda pozuntusunda iddia edilmiş *İdmançı* yaxud digər *Şəxs*, yaxud onların təmsilçilərə məxsus ictimai şərhlərə cavablar istisna olmaqla.

14.3.6 14.3.2-ci Maddəyə uyğun tələb olunan məcburi *İctimaiyyətə açıqlama* antidopinq qayda pozuntusunu törətmiş *İdmançı* yaxud digər *Şəxsin Azyaşlı* olması halında tələb edilmir. *Azyaşlı* ilə bağlı mübahisədə hər hansı qeyri-məcburi *İctimaiyyətə açıqlama*, mübahisənin faktları və təfərrüatlarına mütənasib olmalıdır.

## 14.4 Statistik hesabatlılıq

MADA özünün *Dopinqə Nəzarət* fəaliyyəti barədə illik ümumi statistik hesabatını nəşr etməlidir, surəti *ÜADA-ya* təqdim edilməklə. AMADA həmçinin *Testdən* keçirilmiş hər *İdmançının* adını və hər bir testin tarixini daxil edən hesabatlar nəşr etməlidir.

## 14.5 *Dopinq Nəzarəti* üzrə Məlumat Mübadiləsi Mərkəzi

Əlaqələndirilmiş test bölüşdürməsi planlaşdrmasını asanlaşdırmaq və müxtəlif *Antidopinq Təşkilatları* tərəfindən *Testin* keçrilməsinin təkrar-

lanmasının qarşısını almaq üçün, AMADA belə *İdmançılar* üzərində keçirilmiş bütün *Yarışma müddətində və Yarışma müddətindən kənar testləri* barədə, testlər keçirilən kimi ADAMS-dan istifadə edərək *ÜADA* Məlumat Mübadiləsi Mərkəzinə hesabat verməlidir. Məlumat müvafiq zaman və tətbiq edilən qaydalara uyğun olaraq *İdmançıya, İdmançının* Beynəlxalq Federasiyasına və *İdmançı* üzərində *Test* səlahiyyəti olan hər hansı digər *Antidopinq Təşkilatına* açıqlanacaq.

### 14.6 Məlumatların məxfiliyi

14.6.1 AMADA *Məcəlləyə, Beynəlxalq Standartlara* (xüsusilə Şəxsi Həyatın və Şəxsi Məlumatların Mühafizəsi üzrə Beynəlxaq Standartlar daxil olmaqla) və hazırki Antidopinq Qaydalarına uyğun olaraq öz antidopinq fəaliyyətini həyata keçirmək üçün zəruri və münasib hallarda *İdmançılar* və digər *Şəxslərə* dair şəxsi məlumatı toplaya, saxlaya, emal edə və açıqlaya bilər.

14.6.2 Hazırki Andidopinq Qaydalarına uyğun olaraq hər hansı *Şəxsə* şəxsi məlumat daxil olmaqla, məlumat təqdim edən hər hansı *İştirakçı* həmin məlumatın belə *Şəxs* tərəfindən Şəxsi Həyatın və Şəxsi Məlumatların Mühafizəsi üzrə Beynəlxaq Standartlara uyğun olaraq hazırki Andidopinq Qaydalarının icrası məqsədləri üçün toplanması, emalı, açıqlanması və istifadə edilməsinə razılıq vermiş hesab edilir.

## MADDƏ 15. QƏRARLARIN TƏTBİQİ VƏ TANINMASI

15.1 13-cü Maddəyə uyğun olaraq apellyasiya qaydasında şikayət vermək hüququna müvafiq olaraq, *Test keçirilməsi*, dinləmənin nəticələri və hər hansı *İmzalayan tərəfinin Məcəlləyə* riayət edən və *İmzalayan tərəfin* səlahiyyətləri çərçivəsində olan digər son qərarları dünya üzrə tətbiq edilməli və AMADA və bütün *Milli Federasiyalar* tərəfindən tanınmalı və hörmət edilməlidir.

15.2 AMADA və bütün *Milli Federasiyalar Məcəlləni* qəbul etməmiş digər qurumların tədbirlərini tanımalıdır, həmin qurumların qaydalarının digər halda *Məcəllə* ilə uyğun olduğu halda.

15.3 13-cü Maddəyə uyğun olaraq apellyasiya qaydasında şikayət vermək hüququna müvafiq olaraq, AMADA-nın hazırki andidopinq qayda pozuntusuna dair hər hansı bir qərarı sözügedən qərarın effektiv edilməsi üçün bütün zəruri tədbirlər görməli, bütün *Milli Federasiyalar* tərəfindən tanınmalıdır.

## MADDƏ 16. MADA ANTİ-DOPİNQ QAYDALARININ VƏ *MİLLİ FEDERASİYALARIN* ÖHDƏLİKLƏRİNİN UYĞUNLAŞDIRILMASI

16.1 Bütün *Milli Federasiyalar* hazırki Antidopinq Qaydalarına riayət etməlidirlər. Hazırki Antidopinq Qaydaları həmçinin birbaşa, yaxud istinad şəklində hər bir *Milli Federasiyanın* qaydalarına daxil edilməlidir ki, AMADA onları özü tərəfindən *Milli Federasiyanın* yurisdiksiyasında olan *İdmançılar* və digər *Şəxslərə* qarşı tətbiq edə bilsin.

16.2 Bütün *Milli Federasiyalar Yarışmada, və ya Milli Federasiya* yaxud onun üzv təşkilatlarından biri tərəfindən keçirilməsinə icazə verilmiş, yaxud təşkil edilmiş tədbirdə iştirak edən bütün *İdmançıları* və məşqçi, təlimçi, menecer, komanda heyəti, rəsmi, tibbi yaxud feldşer heyətini belə iştirakın şərti kimi hazırki Antidopinq Qaydalarına riayətin məcburiliyi ilə razılaşmağı və *Məcəlləyə* uyğun olaraq cavabdeh olan *Antidopinq Təşkilatının* nəticə emalı səlahiyyətinə tabe olmağı tələb edən qaydalar yaratmalıdır.

16.3 Bütün *Milli Federasiyalar* antidopinq qayda pozuntusu ilə bağlı hər hansı məlumatı MADA-ya və öz *Beynəlxalq Federasiyalarına* bildirməli və təhqiqat aparmaq səlahiyyəti olan hər hansı *Antidopinq Təşkilatının* apardığı təhqiqatlar ilə əməkdaşlıq etməldirir.

16.4 Bütün *Milli Federasiyalar* etibarlı əsaslandırma olmadan *Qadağan edilmiş Maddələr* yaxud *Qadağan edilmiş Üsullar İstifadə* edən *İdmançılara Dəstək Heyəti* üzvlərinin, MADA yaxud *Milli Federasiyanın* yurisdiksiyası altında olan *İdmançılara* dəstək göstərməsinin qarşısını almaq üçün intizam qaydalarına malik olmalıdırlar.

16.5 Bütün *Milli Federasiyalardan* AMADA ilə əlaqələndirmədə antidopinq təhsilinin keçrilməsi tələb olunur.

## MADDƏ 17 İDDİA MÜDDƏTİ

7-ci Maddədə tələb olunduğu kimi *İdmançı* yaxud digər *Şəxsə* antidopinq qayda pozuntusu barədə bildiriş verilmədiyi halda, yaxud pozuntunun baş verməsindən sonra on il ərzində ağlabatan şəkildə bildiriş cəhdi edilmədən, ona qarşı heç bir antidopinq qayda pozuntusu iddiası irəli sürülə bilinməz.

## MADDƏ 18. MADA-NIN ÜADA-YA RİAYƏT HESABATLARI

Məcəllənin 23.5.2-ci Maddəsinə uyğun olaraq AMADA, NADA-nın *Məcəlləyə* riayəti barədə *ÜADA-ya* hesabat verəcək.

## MADDƏ 19 .TƏHSİL

AMADA ən azı Məcəllənin 18.2-ci Maddəsində qeyd olunan məsələlər üzrə dopinqdən azad idman üçün məlumatlandırma, təhsil və profilaktika proqramlarını planlaşdırmalı, icra etməli, qiymətləndirməli və onların monitorinqini aparmalı və *İdmançılar və İdmançılara Dəstək Heyətinin* üzvlərinin belə proqramlarında fəal iştirakını dəstəkləməlidir.

## MADDƏ 20. ANTİDOPİNQ QAYDALARINA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ VƏ ONLARIN ŞƏRHİ

20.1 Hazırki Antidopinq Qaydalarına AMADA tərəfindən vaxtaşırı düzəlişlər edilə bilər.

20.2 Hazırki Antidopinq Qaydaları müstəqil və muxtar mətn kimi, mövcud qanunvericilik və əsasnamələrə istinad etmədən şərh edilməlidir.

20.3 Hazırki Antidopinq Qaydalarının müxtəlif Hissələri və Maddələri üçün istifadə edilən başlıqlar yalnız münasiblik məqsədi daşıyır və hazırki Antidopinq Qaydalarının mahiyyət hissəsi hesab edilməməlidir və istinad etdikləri müddəaların dilinə təsir etməməlidirlər.

20.4 *Məcəllə və Beynəlxalq Standartlar* hazırki Antidopinq Qaydalarının ayrılmaz hissələri hesab edilməli və münaqişə halında üstünlük təşkil etməlidirlər.

20.5 Hazırki Antidopinq Qaydaları Məcəllənin tətbiq oluna bilən müddəalarına uyğun olaraq qəbul edilmişdir və *Məcəllənin* tətbiq edilə bilən müddəaları ilə uyğun qaydada şərh edilməlidir. Ön söz hazırki Antidopinq Qaydalarının ayrılmaz hissəsi hesab edilməlidir.

20.6 *Məcəllənin* müxtəlif müddəalarını annotasiya edən şərhlər istinad ilə, hazırki Antidopinq Qaydalarına daxil edilmişdir, onlarla sənəddə tam ifadə olunmuş kimi rəftar edilməli və onlardan hazırki Antidopinq Qaydalarını şərh etmək üçün istifadə olunmalıdır.

20.7 Hazırki Antidopinq Qaydaları 13 yanvar 2017-ci il tarixində tam qüvvəyə minmişdir ("Qüvvəyə minmə tarixi"). Onlar Qüvvəyə minmə tarixindən əvvəl baxılmasına başlanmış məsələlərdə retroaktiv qaydada tətbiq oluna bilinməz; buna baxmayaraq, aşağıdakılar nəzərə alınmalıdır:

20.7.1 Qüvvəyə minmə tarixindən əvvəl baş vermiş antidopinq qayda po-

zuntuları Qüvvəyə minmə tarixindən sonra baş vermiş pozuntular üçün 10-cu Maddəyə uyğun olaraq, sanksiyaların müəyyən edilməsi məqsədi üçün "ilk pozuntu" və ya "ikinci pozuntu" kimi nəzərə alınır.

20.7.2 Retrospektiv dövrlər, hansılarda ki, öncəki pozuntular 10.7.5-ci Maddəyə uyğun olaraq çoxsaylı pozuntular məqsədləri üçün nəzərə alına bilər və 17-ci Maddəyə uyğun olaraq müəyyən edilmiş iddia müddətləri prosedural normalardır, və retroaktiv qaydada tətbiq edilməlidirlər; lakin nəzərə alınmalıdır ki, 17-ci Maddədə qeyd olunan iddia müddətinin Qüvvəyə minmə tarixinə qədər başa çatmadığı hallarda retroaktiv qaydada tətbiq oluna bilər. Digər hallarda, Qüvvəyə minmə tarixində baxılmaqda olan hər hansı antidopinq qayda pozuntusu mübahisəsi və Qüvvəyə minmə tarixindən əvvəl törədilmiş antidopinq qayda pozuntusu üçün Qüvvəyə minmə tarixindən sonra baxılmasına başlanmış hər hansı antidopinq qayda pozuntusu mübahisəsi ilə əlaqədar olaraq, həmin mübahisə iddia edilən antidopinq qayda pozuntusunun törədildiyi zaman qüvvədə olan əhəmiyyətli həcmdə Antidopinq Qaydaları ilə tənzimlənir, mübahisəni dinləyən komitənin *"lex mitior"* prinsipinin mübahisənin təfərrüatlarına müvafiq şəkildə tətbiq edilməsi barədə qərara gəldikləri hallar istisna olmaqla.

20.7.3 Qüvvəyə minmə tarixindən əvvəl 2.4-cu Maddəyə uyğun olaraq, baş vermiş hər hansı məkan məlumatının təqdim edilə bilinməməsi halı irəli çəkilməlidir və ona Test keçirilməsi və Təhqiqatlar üzrə Beynəlxalq Standarta uyğun olaraq, müddətinin bitməsinə qədər etibar edilə bilinər, lakin nəzərə alınmalıdır ki, onun müddəti baş verdikdən 12 ay sonra bitir.

20.7.4 Antidopinq qayda pozuntusunu təsdiq etmiş son qərarın Qüvvəyə minmə tarixindən əvvəl qəbul edilən, lakin *İdmançı* yaxud digər *Şəxsin* Qüvvəyə minmə tarixinə qədər *Diskvalifikasiya* müddətində olduğu hallarda, *İdmançı* yaxud digər *Şəxs* antidopinq qayda pozuntusu üçün nəticə emalı səlahiyyəti olan *Antidopinq Təşkilatına* müraciət edə bilər ki, hazırki Antidopinq Qaydaları nəzərə alınmaqla onun *Diskvalifikasiya* müddətinin azaldılmasına məsələsinə baxılsın. Belə müraciət *Diskvalifikasiya* müddətinin bitməsindən əvvəl edilməlidir. Qəbul edilmiş qərardan 13.2-ci Maddəyə uyğun olaraq apellyasiya qaydasında şikayət verilə bilər. Hazırki Antidopinq Qaydaları, antidopinq qayda pozuntusunu təsdiq edən son qərarın artıq verildiyi və *Diskvalifikasiya* müddətinin bitdiyi heç bir mübahisəyə dair tətbiq edilə bilinməz.

20.7.5 İkinci pozuntu üçün *Diskvalifikasiya* müddətinin qiymətləndirilməsi məqsədləri üçün, 10.7.1-ci Maddəyə uyğun olaraq, ilk pozuntu üçün sanksiya, Qüvvəyə minmə tarixindən əvvəl qüvvədə olan qaydalara əsasən müəyyən edildiyində, hazırki Antidopinq Qaydalarının qaydalarına əsasən, tətbiq edilməli *Diskvalifikasiya* müddəti təyin edilməldir.

## MADDƏ 21. *MƏCƏLLƏNİN* ŞƏRHİ

21.1 *Məcəllənin* rəsmi mətni *ÜADA* tərəfindən saxlanılmalı və İngilis və Fransız dillərində nəşr edilməlidir. Mətnin İngilis və Fransız versiyaları arasında hər hansı fikir ayrılıqları yarandığı təqdirdə, İngilis versiyası üstünlük təşkil edir.

21.2 *Məcəllənin* müxtəlif müddəalarını annotasiya edən şərhlər *Məcəllənin* şərh edilməsi üçün istifadə olunmalıdır.

21.3 *Məcəllə* müstəqil və muxtar mətn kimi, onu *İmzalayan tərəflərin* yaxud hökumətlərin mövcud qanunvericilik və əsasnamələrə istinad etmədən şərh edilməlidir.

21.4 *Məcəllənin* müxtəlif Hissələri və Maddələri üçün istifadə edilən başlıqlar yalnız münasiblik məqsədi daşıyır və *Məcəllənin* mahiyyət hissəsi hesab edilməməlidir və istinad etdikləri müddəaların dilinə təsir etməməlidirlər.

21.5 *Məcəllə İmzalayan tərəflər* tərəfindən qəbul edildiyi tarixdən əvvəl baxılan məsələlərə retroaktiv qaydada tətbiq edilmir. Buna baxmayaraq, *Məcəllənin* qəbulundan əvvəl baş vermiş antidopinq qayda pozuntuları *Məcəllənin* qəbulundan sonra baş vermiş pozuntular üçün 10-cu Maddəyə uyğun olaraq, sanksiyaların müəyyən edilməsi məqsədi üçün "ilk pozuntu" və ya "ikinci pozuntu" kimi nəzərə alınır.

21.6 Ümumdünya Antidopinq Proqramının məqsədləri, əhatə dairəsi və təşkil edilməsi, *Məcəllə* və Əlavə 1, Anlayışlar, Əlavə 2, 10-cu Maddənin tətbiqi nümunələri *Məcəllənin* ayrılmaz hissələri hesab edilməlidir.

## MADDƏ 22. *İDMANÇILARIN* VƏ DİGƏR *ŞƏXSLƏRİN* ƏLAVƏ ROL VƏ ÖHDƏLİKLƏRİ

### 22.1 *İdmançıların* rolları və öhdəlikləri:

22.1.1 Hazırki Antidopinq Qaydaları ilə tanış olmaq və onlara riayət etmək.

22.1.2 Hər an *Nümunələrin* toplanması üçün hazır olmaq.

22.1.3 Antidopinq kontekstində, qəbul və *İstifadə* etdiklərinə görə məsuliyyət daşımaq.

22.1.4 Tibbi heyəti *Qadağan edilmiş Maddələrin və Qadağan edilmiş Üsulların* istifadə edilməməsinə dair öhdəlikləri barədə məlumatlandırmaq və aldığı hər hansı tibbi müalicənin hazırki Antidopinq Qaydalarını pozmadığının təminatına görə məsuliyyəti üzərinə götürmək.

22.1.5 Hər hansı *İmzalamayan tərəfin* onun son on il ərzində antidopinq qayda pozuntularını aşkar etməsi barədə qərarını özünün Beynəlxaq Federasiyasına və MADA-ya açıqlamaq.

22.1.6 Antidopinq qayda pozuntusu hallarını təqib edən Antidopinq Təşkilatları ilə əməkdaşlıq etmək.

## 22.2 *İdmançılara Dəstək Heyəti* üzvlərinin rolları və öhdəlikləri:

22.2.1 Antidopinq Qaydaları ilə tanış olmaq və onlara riayət etmək.

22.2.2 *İdmançıların Testdən* keçrilməsi proqramı ilə əməkdaşlıq etmək.

22.2.3 Antidopinq yanaşmasının inkişaf etdirilməsi məqsədilə, *İdmançının* dəyərləri və davranışına təsir etmək.

22.2.4 Hər hansı *İmzalamayan tərəfin* onun son on il ərzində antidopinq qayda pozuntularını aşkar etməsi barədə qərarını özünün Beynəlxaq Federasiyasına və MADA-ya açıqlamaq.

22.2.5 Antidopinq Qaydalarının pozuntusu hallarını təqib edən Antidopinq *Təşkilatları* ilə əməkdaşlıq etmək.

22.2.6 *İdmançıya Dəstək Heyətinin* üzvü etibarlı əsaslandırma olmadan *Qadağan edilmiş Maddədən* və ya *Qadağan edilmiş Üsuldan* istifadə edə və ya onlara malik ola bilməz.

# MADDƏ 23. MALİYYƏ MÜDDƏALARI

## 23.1 Agentliyin maliyyə vəsaitləri

Agentliyin vəsaitləri aşağıdakılardan ibarətdir:

23.1.1 Hökumət tərəfindən ayrılan büdcə vəsaiti;

23.1.2 Agentliyin hazırki Qaydalara uyğun olaraq öz salahiyyətlərini icra etməsi yaxud funksiyalarını yerinə yetirməsi gedişində Agentlikdə yığılan və ya qoyulan pul vəsaitləri və aktivlər;

23.1.3 Agentliyə ödənilə biləcək istənilən qrantlar, hədiyyələr, yardımlar və ya digər ianələr, habelə

23.1.4 Agentliyə borc verilən və ya bağışlanılan pul vəsaitləri.

## 23.2 Maliyyə ili

Agentliyin maliyyə ili on iki aylıq müddəti əhatə edir.

## 23.3 İllik qiymətləndirmə

23.3.1 Hər maliyyə ilinin başlanmasına üç ay qalmış Agentlik həmin il üçün gəlir və xərclərin qiymətləndirilməsinin həyata keçirilməsini başlatmalıdır.

23.3.2 İllik hesabatlar müvafiq maliyyə ili üçün Agentliyin bütün xərclərinin qiymətləndirilməsini nəzərdə tutmalıdır, xüsusən də, aşağıdakıları təmin etməlidir:

23.3.2.1 Agentliyin əməkdaşlarına münasibətdə əmək haqlarının, müavinətlərin və digər ödənişlərin ödənilməsi;

23.3.2.2 Agentliyin vəsaitlərindən ödənilməli bütün müavinətlər münasibətində  pensiyaların, pul mükafatlarının və digər ödənişlərin edilməsi;

23.3.2.3 Agentliyin inzibati binasının və onun ərazisinin saxlanılması, habelə

23.3.2.4  Binaların yaxud qurğuların, avadanlıqlarının sığortalanması yaxud əvəz edilməsinə ola biləcək gələcək ehtiyacların yaxud əlaqəli öhdəliklərin ödənilməsi üçün və Agentliyin zəruri hesab etdiyi digər məsələlərlə münasibətdə ehtiyat fondunun yaradılması;

23.3.2.5  Agentliyin və onun layihələrinin fəaliyyəti və idarə edilməsi, habelə aktivlərin amortizasiyası, köhnəlməsi və ya yenilənməsi, sığorta və Şuranın zəruri hesab etdiyi digər məsələlərlə bağlı bütün xərclər;

23.3.2.6 Agentlik tərəfindən ödənilməsi tələb oluna bilən təzminatların ödənilməsi üçün vəsaitlər;

23.3.2.7 Qanunvericiliyə görə Agentlik tərəfindən ödənilməli vergilər, tariflər və rüsumlar; habelə

23.3.2.8 Hər hansı maliyyə ili ilə münasibətdə Agentliyin fəaliyyətinin maliyyələşdirilməsi.

## 23.4 Hesablar

Agentliyin bütün gəlirləri, xərcləri, aktivləri və öhdəlikləri barədə müvafiq mühasibat kitabçaları və qeydləri saxlanılmalıdır.

## 23.5 Sərmayə qoyuluşu

Agentlik istənilən pul vasitələrini yatırmaq hüququna malikdir.

## QOŞMA 1 ANLAYIŞLAR

***ADAMS:*** Antidopinq İnzibatçılıq və İdarəetmə Sistemi (Anti-Doping Administration and Management System) maraqlı tərəflərə və *ÜADA*-ya onların məlumat mühafizəsi üzrə qanunvericiliyə uyğun Antidopinq fəaliyyətlərində yardım göstərmək məqsədilə verilən məlumatların daxil edilməsi, saxlanılması, paylaşdırılması və hesabatların hazırlanması üçün veb-əsaslı idarəetmə bazasıdır.

***Qadağan edilmiş Maddə/Üsulun Tətbiqi (Administration)***: Digər *Şəxs* tərəfindən *Qadağan edilmiş Maddə yaxud Qadağan edilmiş Üsulun İstifadəsində* yaxud *İstifadə Cəhdinin* həyata keçirilməsində təminat, təchizat, nəzarət, yardım və ya hər hansı digər şəkildə iştirak. Lakin, bu anlayış özünə əsl tibbi heyətin *Qadağan edilmiş Maddə yaxud Qadağan edilmiş Üsulun* həqiqi və qanuni terapevtik məqsədlər üçün yaxud digər məqbul əsaslandırma ilə istifadə edilməsini cəlb edən hərəkətlərini daxil etməməlidir. Anlayış, həmçinin təfsilatların bütövlükdə belə *Qadağan edilmiş Maddələrin* həqiqi və qanuni terapevtik məqsədlər üçün nəzərdə tutulmadığını və idman məhsuldarlığını artırmaq üçün nəzərdə tutulduğunu nümayiş etdirməsi halları istisna olmaqla Yarışmadan kənar müddət Testin keçirilməsində qadağan edilməmiş *Qadağan edilmiş Maddələri* cəlb edən hərəkətləri daxil etməməlidir.

***Qeyri-əlverişli Analiz Nəticələri (Adverse Analytical Finding)*:** *ÜADA* tərəfindən akkreditə olunmuş laboratoriya yaxud *ÜADA* tərəfindən tanınan laboratoriyanın Laboratoriyalar üzrə Beynəlxalq Standartlara və əlaqəli Texniki Sənədlərə uyğun olaraq *Nümunədə Qadağan edilmiş Maddənin* yaxud onun (yüksək miqdarda endogen maddələr daxil olmaqla) *Metabolitlərinin* və ya *Markerlərinin* mövcudluğunun yaxud *Qadağan edilmiş Üsulun İstifadəsinin* sübutunun əldə alınması haqqında məlumat verən hesabat.

***Qeyri-əlverişli Pasport Nəticələri (Adverse Passport Finding):*** Tətbiq oluna bilən *Beynəlxalq Standartlarda* təsvir olunduğu kimi *Qeyri-əlverişli Passport Nəticələri* adlanan hesabat.

***Antidopinq Təşkilatı (Anti-Doping Organization):*** *Dopinq Nəzarəti* prosesinin hər hansı hissəsinin başlandırılması, icrası yaxud riayət edilməsini təmin edən qaydaların qəbul edilməsi üçün məsuliyyət daşıyan *İmzalayan tərəf*. Onların sırasına, məsələn, Beynəlxalq Olimpiya Komitəsi, Beynəlxalq Paralimpiya Komitəsi, öz *Tədbirlərində Test* keçirən *Əsas Tədbir Təşkilatçıları, ÜADA, Beynəlxalq Federasiyalar və Milli Antidopinq Təşkilatları* aid edilir.

***İdmançı (Athlete):*** Beynəlxalq səviyyədə (hər bir Beynəlxalq Federasiya tərəfindən nəzərdə tutulmuş qaydada) və ya milli səviyyədə (hər bir *Milli Antidopinq Təşkilatı*

tərəfindən nəzərdə tutulmuş qaydada) idman yarışlarda iştirak edən istənilən *Şəxs*. *Antidopinq Təşkilatı nə Beynəlxalq səviyyəli İdmançı*, nə də *Milli Səviyyəli İdmançı* sayılmayan *İdmançıya* Antidopinq Qaydalarını tətbiq etmək və, beləliklə, onu *"İdmançı"* kateqoriyasına aid etmək ixtiyarındadır. Nə *Beynəlxalq səviyyəli İdmançı*, nə də *Milli Səviyyəli İdmançı* sayılmayan *İdmançılar* ilə bağlı *Antidopinq Təşkilatı* aşağıdakı qərarları verə bilər: məhdud *Testin* keçirilməsi və ya heç bir Testin keçirilməməsi; *Nümunələrin Qadağan edilmiş Maddələrin* natamam siyahısı üçün müayinə edilməsi; məkan məlumatı barədə məhdud məlumat tələb etmək yaxud ümumiyyətlə onu tələb etməmək; və ya əvvəlcədən *TİI-lərin* keçirilməsini tələb etməmək. Lakin, üzərində *Antidopinq Təşkilatının* səlahiyyəti olan və beynəlxalq və ya milli səviyyədən aşağı səviyyədə yarışlarda iştirak edən hər hansı *İdmançı* tərəfindən antidopinq qaydalaırnın 2.1, 2.3 və 2.5-ci Maddələri pozulduğu halda, *Məcəllədə* müəyyən edilmiş (14.3.2-ci Maddəsi istisna olmaqla) *Sanksiyalar* tətbiq edilməlidir. 2.8-ci və 2.9-cu Maddələrin və antidopinq məlumatının yığılması və təhsili məqsədləri üçün bu *Məcəlləni* qəbul edən hər hansı *İmzalayan tərəfin*, hökümətin və ya digər idman təşkilatın yurisdiksiyası altında keçirilən yarışmalarda iştirak edən istənilən *Şəxs İdmançı* sayılır.

***<u>İdmançının Bioloji Pasportu (Athlete Biological Passport):</u>*** Test keçirilməsi və Təhqiqatları üzrə Beynəlxalq Standartda və Laboratoriyalar üzrə Beynəlxalq Standartda təsvir olunduğu kimi verilən məlumatların yığılması və tutuşdurulması üçün proqram və üsullar.

***<u>İdmançıya Dəstək Heyəti (Athlete Support Personnel):</u>*** *Yarışmalarda* iştirak edən yaxud iştiraka hazırlaşan *İdmançı* ilə işləyən, onu müalicə edən və ya ona yardım göstərən hər hansı məşqçı, təlimçi, menecer, agent, komanda heyəti, rəsmi, tibbi və kiçik tibbi heyət, onun valideyni və ya istənilən digər *Şəxs*.

***<u>Cəhd (Attempt):</u>*** Antidopinq qayda pozuntusu ilə nəticələnməsi planlaşdırılan, davamlı davranışda əhəmiyyətli addım təşkil edən məqsədli hərəkət. Lakin, bununla yanaşı, *Şəxs Cəhddə* cəlb olunmayan üçüncü tərəf tərəfindən aşkarlanmazdan əvvəl *Cəhddən* imtina etdiyi halda yalnız pozuntu edilməsinə *Cəhd*, antidopinq qayda pozuntusu sayılmır.

***<u>Atipik Nəticələr (Atypical Finding):</u>*** *ÜADA* tərəfindən akkreditə olunmuş laboratoriya yaxud *ÜADA* tərəfindən tanınan laboratoriyanın *Qeyri-əlverişli Analiz Nəticələrinin* müəyyən edilməsindən əvvəl Laboratoriyalar üzrə Beynəlxalq Standart və əlaqəli Texniki Sənədlərin müəyyən etdiyi kimi əlavə təhqiqat tələb edən hesabat.

***<u>Atipik Pasport Nəticələri (Atypical Passport Finding):</u>*** Tətbiq oluna bilən *Beynəlxalq Standartlarda* təsvir olunduğu kimi *Atipik Passport Nəticələri* adlanan hesabat.

***İAM (CAS):*** İdman üçün Arbitraj Məhkəməsi.

***Məcəllə (Code):*** Ümumdünya Antidopinq Məcəlləsi.

***Yarışma (Competition):*** Hər hansı bir yarış, matç, oyun və ya tək idman müsabiqəsi. Məsələn, baketbol oyunu və ya Olimpiya oyunlarında yüngül atletika üzrə 100 metr məsafədə qaçışların finalı. Çoxmərhələli yarışlar və prizlərin gündəlik yaxud digər ortalıq əsasda təltif edildiyi digər yarışmalarda *Yarışma* və Tədbir arasında fərq müvafiq *Beynəlxalq Federasiyanın* qaydalarında müəyyən edildiyi kimi olacaqdır.

***Antidopinq qayda pozuntuları üçün Sanksiyalar ("Sanksiyalar") (Consequences of Anti-Doping Rule Violations ("Consequences"):*** *İdmançı* yaxud digər Şəxsin antidopinq qayda pozuntusu aşağıdakıların birində yaxud bir neçəsi daxil olmaqla nəticələnə bilər: (a) *Kənarlaşdırılma* deməkdir ki, *İdmançının* konkret *Yarışma* yaxud *Tədbirdəki* nəticələri etibarsız hesab edilir, bütün nəticə *Sanksiyalar* ilə, hər hansı medalların, xalların və mükafatların müsadirəsi daxil olmaqla; (b) *Diskvalifikasiya deməkdir* ki, *İdmançı* yaxud digər *Şəxs* 10.11.1-ci Maddəyə uyğun olaraq antidopinq qayda pozuntusuna görə müəyyən müddət ərzində hər hansı *Yarışma* yaxud digər fəaliyyətdə iştirak yaxud maliyyələşdirmədən faydalanması qadağan edilmişdir; (c) *Şərti Kənarlaşdırılma* deməkdir ki, *İdmançı* yaxud digər *Şəxsə* müvəqqəti olaraq 8-ci Maddəyə uyğun olan dinləmənin son qərarına qədər hər hansı *Yarışma* yaxud digər fəaliyyətdə iştirak etməsi qadağan edilmişdir; (d) *Maliyyə Sanksiyalar* antidopinq qayda pozuntusuna görə yaxud antidopinq qayda pozuntusu ilə bağlı xərclərin qaytarılması üçün tətbiq edilmiş maliyyə sanksiyası deməkdir; və (e) *İctimaiyyətə açıqlama* məlumatın ictimaiyyətə yaxud 14-cü Maddəyə uyğun olaraq öncədən bildiriş almağa hüququ olan *Şəxslərdən* başqa *Şəxsə* yaymaq yaxud paylaşmaq deməkdir. *Məcəllənin* 11-ci Maddəsinə uyğun olaraq *Komanda idman növlərində* Komandalarada *Sanksiyalar* tətbiq oluna bilər.

***Kontaminasiya olunmuş Məhsul (Contaminated Product):*** Tərkibinə onun etiketində açıqlanmayan və ya ağlabatan İnternet axtarışı vasitəsilə aşkarlanmayan *Qadağan edilmiş Maddə* daxil olan məhsul.

***Kənarlaşdırılma (Disqualification):*** Yuxarıda *Antidopinq qayda pozuntuları üçün Sanksiyalara* bax.

***Dopinqə Nəzarət (Doping Control:*** Test bölüşdürməsindən başlayaraq hər hansı apellyasiya qaydasında baxılmış mübahisənin son qərarına qədər məkan məlumatının təqdim edilməsi, *Nümunə* toplanması və idarə edilməsi, laboratoriya müayinələri, *TİI-lər*, nəticələrin emalı və mübahisələrin dinlənməsi daxil olmaqla bütün addımlar və proseslər.

**Tədbir (Event):** Bir təşkilatçı orqan tərəfindən keçirilən fərdi *Yarışmalar* seriyası (məs., Olimpiya Oyunları, FİNA Dünya Çempionatları yaxud Panamerika Oyunları).

Tədbir Yerləri (Event Venues): Təşkilatçı orqan tərəfindən Tədbirə təyin edilmiş yerlər.

**Tədbir Müddəti (Event Period):** *Tədbirin* təşkilatçı orqanın müəyyən etdiyi kimi, *Tədbirin* başlanğıcı və sonu arasında zaman.

**Xəta (Fault):** Xəta konkret vəziyyətə müvafiq olaraq öhdəliyin pozulması yaxud hər hansı ehtiyatsızlıqdır. *İdmançı* yaxud digər *Şəxsin Xətasının* dərəcəsinin qiymətləndirilməsində nəzərə alınmalı amillə özünə məsələn, *İdmançı* yaxud digər *Şəxsin* təcrübəsini, *İdmançı* yaxud digər *Şəxsin Azyaşlı* olub-olmamasını, zədə kimi xüsusi hallar, *İdmançı* tərəfindən hiss edilməli risk dərəcəsi və *İdmançı* tərəfindən hiss edilən risk səviyyəsinin neçə olması ilə əlaqədar *İdmançının* göstərdiyi ehtiyat və təhqiqat səviyyəsi daxil edir. *İdmançı* yaxud digər *Şəxsin Xətasının* dərəcəsinin qiymətləndirilməsində, nəzərə alınan təfərrüatlar konkret və müvafiq olmalıdır ki, *İdmançı* yaxud digər *Şəxsin* gözlənilən davranış standartından kənarlaşmasını izah edə bilsin. Beləliklə, məsələn, *İdmançının Diskvalifikasiya* müddətində böyük həcmdə pul qazanmaq imkanını itirəcəyi faktı, yaxud İdmançının karyerasında yaxud idman təqviminində qısa vaxt qaldığı faktı 10.5.1 yaxud 10.5.2-ci Maddələrə uyğun olaraq *Diskvalifikasiya* müddətində azaldılmasına nəzərə alınmalı müvafiq amillərin arasında deyil.

**Maliyyə Sanksiyaları (Financial Consequences):** yuxarıda *antidopinq qaydı pozuntularına görə Sanksiyalara* bax.

**Yarışma müddəti (In-Competition):** Beynəlxalq Federasiyanın və ya konkret *Tədbirin* təşkilatçı orqanının qaydalarında başqa cür qeyd olunmadığı halda, *"Yarışma müddəti" İdmançının* iştirakı planlaşdırılmış *Yarışmadan* on iki saat əvvəl başlayan və sözügedən *Yarışmanın* sonuna qədər davam edən müddət və belə *Yarışma* ilə əlaqədar *Nümunə* toplanması prosesi deməkdir

**Müstəqil Müşahidəçi Proqramı (Independent Observer Program):** *ÜADA-nın* nəzarəti altında işləyən və konkret *Tədbirlərdə Dopinqə Nəzarət* prosesini müşahidə edən və məsləhət verən və müşahidələri əsasında hesabat verən müşahidəçilər qrupu.

**Fərdi idman (Individual Sport):** *Komanda idman növü* olmayan hər hansı digər idman.

**Diskvalifikasiya (Ineligibility):** yuxarıda *antidopinq qayda pozuntularına görə Sanksiyalara* bax.

***Beynəlxalq Tədbir (International Event):*** Beynəlxalq Olimpiya Komitəsinin, Beynəlxlaq Paralimpiya Komitəsinin, Beynəlxalq Federasiyanın, Əsas Tədbir Təşkilatçısı yaxud digər beynəlxalq idman təşkilatının *Tədbirin* təşkilatçı orqanı olduğu yaxud Tədbir üçün texniki rəsmiləri işə qəbul etdiyi *Tədbir* yaxud *Yarışma*.

***Beynəlxalq səviyyəli İdmançı (International-Level Athlete):*** Test keçirilməsi və Təhqiqatlar üzrə Beynəlxalq Stnadarta uyğun olaraq Beynəlxalq Federasiya tərəfindən müəyyən edildiyi kimi beynəlxalq səviyyəli idmanda yarışan *İdmançılar*.

***Beynəlxalq Standart (International Standard):*** *ÜADA* tərəfindən *Məcəlləni* dəstəkləmək üçün qəbul edilmiş standart. *Beynəlxaq Standarta* (digər alternativ standarta, təcrübəyə yaxud prosedura riayətin əksi olaraq) riayət *Beynəlxalq Standart* tərəfindən təyin edilmiş prosedurların müvafiq olaraq icra edilməsi qənaətinə gəlmək üçün kifayətdir. *Beynəlxalq Standartlar*, onların əsasında dərc edilmiş hər hansı Texniki sənədləri daxil etməlidirlər.

***Əsas Tədbir Təşkilatçısı (Major Event Organizations):*** Hər hansı kontinental, regional yaxud digər *Beynəlxalq Tədbir* üçün təşkilatçı qurum kimi fəaliyyət göstərən *Milli Olimpiya Komitələri* və digər multi-idman təşkilatlarının kontinental assosiasiyaları.

***Marker (Marker):*** *Qadağan edilmiş Maddənin* yaxud *Qadağan edilmiş Üsulun İstifadəsini* göstərən birləşmə, birləşmələr qrupu yaxud bioloji parametr(lər).

***Metabolit (Metabolite):*** Biotransformasiya prosesində yaranmış istənilən maddə.

***Azyaşlı (Minor):*** On səkkiz yaşına çatmamış fiziki *Şəxs*.

*Milli Antidoping Təşkilatı (National Anti-Doping Organization):* Hər ölkə tərəfindən milli səviyyədə Antidopinq Qaydalarının qəbulu və icrası, *Nümunələrin* toplanmasına rəhbərlik, test nəticələrinin emalı və dinləmələrin keçirilməsi üçün əsas səlahiyyət və məsuliyyətə malik orqan kimi təyin edilmiş təşkilat. Bu təyinat müvafiq səlahiyyətli dövlət orqanı tərəfindən edilməyibsa, həmin təşkilat ölkənin *Mİlli Olimpiya Komitəsi* yaxud onun təyin etdiyi təşkilat olmalıdır.

***Milli tədbir (National Event):*** *Beynəlxalq Tədbir* olmayan və *Beynəlxalq* yaxud *Milli səviyyəli İdmançıların* iştirakı ilə keçirilən idman *Tədbiri* yaxud *Yarışma*.

***Milli Federasiya (National Federation):*** *Beynəlxalq Federasiyanın* üzvü olduğu və ya onun tərəfindən tanındığı, bu ölkə və ya regionda *Beynəlxalq Federasiyanın* idman yarışlarına nəzarət edən milli və ya regional qurum.

***Milli səviyyəli idmançı (National-Level Athlete):*** Test keçirilməsi və Təhqiqat-

lar üzrə Beynəlxalq Standarta müvafiq olaraq *Milli Antidopinq Təşkilatı* tərəfindən müəyyən edildiyi qaydada milli səviyyədə yarışan *İdmançılar.* Azərbaycanda *Milli səviyyəli İdmançıların* anlayışı 1.4-cü Madddədə veilmişdir.

***Milli Olimpiya Komitəsi (National Olympic Committee):*** Beynəlxalq Olimpiya Komitəsi tərəfindən tanınan təşkilat. *Milli Olimpiya Komitəsi* anlayışı altında həmçinin bəzi ölkələrdə Milli İdman Konfederasiyasının Antidopinq sahəsində *Milli Olimpiya Komitəsinin* səciyyəvi öhdəliklərini yerinə yetirən Milli İdman Konfederasiyasıda başa düşülür.

***Xəta və ya Səhlənkarlıq olmaması (No Fault or Negligence):*** *İdmançı* yaxud digər *Şəxsin Qadağan edilmiş Maddə yaxud Qadağan edilmiş Üsul* İstifadə etdiyinindən, yaxud ona tətbiq edilməsindən xəbəri olmadığını və hətta bütün ehtiyat tədbirlərinin görülməsi ilə də ağlabatan şəkildə bilə də bilmədiyini yaxud şübhə etmədiyini sübut etməsi. *Azyaşlı* ilə əlaqədar hallar istisna olmaqla, *İdmançı* 2.1-ci Maddənin hər hansı pozuntusu halında *Qadağan edilmiş Maddənin* onun sisteminə necə daxil olmasını izah etməlidir.

***Qeyri-əhəmiyyətli Xəta yaxud Səhlənkarlıq (No Significant Fault or Negligence):*** *İdmançı* yaxud digər *Şəxsin,* onun Xəta yaxud səhlənkarlığının təfərrüatları cəmlikdə baxdıqda və *Xəta yaxud Səhlənkarlıq* olmaması üçün meyarları nəzərə alanda, antidopinq qaydal pozuntusuna nisbətdə qeyri-əhəmiyyətli olmasının sübüt etməsi. *Azyaşlı* ilə əlaqədar hallar istisna olmaqla, İdmançı 2.1-ci Maddənin hər hansı pozuntusu halında *Qadağan edilmiş Maddənin* onun sisteminə necə daxil olmasını izah etməlidir.

***Yarışmadan kənar müddət (Out-of-Competition).*** *Yarışmadan kənar olan* istənilən müddət.

***İştirakçı (Participant):*** Hər hansı bir *İdmançı* və ya *İdmançıya Dəstək Heyətinin* üzvü.

***Şəxs (Person):*** Fiziki şəxs və ya təşkilat və ya digər hüquqi şəxs.

***Sahiblik (Possession):*** Faktiki, fiziki *Sahiblik* yaxud dolayı *Sahiblik* (*Şəxsin Qadağan edilmiş Maddə* yaxud *Qadağan edilmiş Üsul* üzərində müstəsna nəzarət imkanı olduğu, yaxud onun *Qadağan edilmiş Maddə* yaxud *Qadağan edilmiş Üsul* və ya həmin maddə və üsulun yerləşdiyi otaqlar üzərində müstəsna nəzarət imkanını əldə etmək niyyəti olduğu hallarda baş verir); əgər *Şəxsin Qadağan edilmiş Maddə* yaxud *Qadağan edilmiş Üsul* və ya həmin maddə və üsulun yerləşdiyi otaqlar üzərində müstəsna nəzarət imkanı yoxdursa, dolayı *Sahiblik* faktı yalnız o zaman yer tutacaq

ki, həmin *Şəxsin Qadağan edilmiş Maddə* yaxud *Qadağan edilmiş Üsulun* mövcudluğu barədə məlumatı olsun və o, onun üzərində nəzarət imkanını əldə etmək niyyətində olsun. *Qadağan edilmiş Maddə* yaxud *Qadağan edilmiş Üsula* malik *Şəxsin* antidopinq qayda pozuntusu barədə hər hansı bildirişin alınmasından əvvəl *Qadağan edilmiş Maddə* yaxud *Qadağan edilmiş Üsuldan* heç zaman istifadə etmək niyyətində olmadığını göstərmək üçün konkret tədbir görməsi və *Sahiblikdən* imtina etdiyini açıq şəkildə *Antidopinq Təşkilatına* elan etməsi halları yalnız *Sahiblik* əsasında antidopinq qayda pozuntusu hesab edilə bilinməz. Bu anlayışdakı hər hansı ziddiyyətlərə baxmayaraq, *Qadağan edilmiş Maddə* yaxud *Qadağan edilmiş Üsulun* (elektron yaxud digər vasitə ilə) satınalınmasını etmiş *Şəxs* tərəfindən *Sahiblik* hesab edilir.

***Qadağan edilmiş Maddələr və Üsullar Siyahısı (Prohibited List):*** *Qadağan edilmiş Maddələri və Qadağan edilmiş Üsulları* müəyyənləşdirən siyahı.

***Qadağan edilmiş Üsul (Prohibited Method):*** *Qadağan edilmiş Maddələr və Üsullar* Siyahısında təsvir edilmiş hər hansı üsul.

***Qadağan edilmiş Maddə (Prohibited Substance):*** *Qadağan edilmiş Maddələr və Üsullar Siyahısında* təsvir edilmiş maddə və ya maddələr sinifi.

***Şərti dinləmə (Provisional Hearing):*** 7.9-cu Maddənin məqsədləri üçün 8-ci Maddə əsasında dinləmədən öncə həyata keçirilən və idmançını xəbərdarlıq edən və yazılı və ya şifahi formada işin baxılmasını mümkün edən sürətləndirilmiş qısa dinləmə.

***Şərti Kənarlaşdırma (Provisional Suspension):*** yuxarıda *antidopinq qayda pozuntularına görə Sanksiyalara* bax.

***İctimaiyyətə açıqlama (Publicly Disclose or Publicly Report):*** *yuxarıda antidopinq qayda pozuntularına görə Sanksiyalara* bax.

***Regional Antidopinq Təşkilatı (Regional Anti-Doping Organization):*** üzv ölkələr tərəfindən onların Antidopinq Qaydalarının qəbul edilməsini və həyata keçirilməsini, *Nümunələrin* planlaşdırılmasını və toplanması, nəticələrin emalını, *TİI-lərin* nəzərdən keçirilməsini, mübahisələrin baxılmasının keçirilməsini, habelə regional səviyyədə təhsil proqramlarının həyata keçirilməsi kimi milli antidopinq proqramlarının həvalə edildiyi sahələrinin koordinasiyasının və nəzarətini həyata keçirmək üçün təyin edilmiş regional təşkilat.

***Qeydiyyata alınmış Test Qrupu (Registered Testing Pool):*** Ayrılıqda beynəlxalq səviyyədə *Beynəlxalq Federasiyalar* və milli səviyyədə *Milli Antidopinq Təşkilatları*

tərəfindən təşkil edilən və həmin *Beynəlxalq Federasiya* yaxud *Milli Antidopinq Təşkilatın* test bölüşdürmə planının bir hissəsi kimi hədəflənmiş *Yarışma müddətində və Yarışmadan kənar müddətdə Testindən* keçməli və beləliklə Məcəllənin 5.6-cı Maddəsinə və Test keçirilməsi və Təhqiqatlar üzrə Beynəlxalq Standarta uyğun olaraq məkanları barədə məlumat vermələri tələb olunan yüksək prioritetli *İdmançılardan* ibarət qrup.

***Nümunələr (Sample or Specimen):*** *Dopinq Nəzarətinin* həyata keçirilməsi məqsədləri üçün toplanan istənilən bioloji material.

***İmzalayan tərəflər (Signatories):*** *Məcəlləni* imzalayan və *Məcəllənin* 23-cü Maddəsinə uyğun olaraq onun müddəalarına riayət edilməsinə razılıq bildirən qurumlar.

***Xüsusi Maddə (Specified Substance):*** 4.2.2-ci Maddəyə bax.

***Ciddi Öhdəlik (Strict Liability):*** *Antidopinq Təşkilatına* 2.1-ci və 2.2-ci Maddələrə uyğun olaraq antidopinq qayda pozuntusunu sübut etmək üçün *İdmançı* tərəfindən niyyətin, *Xətanın,* səhlənkarlığın və ya bilərəkdən *İstifadənin* nümayiş etdirilməsinin zəruri olmadığını müəyyən edən qayda.

***Əhəmiyyətli Yardım (Substantial Assistance):*** 10.6.1-ci Maddənin məqsədləri üçün, *Əhəmiyyətli Yardım* göstərən şəxs: (1) antidopinq qayda pozuntusu ilə bağlı malik olduğu bütün informasiyanı yazılı bəyannamədə tam açıqlamalı və (2) *Antidopinq Təşkilatı* yaxud Komitə tərəfindən tələb olunduqda dinləmədə ifadə vermək daxil olmaqla, bu informasiya ilə bağlı təhqiqatlar və işin baxılması ilə tam əməkdaşlıq etməlidir. Bundan savayı, təchiz edilmiş informasiya etibarlı olmalı və başlanılan işin mühüm hissəsi olmalı yaxud işin başlanılmadığı halda başlanıla bilən iş üçün kifayət olan əsas yaratmalıdır.

***Saxtakarlıq (Tampering):*** Nəticələrin dəyişdirilməsi yaxud normal prosedurların baş verməsinin qarşısını almaq məqsədilə qeyri-qanuni məqsədlər üçün və ya qeyri-qanuni yolla dəyişdirilmə; qeyri-qanuni təsir göstərilmə; qeyri-qanuni müdaxilə; maneə yaratma, aldatma və ya digər fırıldaq hərəkətlərinin törədilməsi.

***Məqsədli Test (Target Testing):*** Test keçirilməsi və Təhqiqatlar üzrə Beynəlxalq Standartda nəzərdə tutulan meyarlar əsasında *Test* üçün konkret *İdmançıların* seçilməsi.

***Komanda tipli idman növü (Team Sport):*** *Yarışma* keçirildiyi zaman *İdmançıların* əvəz edilməsi mümkünlüyünü nəzərdə tutan idman növü.

**Test (Testing):** Test bölüşdürməsinin planlaşdırılmasını, *Nümunələrin* toplanmasını, *Nümunələrin* emal edilməsini və *Nümunələrin* laboratoriyaya göndərilməsini ehtiva edən *Dopinq Nəzarəti* prosesinin hissələri.

**Yayma (Trafficking):** *Qadağan edilmiş Maddənin* və ya *Qadağan edilmiş Üsulun İdmançı, İdmançıya Dəstək Heyəti üzvü* və ya *Antidopinq Təşkilatının* yurisdiksiyasına tabe olan istənilən digər şəxs tərəfindən üçüncü tərəfə (istər fiziki olaraq, istərsə də istənilən elektron və ya digər üsullarla) satışı, verilməsi, daşınması, göndərilməsi, çatdırılması və ya yayılması (və ya buna bənzər başqa məqsədlər üçün *Sahibliyi)*; lakin, bir şərtlə ki, bu anlayış həmçinin təfsilatların bütövlükdə belə *Qadağan edilmiş Maddənin* həqiqi və qanuni terapevtik məqsədlər üçün nəzərdə tutulmadığını və idman məhsuldarlığını artırmaq üçün nəzərdə tutulduğunu nümayiş etdirməsi halları istisna olmaqla *Yarışmadan kənar müddətdə Testdə* qadağan edilməmiş *Qadağan edilmiş Maddələri* cəlb edən hərəkətləri daxil etməməlidir.

**Tİİ (TUE):** 4.4-cü Maddədə təsvir edildiyi kimi Terapevtik İstifadə üçün İstisna.

**UNESCO Konvensiyası (UNESCO Convention):** UNESCO-nun Baş Konfransının 19 oktyabr 2005-ci il tarixdə keçirdiyi 33-cü sessiyasında qəbul edilmiş İdmanda Dopinqə qarşı Konvensiya, Tərəf Dövlətlər tərəfindən Konvensiyaya və Tərəflərin Konfransı tərəfindən İdmanda Dopinqə qarşı Konvensiya edilən hər hansı və bütün düzəlişlər daxil omaqla.

**İsitifadə:** İstənilən *Qadağan edilmiş Maddənin* və ya *Qadağan edilmiş Üsulun* istifadəsi, tətbiqi, udulması, iynə ilə vurulması və ya hər hansı üsulla qəbul edilməsi.

**ÜADA (WADA):** Ümumdünya Antidopinq Agentliyi.

AZƏRBAYCAN MİLLİ
**ANTİDOPİNQ**
AGENTLİYİ